


Mərvan Xəlifat

# QURANİ-KƏRİM VƏ ŞİƏLƏR

**Layihə rəhbəri : 313news.net**
**Redaktor: Peyman Məmmədov**
**Korrektor: Peyman Məmmədov**
**Texniki redaktor: Tural Ordubadi**

**Mərvan Xəlifat**

# QURANİ-KƏRİM VƏ ŞİƏLƏR

**Qurani-Kərimin hifz olunması, oxunuşu, hərəkələrinin qoyulması, həriflərinin nöqtələnməsi və təfsiri işində şiələrin ümmət içində üstünlüyü**

**313news.net**

## MÜNDƏRİCAT


Birinci fəsil ....... 6

Qurani-kərimin məşhur oxunuşu barədə nəql olunan hədisin sənədi şiələrə mənsubdur ....... 6

Müqəddimə ....... 6

Birinci mövzu: Həfs cərh və tədil mizanında ....... 7

İkinci mövzu: məşhur qiraətin raviləri barədə araşdırma ....... 13

Birinci: Həfs (90 h.q – 180 h.q) ....... 15

İkinci: Asim bin Əbunnucud (vəfatı: 128 h.q) ....... 16

Asimin şiə olmasının dəlilləri ....... 18

Üçüncü: Abdullah bin Həbib Suləmi (vəfatı: 74 h.q) ....... 25

Əbu Əbdürrəhman Suləminin şiə olmasının dəlilləri ....... 25

Üçüncü mövzu: Şiələrin Asimin qiraətinə verdikləri əhəmiyyət ....... 29

Asimin qiraəti barədə bəzi şiə alimlərinin sənədləri ....... 31

İkinci fəsil ....... 37

Şiə qarilər ....... 37

Birinci mövzu: Yeddi qari ....... 37

İkinci mövzu: Həmzə Zeyyat (80-156 h.) ....... 38

Həmzə bin Həbib Zeyyatın şiə olmasının dəlilləri ....... 39

Üçüncü mövzu: Kisai (vəfatı: 189 h.q.) ....... 42

Kisainin şiə olmasının dəlilləri ....... 43

Dördüncü mövzu: Aban bin Təğlib (vəfat: 141 h.q.) ....... 47

Beşinci mövzu: Süleyman Əməş (60 h.q – 148 h.q) ....... 50

Əməşin şiə olmasının dəlilləri ....... 52

Altıncı mövzu: Yəhya ibn Yəmur (vəfatı: hicri 90-cı ildən əvvəl) ....... 54

Yeddinci mövzu: Əbu Əmr bin Əla (vəfatı: 157 h.q.) ....... 58

Üçüncü fəsil ....... 60

Nəhv elminin yaradılması, quran hərflərinin üzərində nöqtələrin qoyulması və hərəkələnməsi məsələsində şiələrin rolu ....... 60

Birinci mövzu: Nəhv elminin yaradılması ....... 60

İkinci mövzu: Xəlil Fərahidi və onun şiə olması ....... 66

Üçüncü mövzu: Quran hərflərinin nöqtələnməsi və hərəkələnməsi ....... 72

Dördüncü fəsil ....... 84

Şiə təfsir alimləri və onların ümmətin üzərində təsirləri ....................................84
Müqəddimə ......................................................................................................84
Birinci mövzu: Əbdürrəzzaq Sənani (vəfatı: 210 h.q.) ......................................84
Əbdürrəzzaqın şiə olması ..................................................................................85
Şiə alimlərinin Əbdürrəzzaq barədə dedikləri ..................................................93
Əbdürrəzzaqın təfsir kitabı..................................................................................96
İkinci mövzu: İsmail bin Əbdürrəhman Suddi (vəfatı: 127 h.q.) .....................97
Suddinin şiə olmasına dair dəlillər.....................................................................99
Suddinin təfsiri ..................................................................................................100
Üçüncü mövzu: Səid bin Cübeyr ......................................................................102
Səid bin Cübeyrin şiə olmasının dəlilləri..........................................................102
Səid bin Cübeyrin təfsiri ..................................................................................106
Tədqiqatın xülasəsi ..........................................................................................107

## Birinci fəsil

### Qurani-kərimin məşhur oxunuşu barədə nəql olunan hədisin sənədi şiələrə mənsubdur

**Müqəddimə**

Vəhabilər və onların təsiri altına düşənlər həmişə şiələrə irad tutaraq onlardan Qurani-kərimin nəql olunması barədə səhih sənəd tələb edirlər. Onların belə bir tələbdə bulunması olduqca təəccüblüdür. Necə ki, məsəldə deyilir: "Kimin evi şüşədəndirsə başqasının evini daşlamaz". Məgər vəhabilər öz məzhəb prinsiplərinə əsasən bu gün müsəlmanların əksəriyyətinin oxunuşuna əsasən tərtib olunmuş Qurani-kərimin səhih sənədinə sahibdirlərmi?!

Bu gün müsəlmanların əksəriyyətinin oxuduğu Qurani-kərim Həfs bin Süleyman bin Muğirə Əsədi Kufinin tabeindən olan Asim bin Əbunnucud Kufinin Əbu Əbdürrəhman Abdullah bin Həbib Suləmidən onun da Osman bin Əffan, Əli bin Əbu Talib, Zeyd bin Sabit və Ubəy bin Kəbin Peyğəmbərdən (s) nəql etdiyinə əsasən tərtib olunmuş oxunuşdur.

Qərəzli insanların şiələrə irad tutmaq üçün daima axtardıqları boşluqları doldurmaq üçün bu mövzunu araşdırmaq qərarına gəldim. Qurani-kərimin qiraətində (mətnin oxunuşu və tərtibində) onların prinsiplərinə əsasən yalançı olan birinə etimad etdiklərini sübuta yetirdik. Həmçinin sübuta yetirdik ki, islam aləminin əksəriyyətinin etimad etdiyi Həfsin Asimdən nəql etdiyi qiraət sırf şiə qiraətidir. Başqaları bu qiraəti şiələrdən götürmüşlər, özlərinə nisbət vermişlər. Sonra isə başqaları qarşısında öyünürlər və onların bu qiraət barəsində səhih sənədə sahib olmamalarına irad tuturlar. Bu səfehlik və yüngüllükdür! Ərəb lüğətində bunların yaşadıqları bu psixoloji vəziyyəti ifadə edəcək söz belə tapmaq mümkün deyil. Biz indi sualı onlara doğru yönəldirik. Onlara gizli qalan və

ya onların gizlətdikləri həqiqəti bəyan edirik. Allahdan yardım diləyirik. Həqiqətən də, O, ən gözəl mövla və ən gözəl yardımçıdır.

**Birinci mövzu: Həfs cərh və tədil[1] mizanında**

Xətib Bağdadi belə deyir: "Həfs bin Süleyman bin Muğirə Əbu Əmr Əsədi Bəzzaz. O, qari Həfs bin Əbu Davuddur. Səmmak bin Hərbdən, Əlqəmə bin Mirsəddən, Əbu İshaq Səbiidən, Əbu İshaq Şeybanidən, Leys bin Səlimdən, Asim bin Əbunnucuddan hədis nəql etmişdir. Quranının qiraəti məsələsində o Asimin yoldaşı və ailə qurduğu qadının oğlu idi. Onunla birlikdə bir evdə yaşayırdı. Dəfələrlə Quranı (tamamilə) onun üçün oxumuşdur".[2]

İbn Həcər belə nəql edir: "(Quran) qarisi Həfs bin Süleyman bin Muğirə Əbu Əmr Əsədi Bəzzaz Kufi. Onu Ğaziri də adlandırırdılar. O, Hufeys adı ilə tanınırdı. Deyilənə görə babasının adı Muğirə olmuşdur. O, Həfs bin Əbu Davuddur. Asim bin Əbunnucudun yanında Quranı oxumuşdur. Onun (Asimin) ailə qurduğu qadının oğlu idi. Həmçinin ondan hədis nəql etmişdir.

Əli bin Səvvaf Abdullah bin Əhməddən, o da atası Salehdən, o da Əbu Hatəmdən, o da Abdullahdan, o da atasından belə nəql edir: "Nəql etdiyi hədis tərk olunur". Hənbəl bin İshaq Əhmədin də belə dediyini nəql etmişdir. Hənbəl bin İshaq nəql edir ki, Əhməd onun barəsində "Onun heç bir eybi yoxdur" sözünü də demişdir.

Osman Darami və başqası İbn Muinin belə dediyini nəql edir: "Etibarlı deyil".

---

[1] Cərh və tədil elmi hədis elminin bir qoludur. Burada ravilərin nəql etdikləri hədislərin məqbul və ya qeyri-məqbul olması baxımından onların xüsusiyyətləri araşdırılır və müəyyən şərtlər əsasında ravilər etibarlı və ya yalançı hesab olunur.

[2] Tarixu-Bağdad, c. 8, s. 182.

İbn Mədini deyir: “Hədisi zəifdir. Bilərəkdən onun hədisini tərk etmişəm”.

Cuzcani belə deyir: “Buxari onu tərk etmişdir”. Müslim deyir: “Tərk olunur”. Nəsai deyir: “Etibarlı deyil. Onun hədisi yazılmaz”. Başqa bir yerdə isə belə demişdir: “Hədisi tərk olunar”.

Saleh bin Muhəmməd belə deyir: “Onun nəql etdiyi hədislər yazılmaz. Bütün hədisləri yalandır”.

Saci deyir: “O, Səmmakdan və başqalarından batil hədislər nəql etmişdir”.

Əbu Zurəə belə deyir: “Hədisi zəifdir”. İbn Əbu Hatəm belə deyir: “Atamdan onun barəsində soruşduqda belə dedi: “Onun nəql etdiyi hədis yazılmaz. O, hədis nəql etməkdə zəif idi. Təsdiqlənməz. Hədisi tərk olunar”. Mən dedim: “Həriflər xüsusunda onun vəziyyəti necə idi?” (Atam) belə dedi: “Əbu Bəkr bin Əyyaş onun nəqlinə əsaslanmışdır”.

İbn Xiraş belə deyir: “Yalançıdır. Tərk olunar. Hədis qondarırdı”.

Əbu Əhməd Hakim belə deyir: “Nəql etdiyi hədis sabit deyil”.

Yəhya bin Səid Şöbənin belə dediyini nəql edir: “Həfs bin Süleyman məndən bir kitab götürdü və geri qaytarmadı. O, camaatın kitablarını götürüb nüsxəsini çıxarırdı”.

Saci Əhməd bin Muhəmməd Bağdadidən, o da İbn Muindən belə nəql edir: “Həfs və Əbu Bəkr Asimin qiraəti xüsusunda insanlar içərisində ən bilikli idilər. Həfs qiraət baxımından Əbu Bəkrdən də daha çox bilikli idi. O, yalançı idi. Əbu Bəkr isə doğru danışan idi...”[3]

Həfs barəsində onun nöqsanlı olmasına dəlalət edən sözlər demişlər. Həmin sözlərdən bəziləri bunlardır: Etibarlı deyil. Hədisi zəifdir. Bilərəkdən tərk etdim. Buxari tərk etmişdir. Müslim demişdir: “Tərk olunar”. Nəsai demişdir: “Etibarlı deyil. Hədisi yazılmaz”. Başqa bir yerdə

[3] Təhzibut-təhzib, c. 2, s. 345-346.

isə belə demişdir: "Nəql etdiyi hədis tərk olunar. Nəql etdiyi hədis yazılmaz". Nəql etdiyi hədis zəifdir. Təsdiqlənməz. Nəql etdiyi hədis tərk olunar".

Hər hansı ravinin etibarlı hesab olunması onun iki xüsusiyyətinə əsaslanır; doğru danışmaq və dəqiqlik. Rical alimlərinin Həfsin doğru danışması və dəqiqliyinə iradları aşkardır. Hətta bəziləri onu yalançılıqda və hədis qondarmaqda ittiham etmişdir. Baxmayaraq ki, bir neçə alimin dediyinə əsasən qiraət xüsusunda etibarlı şəxsdir. Onun yalançı olmasını deyənlərdən biri də Yahya bin Muindir. Onu "kəzzab", yəni çox yalan danışan olduğunu demişdir.

İbn Muinin dediyi sözləri İbn Həcər İbn Udəyin "Kamil" kitabından nəql etmişdir. Belə ki, axırıncı belə demişdir: "Saci, Əhməd bin Muhəmməd Bağdadinin belə dediyini nəql edir: Yəhya bin Muinin belə dediyini eşitdim: "Həfs bin Süleyman və Əbu Bəkr bin Əyyaş Asimin qiraəti xüsusunda insanlar içərisində ən bilikli idilər. Həfs qiraət xüsusunda Əbu Bəkrdən daha çox bilikli idi. Əbu Bəkr isə doğru danışan, Həfs isə çox yalançı idi".[4]

Həfsi yalançılıqda və hədis qondarmaqda ittiham edənlərdən biri də İbn Həcərin nəql etdiyi kimi məşhur rical alimi Əbdürrəhman bin Xiraş olmuşdur. Bəzi böyük alimlər bu ittihamları qəbul etmiş və Həfsin yalançı olmasının nəticəsi olaraq onun nəql etdiyi bəzi hədislərə irad tutmuşlar. Həmin alimlərdən aşağıdakıları qeyd edirik:

– İbn Covzi Həfsən nəql olunan bir hədisi qeyd edir: "Həfs bizə Əbu Davuddan, o da Leysdən, o da Mucahiddən, o da İbn Ömərdən belə nəql edir: "Rəsulullah (s) belə buyurub: "Ümmətimdən ən birinci əhli-beytimə şəfaət edəcəm. Sonra daha yaxınlara və daha yaxınlara..."Sonra belə deyir: Darqutni demişdir: "Bu hədisi Leysdən yalnız Həfs nəql etmişdir".

[4] əl-Kamil fi zuəfair-rical, c. 3, s. 268.

Musənnif belə demişdir: “Mən deyirəm: “Leysə gəlincə, onların (alimlərin) nəzərində son dərəcə zəifdir. Lakin bu sifətlərlə Həfs ittiham olunmuşdur. Əhməd, Müslim və Nəsai demişdir: “Onun nəql etdiyi hədis tərk olunar”. Əbdürrəhman Yusif bin Xiraş demişdir: “Hədisi tərk olunar. O, hədis qondarırdı”.[5]

– İbn Teymiyyə Həfsin yalançılıqla ittiham olunmasının sabit olduğunu vurğulayaraq belə deyir: “Yaya bin Muin Həfs barəsində belə deyir: “O, etibarlı deyil. O, Quranın qiraət xüsusunda Əbu Bəkr bin Əyyaşdan daha səhih qiraətə sahibdir. Əbu Bəkr isə ondan daha etibarlıdır. Onun barəsində nəql olunan başqa bir rəvayətdə isə belə deyilir: “Həfs qiraət xüsusunda Əbu Bəkrdən daha çox bilikli idi. Əbu Bəkr isə doğru danışan, Həfs isə çox yalançı idi...” Əbdürrəhman bin Xiraş belə deyir: “O, yalançıdır. Hədisi tərk olunar. O, hədis qondarırdı”.[6]

– İbn Əcəmi belə deyir: “Həfs bin Süleyman Həfs bin Əbu Davud Əbu Ömər Əsədidir. Onlar kufəli Ğaziri tərəfindən İslamı qəbul etmişlər. O, qiraət sahibi idi. Asimin ailə qurduğu qadının oğludur. Ona Hufeys də deyilir. İbn Xiraş onun barəsində deyir: “Yalançıdır və hədis qondarırdı”.[7]

– Əcluni belə deyir: “Məqasid kitabında deyir: “Həfs olduqca zəifdir. Hətta bəziləri onu hədis qondarmaqda və yalançılıqda ittiham etmişdir”.[8]

– Albani belə deyir: “Hədisdə buyurulur: “Kim həccə gedib vəfatımdan sonra qəbrimi ziyarət edərsə, sanki diri ikən məni ziyarət etmişdir”. Bəziləri isə “mənim səhabəm olmuşdur” sözlərini də əlavə etmişlər. Bu hədis olduqca yalandır. Həfs bin Süleyman (Quran) qarisi Əsədi Ğaziridir.

---

[5] İbn Covzi, əl-Movzuatul-kubra, sıhş 812.

[6] İbn Teymiyyə, Məcmuətul-fətava, c. 27 ,s. 218.

[7] əl-Kəşful-həsis əmmən rəma bi vəzil-hədis, c. 1, s. 101.

[8] Kəşful-xifa və muzilil-ilbas əmma iştəhərə minəl-əhadisi alə əlsinətin-nas, c. 2, s. 43.

Hədisi tərk olunar. Yalançılıqda və hədis qondarmaqda ittiham edilmişdir”.[9]

Həmçinin belə demişdir: “Həfs bin Süleyman Quran qarisidir. Onu Ğaziri də adlandırırlar. Olduqca zəifdir. Necə ki, hədis hafizi İbn Həcər “ət-Təqrib” kitabında buna işarə edərək demişdir: “Nəql etdiyi hədis tərk olunar. Çünki İbn Muin onun barəsində belə demişdir: “İbn Udəyin “Kamil” kitabında qeyd edildiyi kimi o, çox yalançı idi”. İbn Xiraş demişdir: “Çox yalançıdır və hədis uydururdu”.[10]

Bəlkə də bəziləri İbn Xiraşın ittihamını, onun özünün rafizi olmasını və Zəhəbinin ona nöqsan tutmasını qeyd edə bilərlər.[11]

Biz onun tərcümeyi-halından bəzi məqamları qeyd edirik. Zəhəbi belə deyir: “İbn Xiraş, hədis hafizi, tədqiqatçı, ustad Əbu Muhəmməd Əbdürrəhman bin Yusif bin Səid bin Xiraş Mərzəvi Bağdadi...”[12]

İbn Mədini deyir: “Hədis hifz etməkdə, hədis anlamaqda və rical elmində xatırlanan az saylı şəxslərdəndir”.

Əbu Nəim deyir: “İbn Xiraş qədər hədisi əzbər bilən birini görmədim”. İbn Udəy deyir: “Onun bilərəkdən yalan danışmamasını ümid edirəm”.[13]

Tarixi-Bağdad kitabında belə yazılıb: “İbn Udəy belə deyir: “Əbdülməlik bin Muhəmməd Əbu Nəimin İbn Xiraşı təriflədiyini eşitdim”. Onun barəsində belə demişdir: “Onun qədər hədis əzbər bilən birini görmədim...”[14]

---

[9] Məhəmməd bin Nasuriddin Albani, “Difaun ənil-hədisin-nəbəvi vəs-siyrə”, c. 1, s. 107.

[10] Albani, Silsilətul-əhadis əz-zəifəti vəl-movzuəti və əsəruhas-səyyi fil-umməti, c. 1, s. 120, 121.

[11] Zəhəbi, Təzkirətul-huffaz, c. 2, s. 685.

[12] Zəhəbi, Siyrəu-əlamun-nubəla, c. 13, s. 508, 510.

[13] Zəhəbi, Siyəru-əlamun-nubəla, c. 13, s. 508, 510; Lisanul-mizan, c. 3, s. 444, 445.

[14] Xətib Bağdadi, Tarixi-Bağdad, c. 10, s. 280.

Zəhəbi özü İbn Xiraşın ravilər barədə sözlərinə daha çox etimad edirdi. Zəhəbi "əl-Muğni fiz-zuəfa" kitabında 20, "Təzkirətul-huffaz" kitabında 5, "Mizanul-itidal kitabında" 50, "Siyəru əlamin-nubəla kitabında" isə 66 dəfə onun adını qeyd etmişdir. Zəhəbi cərh və tədil mövzusunda sözünə etimad edilənlər barədə yazdığı kitabında İbn Xiraşı sözlərinə etimad edilənlərdən hesab etmişdir.[15]

Həmçinin İbn Həcər də İbn Xiraşın sözlərinə etimad etmişdir. Təhzibut-təhzib kitabında onun ravilər barədə rəylərinə etimad edərək 158 dəfə, Lisanul-mizan kitabında isə 13 dəfə adını qeyd etmişdir. Bütün bunlar bu şəxsin əhəmiyyəti, ixtisasında bacarıqlı olması və sözünə etimad edilməsinə dəlalət edir.

İbn Xiraşın Kufəli bir şəxs barədəki rəyini qeyd etdik. İbn Muin onun rəyi ilə müvafiqdir. Ola bilər ki, bəzi tənqidçilər İbn Xiraşın şamlılar əleyhinə söylədiyi rəylərinə etiraz edə bilərlər. Çünki İbn Xiraş şamlı deyildi.

Ola bilər ki, bəziləri onun rəyini qəbul edərək Həfsin hədis nəqlində zəif, Quran qiraətində isə etibarlı olmasını desinlər. Rical alimlərinin rəyinə əsasən Həfs hədis uydurur, Rəsulullahın (s) adından yalan danışırmış. Yalan hissələr bölünməz. Belə ki, onların sözlərinə əsasən bu şəxs Quran qiraətində doğru danışan olması ilə yanaşı hədis uyduran olmuşdur. Kim Rəsulullaha (s) iftira atarsa, onun Allaha və Allahın müqəddəs kitabına da iftira atması mümkündür.

Bununla da sübuta yetir ki, bu gün sələfilərin də oxuduğu Quranın qiraətinin məşhur sənədi vəsf etdikləri kimi yalançı və qondarmaçı şəxs olan Həfsə əsaslanır. Buna əsasən də onlar şiələrdən Quranın səhih sənədini tələb etmələrindən əl çəkməlidirlər. Onlar eybləri üzə çıxan və qoxusu hər tərəfə yayılan sənədlərini yamamaqla məşğul olmalıdırlar.

---

[15] Adı çəkilən kitab, s. 199.

**İkinci mövzu: məşhur qiraətin raviləri barədə araşdırma**

Hədis imamlarının Həfsi yalançılıqda ittiham etdiklərini bəyan etdik. Bu isə islam aləmində olan Quran qiraətinin sənədinə qarşı aşkarcasına nöqsan hesab olunur. Biz isə Həfsi onların tutuqları nöqsandan uzaq bilirik. Lakin bu problem rical alimlərinin qarmaqarışıq rəylərindən imtina edə bilməyən sələfi düşüncəsində öz həllini tapmayaraq qalır.

Həfsin qiraətinin sənədindəki raviləri insafla araşdıran şəxs bu sənədin şiə sənədi və ravilərin hamısının kufəlilərdən ibarət olmasına rast gəlir. İbn Səllar Şafei belə deyir: "Həfs Asimin yanında (Quranı) oxumuşdur. Asim Əbdürrəhman Suləminin yanında oxumuşdur. Suləmi Əli bin Əbu Talibin – Allah ondan razı olsun – yanında oxumuşdur. Əli isə Rəsulullahın (s) yanında oxumuşdur".[16]

Bizi bu sənədin ravilərinin Əhli-beyt (ə) ardıcıllarından olan şiələr olmasını deməyə vadar edən, Zəhəbinin – necə ki, bu barədə qeyd edəcəyik – "Kufə şiələrlə qaynayır və daşırdı" sözləri və əksi isbat olunmadığı təqdirdə kufəlilərin şiə olmasıdır. Digərləri isə Həfsin, Asimin, Suləminin öz məzhəblərinə mənsub olmalarını isbat etməlidirlər. Hədis imamları tərəfindən onların şiə və rafizi olmalarını qeyd etməmələri onların şiə olmaları və Əhli-beytdən (ə) əxz etmələrinə maneə yaratmır. Ola bilər ki, onların bu xüsusiyyətləri aşkar olmamışdır. Necə ki, şiə ravilərin çoxunun vəziyyəti hədis imamlarına gizli qalmışdır. Halbuki onlar şiə məzhəbinin etimad etdiyi ravilərdən olmuşdur.

İbn Udəy belə deyir: "Kufəlilərin əksəriyyəti şiə məzhəbinə mənsubdurlar".[17]

Fəsəvinin "əl-Mərifət vət-tarix" kitabında deyilir: "Çox az kufəli var ki, onda şiə meyilliyi olmasın".[18]

---

[16] Təəbəqatul-qurraus-səbə və zikru mənaqibihim və qiraatihim, c. 1, s. 165

[17] əl-Kamil, c. 2, s. 219

[18] əl-Mərifət vət-tarix, c. 2, s. 806

Zəhəbi “Siyəru əlamin-nubəla” kitabında belə deyir: “Şiə olmayan kufəliyə rast gəlmək çox nadir haldır”.[19]

Həmçinin demişdir: “Lakin Kufə şiəliklə qaynayıb daşır. Sünninin orada olması isə nadirdir”.[20]

Zəhəbinin son sözündəki şiəlik rafizilik anlamındadır. “... sünninin orada olması isə nadirdir” deməsi şiələrin müqabilində sünnilərin azlığına dəlalət edir.

Zəhəbi Ubeydullah bin Musa Əbəsinin (120 h.q – 213 h.q) tərcümeyi-halı barədə danışarkən onun rafizi olmasını qeyd edərək deyir: “O, ibadət və gecə əhlindən (gecələri ibadətlə keçirənlər) idi. Həmzə ilə yoldaşlıq etmiş, onun əxlaqını mənimsəmişdir. Lakin o, məşum (uğursuz, nəsh) şiəlikdə idi. O, bu məzhəbi bidət yaradan ölkəsinin, yəni Kufənin əhalisindən götürmüşdür”.[21]

İbn Əsakir İbn Əbu Xeysəmənin belə dediyini nəql edir: “Yəhya bin Muinin belə dediyini eşitdim: “Yəhya bin Adəm belə dedi: “Kufədə elə bir adama rast gəlmədim ki, Əlini üstün tutmasın və (hər sözünü) onunla başlamasın. Sufyan əs-Sovridən başqa heç kimi istisna etmədi.” Həmçinin belə deyir: “İbn Əbu Xeysəmə Əhməd bin Mənsur bin Yəsardan, o da Əbdürrəzzaqın belə dediyini nəql edir: “Muəmmər belə dedi: “Bir dəfə onunla üzbəüz oturmuşdum. Yanımızda heç kim yox idi. O, təbəssüm etdi. Ona: “Nə olub sənə?” dedim. O: “Kufə əhlinə çox təəccüb edirəm. Sanki Kufə yalnız Əlinin sevgisi üzərində təsis olunub. Onlardan elə bir mötədil

---

[19] Siyəru əlamun-nubəla, c. 5, s. 347

[20] Təzkirətul-huffaz, c. 3, s. 840

[21] Zəhəbi, Siyəru əlamun-nubəla, c. 9, s. 557

adam qalmadı ki, onunla söhbət edəndə Əlini Əbu Bəkr və Ömərdən üstün tutmasın”.[22]

**Birinci: Həfs (90 h.q – 180 h.q)**

Həfsin şiəliyini və imamiyyə məzhəbinə mənsub olmasını təsdiqləyən dəlillərdən biri də onun şiə olan Kufə cəmiyyətində və şiə şəxsiyyətlərinin birinin evində böyüməsidir. Hətta onu Asim tərbiyə etmişdir. Həfs hicrətin 90-cı ilində doğulmuş və 90 il ömür sürmüşdür.

Həfs anasının əri Asimin yanında yaşamış və ondan Quranı öyrənmişdir. Ğərnati Kəlbi belə deyir: “Həfs bin Süleyman; Əbu Ömər Əsədi Kufi Bəzzaz Asimin səhabələri içərisində qiraət xüsusunda ən bilikli idi. Onun zövcəsinin övladı idi. (Yəni Həfs Asimin ailə qurduğu qadının övladı idi)”.[23]

Asim qeyd edəcəyimiz kimi şiə idi. Şübhəsiz ki, Həfs Quran qiraətini və dinin əqaid, ibadətlər kimi məsələlərini ondan öyrənmişdir. Asimin Suləmidən, onun da Əli bin Əbu Talibdən öyrəndiyi həmin qiraəti Həfsə öyrətməsilə yanaşı dinin başqa məsələlərini ona öyrətməməsi mümkün deyil. Xüsusilə də onlar hər ikisi bir evdə yaşamışdır. Asim onun anasının əri olduğuna görə onu böyüdüb tərbiyələndirmişdir.

Şeyx Tusi Həfs bin Süleymanı İmam Cəfər Sadiqin (ə) səhabələrindən olduğunu və ondan hədis nəql etdiyini qeyd edərək belə demişdir: “Həfs bin Süleyman Əbu Ömər Əsədi Ğaziri Məqri Bəzzaz Kufi ona (İmam Sadiqə) (ə) istinad edilmişdir”.[24]

---

[22] Tarixu mədinəti Diməşq, c. 42, s. 530; əl-Bidayətu vən-nihayə, c. 8, s. 12, 13; İbn Səd, Təbəqatul-kubra, c. 6, s. 402. Adı çəkilən Yəhya bin Adəm etibarlı şəxslərdəndir. O, Həfsin müasirlərindən idi. Yəhya hicrətin 203-cü ili vəfat etmişdir.

[23] ət-Təhsil li ulumit-tənzil, c. 1, s. 55, 56

[24] Ricalu Tusi, s. 189

Mirzə Nuri Təbərsi belə deyir: “Həfs bin Süleyman Əbu Ömər Əsədi Ğaziri Məqri Bəzzaz Kufi ona istinad etmişdir. O, İmam Sadiqin (ə) səhabələrindəndir”.[25]

Şeyx Tusi Həfs bin Süleymanı İmam Kazimin (ə) səhabələrindən olduğunu və onun Məqrinin özü olduğunu hesab etmişdir.[26]

Əbdülhüseyn Şəbüstəri onu imamiyyə məzhəbinə mənsub olanlardan hesab edərək belə demişdir: “(Həfs) Əbu Əmr və ya Əbu Ömər Həfs bin Əbu Davud Süleyman bin Muğirə Əsədi Ğaziri və ya Faxiri, Bəzzaz Kufi. Hufeys kimi də tanınır. İmamiyə hədis nəql edənlərindəndir. Halı məchuldur. Deyilinə görə (nəql etdiyi hədislər) həsən hədislərdəndir”.[27]

Seyid Cəfər Murtaza Amuli onun şiə olduğu rəyindədir.[28]

Şeyx Muhəmməd Hadi Mərifət onun barəsində belə demişdir: “Hazırkı qiraət (Quranın mətni) Həfsin qiraətidir. Bu xalis şiə qiraətidir. Həfs bu mətni nəql etmişdir. O, İmam Sadiqin (ə) səhabələrindəndir. Bu qiraəti şeyxi Asimdən nəql etmişdir. O isə Kufənin görkəmli şiələrindəndir. O da şeyxi Suləmidən nəql etmişdir. O isə Əli (ə)-ın ən yaxın səhabələrindən idi. (Suləmi) də Əmirəlmömінin (ə)-dan nəql etmişdir. O da Rəsulullahdan (s) nəql etmişdir”.[29]

### İkinci: Asim bin Əbunnucud (vəfatı: 128 h.q)

Zəhəbi belə deyir: “Asim bin Əbunnucud Bəhdələ; İmam Əbu Bəkr Əsədi Kufəli qari. Bəni Əsəd tayfasının əli ilə İslamı qəbul etmişlər içərisində görkəmli alimlərindən biridir. Əbdürrəhman bin Suləminin və Zur bin Hubeyşin yanında Quranı oxumuş, onlardan, həmçinin, Əbu Vail,

[25] Xatimətul-Mustədrək, c. 7, s. 295

[26] Ricalu Tusi, s. 335

[27] əl-Faiq fi ruvati və əshabil-imam əs-Sadiq (ə), c. 1, s. 429.

[28] Muxtəsrun mufid, c. 12, s. 175.

[29] ət-Təmhid fi ulumil-Quran, c. 2, s. 228.

Musəb bin Səddən və çoxlu sayda şəxslərdən hədis nəql etmişdir. Şeyxi Əbu Əbdürrəhmandan sonra Kufədə qarilərə başçılıq etmişdir”.[30]

Təbaqatul-qurra kitabında belə yazılıb: “Əbu Əbdürrəhman Suləmidən sonra Kufədə qarilərin başçısı olan imam. O, fəsahəti, gözəlliyi, avaz və təcvidi özündə cəm etmişdi. İnsanlar içərisində Quranı ən gözəl səslə oxuyan idi”.[31]

Kəlbi Ğəranati belə deyir: “Asim bin Əbunnucud Kufi: Əbu Bəkr bin Bəhdələ Hənnat Movla Bəni Əsəd. Kufədə qiraət şeyxi. O, fəsahəti, gözəlliyi, avaz və təcvidi özündə cəm etmişdi. İnsanlar içərisində Quranı ən gözəl səslə oxuyan idi. Əbu Bəkr bin Əyyaş deyir: “Dəfələrlə Əbu İshaq Səbiinin belə dediyini eşitmişəm: “Asim qədər Quranı dəqiq oxuyan birini görmədim”. O, Quranı Zur bin Hubeyş, Əbu Əbdürrəhman Suləmi və Əbu Əmr Şeybanidən öyrənmişdir. Quranın qiraətini ondan Aban bin Təğlib, Həfs bin Süleyman, Həmmad bin Zeyd, Əbu Bəkr bin Əyyaş və başqaları nəql etmişlər. Əbu Əmr bin Əla, Xəlil bin Əhməd və Həmzə Zeyyat ondan Qurani-kərimin bəzi hissələrinin oxunuşunu nəql etmişdir”.[32]

Zəhəbi deyir: “Əbu Bəkr bin Əyyaş belə nəql edir: “Asim mənə dedi: “Əbu Əbdürrəhmandan başqa heç kim mənə bir hərf öyrətməmişdir. Əbu Əbdürrəhman (Quranı) Əlinin – Allah ondan razı olsun – yanında öyrənmişdir. Mən onun yanından çıxanda öyrəndiklərimi Zura göstərirdim”. Zur isə (Quranı) Abdullahın – Allah ondan razı olsun – yanında oxumuşdur.... Asim dedi ki, heç bir şeydə Əbu Əbdürrəhmanın qiraətinə müxalif olmamışdır. Həmçinin Əbu Əbdürrəhman heç bir şeydə Əlinin qiraətinə müxalif çıxmamışdır... Həfs bin Süleymanın belə dediyi nəql olunmuşdur: “Asim mənə belə dedi: “Sənə oxuduğum bu qiraət Əbu

---

[30] Tarixul-islam, c. 8,s. 138, 139.

[31] Təbaqatul-qurra, c. 1, s. 347.

[32] ət-Təhsil li ulumit-tənzil, c. 1, s. 55.

Əbdürrəhman Suləminin yanında oxuduğum qiraətdir. O, bu qiraəti Əlidən – Allah ondan razı olsun – nəql etmişdir”.[33]

Muhəmməd bin Təlhə Şafei belə nəql edir: “Kufənin Quran qiraəti ilə məşhur olan imamı Asim bin Əbunnucud. Onun qiraəti dünyada məşhurdur. Əbu Bəkr və Həfs qiraəti ondan nəql etmişlər. Həmin qiraət məşhurdur. O (Asim), bu qiraətdə Əbu Əbdürrəhman Suləminin şagirdi olmuşdur. Əbu Əbdürrəhman isə Əlinin (ə) şagirdi olmuş və ondan öyrənərək nəql etmişdir. Əli (ə) da öz növbəsində Rəsulullahdan (s) öyrənmiş və ondan nəql etmişdir. Asim qiraət məsələsində Əlinin (ə) şagirdinin şagirdi olmuşdur”.[34]

## Asimin şiə olmasının dəlilləri

Zəhəbinin Kufə barədə dediyi “Kufə şiəliklə qaynayıb daşırdı, sünni orada çox nadirdir” sözlərini qeyd etmişdik. Buna əsasən də əksi dəlillə isbat olunmayacağı təqdirdə Asim prinsipcə şiədir. Dəlil isə yoxdur.

Asim şiə olan iki nəfərin yanında Quranı öyrənmiş və onlarla yaxın münasibətdə olmuşdur. Onlardan biri İmam Əlinin (ə) ən yaxın səhabələrindən olan Əbu Əbdürrəhman Suləmi idi. Asim ondan qiraəti öyrənmişdir. Digəri isə Zur bin Hubeyş olmuşdur. O isə Ələvi (Əli nəslindən) idi.[35]

Şeyx Nəmazi Şəhrudi belə deyir: “Zur bin Hubeyş Əsədi Əmirəlmöminin Əli (ə)-ın səhabələrindən olmuşdur. O, çox hörmətli idi”. Həmçinin Şeyx (Tusi) və Əllamə (Hilli) onun barəsində demişlər: “O, bəyənilən şəxsdir. Allaha həmd olsun ki, onu Əmirəlmömininin (ə) etibarlı hesab etdiyi on

[33] Mərifətul-qurrail-kibar alət-təbaqati vəl-əsar, c. 1, s. 52, 53.

[34] Mətalibus-sual fi mənaqibi Alir-rəsul, s. 161.

[35] Siyəru əlamun-nubəla, c. 4, s. 168; İbn Əsakir, Tarixu mədinəti Diməşq, c. 19, s. 29.

nəfər olduğuna rast gəldim. Necə ki, Kuleynin nəql etdiyi onunla (imamın) yazışmalarında bu öz əksini tapır..."[36]

Qeyd edək ki, Asimin nəql etdiklərinin əksəriyyəti Zur bin Hubeyş Ələvidəndir. Əhməd bin Hənbəlin Müsnədində onun nəql etdiyi 26 rəvayət qeyd edilmişdir. Hamısı Zur bin Hubeyşdən nəql olunmuşdur.

Zəhəbi belə deyir: "Əbu Əmr Şeybani Məscidul-əzəmdə camaata Quran qiraətini öyrədirdi. Mən, yəni Asim onun yanında oxudum. Sonra bəzi ayələr barədə ondan soruşdum. Məni həvayi-nəfsimə uymaqda ittiham etdi. Hər dəfə məscidə daxil olanda mənə işarə edər və yanındakılarını məndən ehtiyatlı olmağı tapşırardı".[37]

Bu mətndə görürük ki, Asim Şeybanidən bir ayə barəsində soruşur. Bu sual nəticəsində Əbu Əmr Şeybani öz səhabələrinə Asimdən ehtiyatlı olmağı tapşırır. Həmin ayə şiələrin və ya başqa məzhəblərin dəlil gətirdikləri ayələrdən idi? Asimin Kufədə məşhur olmasına baxmayaraq bunun ona heç bir faydası olmamışdır. Əgər Asim sünni məzhəbinə təəssübkeş olmaqla məşhur olsaydı və ya Bəni Ümməyyəyə meyilli olmaqla tanınsaydı ondan ehtiyatlı olmağı deməzdilər.

Aciri belə deyir: "Saleh bin Musa belə nqəl edir: "Atamın Asim bin Əbunnucuddan belə soruşduğunu eşitdim: "Ey Əbu Bəkr, Əlini – Allah ondan razı olsun – "Peyğəmbərdən sonra ümmətin ən xeyirlisi Əbu Bəkr və Ömərdir" hədisinə nisbətdə hansı məqamda tutursunuz? Üçüncünün məqamını başa düşdüm". Asim dedi: "Biz onu üstün tutmuruq. Lakin o, – Osmanı nəzərdə turudu – özünü təmizə çıxartmaqdan da üstündür".

Zəhəbi bu mətni bir neçə kitabında qeyd etmişdir.[38]

Fərz edək ki, bu rəvayətin sənədi səhihdir. Musa Asimə "Əlini hansı məqamda tutursunuz? – deyərək sual verir. Məgər Asim hədis alimlərinin

[36] Şeyx Əli Nəmazi Şəhrudi, Mustədrəkatu ilmi ricalil-hədis, c. 3, s. 422.

[37] Siyəru əlamun-nubəla, c. 5, s. 259.

[38] Siyəru əlamun-nubəla, c. 5, s. 260; Mərifətul-qurrail-kibar, c. 1, s. 93.

etiqadına müxalif idi ki, Musa ondan belə bir sual soruşurdu? Asim də ona cəm formada cavab verərək belə deyir: "Biz onu üstün tutmuruq..." O, özü barədə danışırdı, yoxsa onun kimi eyni əqidə olaraq Əlini hamıdan üstün tutan kufəlilər barədə danışırdı? Məgər Asim Həkəm bin Uteybə, Əməş və bir çox ravilərin etdiyi kimi təqiyyə edirdi?

"Mucəmu ruvatiş-şiətis-siqat və ədədu əhadisihim fi məsadiri əhlis-sunnə" kitabımda onların tərcümeyi-halı barədə danışarkən bu məsələni müfəssəl qeyd etmişik.[39]

Həmçinin Asim "O, özünü təmizə çıxartmaqdan daha üstün idi" dedikdə Əlini nəzərdə tuturdu? Yəni Əli özünü onlardan üstün hesab edirdi? Əliyə nisbət verilən bu sözü müzakirə etmək məqsədində deyilik. Səhih hədislərdə Əlinin Əbu Bəkri müstəbid, öz rəyini bəyənən hesab etməsi bu məsələ üçün yetərlidir.[40]

Əli (ə) Ömərin yanında olmasını istəmirdi.[41]

Əli (ə) onların hər ikisini günahkar, yalançı, vəfasız və xain adlandırmışdır.[42]

Şübhəsiz ki, Asimə verilən bu sual bizdə müəyyən suallar yaradır. Həmin şəxsin ona yönəltdiyi bu sual Asimin Əli (ə)-a məhəbbət bəsləməsini vurğuluyan dəlillərdəndir.

Asimin şiə olmasını deyənlərdən biri də İbn Şəhr Aşubun şeyxi Əbdülcəlil Razi (hicri 556-cı ildə vəfat etmişdir) olmuşdur. Onu şiələrin iqtida etdiyi şəxs olduğunu qeyd etmişdir.

---

[39] Həkəmin tərcümeyi-halı barədə daha ətraflı məlumat almaq üçün bax; Təhzibut-təhzib, c. 2, s. 372, 373; Mərifətus-siqat, c. 1, s. 321,313. Növbəti səhifələrdə Əməşin tərcümeyi-halını qeyd edəcəyik.

[40] Bax; Səhih Buxari, Kitabul-məğazi, bab ğəzvəti Xeybər, c. 5, s. 83.

[41] Səhih Buxari, Kitabul-məğazi, babu ğəzvəti Xeybər, c. 5, s. 83.

[42] Səhih Müslim, Kitabul-cihad və siyər, babu hukmil-fey, c. 5, s. 152.

Hədis hafizi İbn Həcər ravilərdən birinin tərcümeyi-halı barədə danışarkən belə deyir: "Əbu Cəfər Tusi onu şiə ravilərindən hesab etmişdir. O, bunu daha yaxşı bilir... Onun bir neçə kitabı var. Tusi həmin kitabların bəzilərinin adlarını qeyd etmişdir".[43]

Şübhəsiz ki, məsələ İbn Həcərin dediyi kimidir. Hər bir məzhəb öz şəxsiyyətlərini daha yaxşı tanıyır. Bəlkə də Şeyx Əbdülcəlil Razinin Asim barədə rəyi bəzi rical kitablarına əsaslanır. Xüsusilə də o, həmin kitabların qələmə alındığı dövrə yaxın dövrdə yaşamışdır. Şiələr rical elmi sahəsində çoxlu sayda kitablar yazmışdır. Həsən bin Məhbubun (hicri 224-cü ildə vəfat etmişdir) zamanda bu mövzuda yazılan kitabların sayı yüz kitabdan daha çox idi. Bu kitabların hamısı Şeyx Tusiyə və Nəcaşiyə gəlib çatmamışdı. Şiələrin təqibə, sürgünə məruz qalmaları və kitablarının yandırılması nəticəsində həmin kitabların çoxu məhv olmuşdur. Qəti surətdə deyirik ki, Şeyx Əbdülcəlil həmin kitabların qələmə alındığı dövrə yaxın olduğu üçün təkcə onun Asim barədə dediyi sözlər istədiyimizi isbat etmək üçün yetərlidir.

Asimin şiə olmasını deyənlərdən biri də Qazı Nurullah Tustəri (vəfat tarixi hicri 1019-cu il) olmuşdur.

Seyid Muhsin Əmin belə deyir: "Heç şübhəsiz ki, Asim şiədir. Necə ki, Qazi Nurullah bunu təsdiqləmiş, həmçinin İbn Şəhr Aşubun şeyxi olmuş və hicri 556-cı ildə vəfat etmiş Şeyx Əbdülcəlil Razi Nəqzul-fəzaih kitabında onun şiələrin tabe oldğu şəxs adlandırmışdır".[44]

Şeyx Ağa Bozorg Tehrani onu qarilərin imamı Asim bin Əbunnucud Kufi əl-Şii (şiə) adlandırmışdır. Onun şiə olduğunu vurğulamışdır.[45]

Seyid Həsən Sədr belə deyir: "Onlardan biri də Asim bin Bəhdələdir. O, yeddi qaridən biridir. O, Əmirəlmöminin Əlinin (ə) yanında Quran oxumuş

---

[43] Lisanul-mizan, c. 1, s. 66.

[44] Əyanuş-şiə, c. 7, s. 407.

[45] əz-Zəriə, c. 1, s. 516.

Əbu Əbdürrəhman Suləminin yanında qiraət oxumuşdur. Məhz buna əsasən də Asimin qiraəti alimlərimizin ən çox sevdiyi qiraət olmuşdur. Hicri 556-cıildə vəfat etmiş Şeyx Əbdülcəlil Razi "Nəqzul-Fəzaih" kitabında onu şiələrin tabe olduğu şəxs adlandırmışdır. Asim hicri 128-ci ildə Kufədə vəfat etmişdir. Deyilənə görə isə Şama gedərkən vəfat etmiş və Səmava şəhərində dəfn olunmuşdur. Əməş kimi onun da gözləri görmürdü. Qazı Nurullah Mərəşi Məcalisul-muminin kitabında onun şiə olduğunu demişdir. O, şiə alimlərdəndir".[46]

Həfsin tərcümeyi-halında qeyd etdiyimiz kimi Şeyx Muhəmməd Hadi Mərifət belə deyir: "Asim Kufə şiələrinin görkəmli alimlərindəndir".[47]

Hər bir tədqiqatçı Asimin Zur bin Hubeyşdən nəql etdiyi rəvayətlərdə şiəlik qoxusunu hiss edir. Aşağıda onun əqidəsi və düşüncəsi barədə doğru fikir əldə etmək üçün bəzi nümunələr qeyd edirik.

"... Asim bin Əbunnucud Saleh bin Müaviyədən belə nəql edir: "Rəsulullah (s) belə buyurub: "Kim imamı olmadan vəfat edərsə cahiliyyətdəki kimi vəfat etmişdir".[48]

"... Asim bin Əbunnucud Zur bin Hubeyşdən, o da Abdullahdan belə nəql edir: "Rəsulullah (s) belə buyurub: "Dünya bitməmiş adı mənim adımla eyni olan əhli-beytimdən biri ərəblərə hakim olacaq".[49]

"... Asim bin Əbunnucud Zur bin Hubeyşdən, o da Huzeyfənin belə dediyini nəql edir: "Rəsulullahın (s) çöhrəsində təbbəssüm və sevinc gördük. Biz: "Ya Rəsulullah, bu gün sənin çöhrəndə sevinc və fərəh gördük" dedik. (Peyğəmbər) buyurdu: "Nə üçün sevinməyim?! Cəbrail

---

[46] əş-Şiə və fununul-islam, s. 36.

[47] ət-Təmhid fi ulumil-Quran, c. 2, s. 228.

[48] Səhih İbn Hibban, c. 10, s. 434.

[49] Musnədi Əhməd, c. 1, s. 448.

yanıma gəlib mənə müjdə verdi ki, Həsən və Hüseyn cənnət cavanlarının ağasıdır. Ataları isə onlardan daha üstündür”.[50]

“... Asim bin Əbunnucud Zur bin Hubeyşdən, o da Abdullah bin Məsudun belə dediyini nəql edir: “Peyğəmbər (s) belə buyurub: “Fatimə iffətini qoruduğu üçün Allah onun züriyyətinə cəhənnəm odunu haram etmişdir”.[51]

“...Asim bin Əbunnucud Zur bin Hubeyşin belə dediyini nəql edir: “Taxtaya (nizə ucuna) sancılan ilk baş Hüseynin – Allah ondan razı olsun və ruhuna lütf etsin – başı olmuşdur”.[52]

“... Asim bin Əbunnucud Zur bin Hubeyşdən, o da Abdullah bin Məsudun belə dediyini nəql edir: “Rəsulullah (s) belə buyurub: “Əgər Müaviyəni mənim minbərimdə xütbə söyləyərkən görsəniz onun boynunu vurun”. Həsən belə deyir: “Bunu etmədilər və səadətə qovuşmadılar”.[53]

“Asim bin Bəhdələ Əbu Vaildən, o da İbn Məsudun belə dediyini nəql edir: “Rəsulullah (s) belə buyurdu: “Mən sizdən əvvəl hovuz başında sizi gözləyəcəm. Bəzi insanlarla mübahisə edəcəm və onlara qalib gələcəm. Sonra deyəcəm: “Rəbbim, səhabələrim! Səhabələrim!” Mənə deyəcəklər: “Sən bilmirsən onlar səndən sonra nə etmişlər!”.[54]

Hakim əl-Mustədrək kitabında belə nəql edir: “... Asim bin Bəhdələ nəql edir ki, Həccacın yanında toplaşmışdılar. Hüseyn bin Əlini xatırladılar. Həccac onun Peyğəmbərin (s) züriyyətindən olmadığını dedi. Yəhya bin Yəmur onun yanında idi. (Yəhya) ona dedi: “Ey əmir, yalan deyirsən”. (Həccac) dedi: “Dediyini sübut etmək üçün Allahın kitabından dəlil gətirməlisən. Yoxsa səni öldürəcəm”. (Yəhya) dedi: **“...onun**

---

[50] Tarixu Bağdad, c. 10, s. 230.

[51] Tarixu mədinəti Diməşq, c. 14, s. 173, 174.

[52] Tarixu Təbəri, c. 4, s. 296, 297.

[53] İbn Məzahim Minqəri, “Vəqətus-Siffin”, s. 216.

[54] Musnədi Əhməd, c. 1, s. 453.

**övladlarından Davudu, Süleymanı, Əyyubu, Yusufu, Musanı, Harunu (hidayət etdik). Biz yaxşıları və yaxşılıq edənləri bu cür mükafatlandırırıq. Həmçinin Zəkəriyya, Yəhya, İsa və İlyası (da hidayət etdik). Onların hamısı salehlərdən idi"** (Ənam surəsi, ayə 84, 85). Allah-təala İsanın ana tərəfdən Adəmin züriyyətindən olduğunu xəbər verir. Hüseyn bin Əli də ana tərəfdən Muhəmmədin (s) züriyyətindəndir". (Həccac) dedi: "Doğru deyirsən. Lakin mənim məclisimdə məni təkzib etməyə necə cürət etdin?" (Yəhya) dedi: "Allah peyğəmbərlərdən həqiqətləri insanlara açıqlamaları barədə əhd-peyman almışdır. Allah-təala buyurub: **"... Onlar onu (əhd-peymanı) arxalarına atdılar (ona göz yumdular) və onun müqabilində az bir qazanc əldə etdilər..."** (Ali İmran surəsi, ayə 187). Bundan sonra (Həccac) onu Xorasana sürgün etdi".[55]

İbn Həcərin Asimin tərcümeyi-halı barədə yazdıqlarını oxuduqda onun İclidən nəql etdiyi "O, Osman tərəfdarlarından idi"[56] sözləri nəzər diqqətimi çəkdi. O, bu məsələdə səhvə yol vermişdir. İcli əslində belə demişdir: "Asim bin Əbunnucud Bəhdələnin oğludur. O, Kufənin ən hörmətli qarilərindəndir. Bəsrəyə gəlib oranın əhalisinə (Quran) öyrədirdi. Əbu Munzir onun yanında (Quran) oxumuşdur. O, (Əbu Munzir) Osmanın tərəfdarlarından idi..."[57]

İclinin "Osmanını tərəfdarlarından idi" sözləri sonuncu qeyd edilən şəxsə, yəni bəsrəli Əbu Munzirə aiddir. Bəsrə əhalisinin Osman meyilli olmaları məşhur idi. Asimin Osmanın tərəfdarlarından olması barədə başqa heç kim heç bir söz deməmişdir. Bəyan etdiyimiz kimi dəlillər bunun əksini sübut edir.

---

[55] əl-Mustədrək, c. 3, s. 164, 165.

[56] Təhzibut-təhzib, c. 5, s. 35, 36.

[57] Mərifətus-siqat, c. 2, s. 5, 6.

**Üçüncü: Abdullah bin Həbib Suləmi (vəfatı: 74 h.q)**

İbn Həcər deyir: “Abdullah bin Həbib bin Rubeyə Əbu Əbdürrəhman Suləmi Kufi Quran qarisi. Atası səhabə olmuşdur. Əbu İshaq Səbii deyir: “Qırx il məsciddə Quran öyrətmişdir”. İcli deyir: “Kufəlidir, tabeindir və etibarlıdır”. Əbu Davud deyir: “Onun gözləri görmürdü”. Nəsai deyir: “Etibarlıdır”. Həccac bin Muhəmməd Şöbədən belə nəql edir: “O, (Quranı) nə İbn Məsuddan, nə də Osmandan öyrənmişdir. Lakin Əlidən eşidib öyrənmişdir...” İbn Əbdulbirr deyir: “O, hamısının (rical alimlərinin) nəzərində etibarlıdır”.[58]

Zəhəbi deyir: “Əbu Əbdürrəhman Suləmi Kufənin Quran qarisi, imam, alim, Abdullah bin Həbib Rubeyə Kufi. Səhabə övladlarındandır. Peyğəmbər (s) həyatda ikən dünyaya gəlmişdir. Quran oxumuş, təcvid öyrənmiş və bu işdə mahir olmuşdur. Bizə çatan məlumata görə (əzbər bildiyi Quranı) Osmana, Əliyə və İbn Məsuda təqdim etmişdir”.[59]

İbn Nədim deyir: “Suləmi Əli (ə)-ın yanında öyrənmişdir. Əli isə Peyğəmbərin (s) yanında öyrənmişdir”.[60]

İbn Səd deyir: “Asim Əbu Əbdürrəhman barəsində belə nəql edir: “O, qiraəti Əlidən öyrənmişdir”.[61]

Şubə belə deyir: “Əbu Əbdürrəhman Suləmi Osmandan eşidib öyrənməmişdir. Lakin o, Əlidən eşidib öyrənmişdir”.[62]

**Əbu Əbdürrəhman Suləminin şiə olmasının dəlilləri**

Siffin döyüşündə Müaviyəyə və onun tərəfdarlarına qarşı vuruşması: Təbəri yazır: “Əbu Əbdürrəhman Suləmi belə nəql edir: “Siffin döyüşündə Əmmar bin Yasirin Əmr bin Asa belə dediyini eşitdim: “Bu bayraq sahibinə

---

[58] Təhzibut-təhzib, c. 5, s. 161.

[59] Siyəru əlamun-nubəla, c. 4, s. 267, 268.

[60] İbn Nədim, əl-Fihrist, s. 35.

[61] ət-Təbəqatul-kubra, c. 6, s. 172; Siyəru əlamun-nubəla, c. 4, s. 269.

[62] ət-Təbəqatul-kubra, c. 6, s. 172.

qarşı (Müaviyə nəzərdə tutulur) Rəsulullahla (s) birlikdə üç dəfə vuruşmuşam. Bu isə dördüncüdür. Bu (bayraq sahibi) yaxşı və təqvalı deyil".[63]

Hakim belə nəql edir: Əbu Əbdürrəhman Suləmi belə nəql edir: "Əli ilə – Allah ondan razı olsun – birlikdə Siffin döyüşündə iştirak etdik. Atını bizdən iki nəfərə tapşırdı. Düşmənə qəflətən hücum edib qılıncından qan axmayınca geri dönməzdi. Sonra belə dedi: "Bağışlayın! Allaha and olsun ki, qılıncım özümə qayıtmasaydı (qılıncın əyilməsinə və ya yorulmasına işarə edir) geri dönməzdim". Sonra (Əbu Əbdurrəhman Suləmi) deyir: "Əmmarı və ya Haşim bin Utbəni gördüm. O, Siffində insanların arasında gəzişirdi. Əmmar belə dedi: "... Ey Haşim, cənnət qılıncların altındadır. Bu gün sevənlər Muhəmmədlə qarşılaşacaqlar..." Sonra Siffin çölünün vadilərində gəzişməyə başladı". Daha sonra Əbu Əbdürrəhman belə dedi: "Muhəmmədin (s) səhabələrini Əmmarın dalınca hərəkət etdiklərini gördüm. Sanki onlar üçün bayraq idi".[64]

İbn Əbdulbirr səhabələr arasında baş vermiş fitnə barədə danışarkən belə deyir: "Əbu Əbdürrəhman Suləmiyə gəlincə, doğru budur ki, o, Əli bin Əbu Talib ilə – Allah onun üzünü hörmətli etsin –birlikdə idi".[65]

Qeyd etdiklərimiz Əbu Əbdürrəhmanı Əlinin şiələrindən hesab etmək üçün yetərli səbəb deyil. Lakin deyilənlərə başqa dəlillər də əlavə etsək nəticə aşkarcasına ortaya çıxar.

–Əlini (ə) tərifləməsi: Həkəm bin Uteybə Əbu Əbdürrəhman Suləmidən belə nəql edir: "Əlidən daha yaxşı qiraəti olan birini görmədim..."[66]

---

[63] Tarixi Təbəri, c. 4, s. 28.

[64] əl-Mustədrək, c. 3, s. 387.

[65] əl-İstiab, c. 1, s. 77.

[66] İbn Əbu Şeybə, əl-Musənnəf, c. 1, s. 39; əl-İstiab, c. 3, s. 1109.

– Əli (ə)-a yaxın olması və ondan çoxlu rəvayət nəql etməsi. Əbu Əbdürrəhman Suləmi belə nəql edir: “Əli – Allah ondan razı olsun – əlimdən tutdu və birlikdə getdik. Hətta gəlib Fəratın sahilində oturduq...”[67]

Hədis kitablarında Əlidən (ə) çoxlu hədis nəql etmişdi. Musnədi Əhməd kitabında onun nəql etdiyi 17 rəvayətə rast gəldim.

– Əbdürrəhman Suləmi Əli (ə) şəhid olanadək onunla birlikdə olmuşdur. Bu isə bəzilərinin onun Əliyə (ə) nifrət etməsini və ya onun Osman tərəfdarı olması demələri ilə ziddiyət yaradır. Onun Osmanın tərəfdarlarından olmasını deyənlərdən biri də İbn Həcər idi.[68]

Əbu Əbdürrəhman Suləmi belə nəql edir: “Hüseyn bin Əli mənə belə dedi: “Əli mənə dedi ki, gecə Rəsulullah (s) yuxuma gəldi. Mən: “Ya Rəsulullah, ümmətindən nə qədər düşmənçiliklərlə qarşılaşdım!” (Peyğəmbər) dedi: “Onlara qarşı dua elə!” Mən də dedim: “İlahi, onları mənim üçün daha xeyirli olanlarla əvəz et. Məni də onlara daha pis olacaq biri ilə əvəz et!” Bundan sonra həmin şəxs çıxıb onu qılıncla yaraladı”.[69]

İbn Quteybə belə deyir: “Əbu Əbdürrəhman Suləmi Kufi; Abdullah bin Həbib. Əlinin səhabələrindən idi. O, qari idi. Əlidən elm nəql edirdi”.[70]

Bəlazuri belə deyir: “O, Bəni Suleymdən idi. Əbu Əbdürrəhman Suləmi qaridir. O, Əli bin Əbu Talibin – Allah onun üzünü hörmətli etsin – səhabələrindən idi. Ondan elm nəql etmişdir. Onun adı Abdullah bin Həbib idi”.[71]

---

[67] Musnəd Əhməd, c. 1, s. 157.

[68] Təhzibut-təhzib, c. 5, s. 161.

[69] Usdul-ğabə, c. 4, s. 36; İbn Əbdulbirr, əl-İstiab, c. 3, s. 1127; Bu məzmuna yaxın Əbu Yəlanın Müsnədində nəql olunmuşdur, c. 1, s. 398; Heysəmi, Məcməuz-zəvaid, c. 9, s. 138. Heysəmi bu hədisin ravilərinin etibarlı olduğunu demişdir.

[70] əl-Məarif, s. 528.

[71] Ənsabul-əşraf, c. 13, s. 338.

– İmamiyyə məzhəbinə gəlincə, onun ən ixlaslı şiə sələflərindən olması məşhurdur. Rical alimi Burqi onu Əmirəlmömininin Əlinin (ə) ən yaxın səhabələrindən hesab etmişdir.[72]

Şeyx Abbas Qummi belə deyir: "Əbu Əbdürrəhman Suləmi: Abdullah bin Həbib. Tabeinlər içərisində alimlərdən və etibarlı olan şəxslərdən biridir. Əmirəlmömininin səhabəsi olmuş və ondan öyrənmişdir. Burqi onun ən yaxın səhabələrindən hesab etmişdir".[73]

Əllamə Hilli kimi bir çox alimlər Əbu Əbdürrəhman Suləmini İmam Əli (ə)-ın şəgirdlərindən hesab etmişlər. Belə ki, Əllamə Hilli deyir: "Əbu Əmr bin Əbu Əla və Asim kimi qiraət imamları ona – İmam Əli (ə)-a – istinad edirlər. Çünki onlar Əbu Əbdürrəhman Suləmiyə istinad edirlər. O isə Əlinin (ə) şagirdi olmuşdur".[74]

Qazi Əli Bəyazi belə deyir: "Qarilər ona istinad edirlər. Əbu Əmr, Asim və başqaları qiraəti Əbu Əbdürrəhman Suləmidən götürmüşlər. O isə Əli (ə)-ın şagirdi olmuşdur".[75]

Muhəmməd Tahir Qummi Şirazi belə deyir: "Əgər qiraət mövzusunda olan kitablara müraciət etsən, Əbu Əmr bin Əla, Asim bin Əbunnucud və başqa qiraət imamlarının hamısının ona (ə) istinad etdiklərini görərsən. Çünki onların hamısı Əbu Əbdürrəhman Suləmiyə istinad edirlər. O isə (İmam Əlinin) şagirdi olmuşdur və Quranın oxunuşunu ondan öyrənmişdir".[76]

Əbu Əbdürrəhman Suləminin adı imamiyyənin çoxlu sayda kitablarında nəql olunan rəvayətlərin sənədlərində qeyd edilmişdir. Məsələn; Kuleyninin İmam Əlnin (ə) cihad barədə söylədiyi xütbənin

---

[72] Ricali Burqi, s. 3.

[73] əl-Kuna vəl-Əlqab, c. 1, s. 115, 116.

[74] Kəşful-murad fi şərhi təcridil-etiqad, Amulinin tədqiqi ilə, s. 531.

[75] Siratul-mustəqim, c. 1, s. 164.

[76] Kitabul-ərbəin, s. 422.

sənədində onun adı qeyd edilmişdir. Əbu Əbdürrəhman Suləmi belə nəql edir: “Əmirəlmöminin – Allahın ona salam və salavatı olsun – belə buyurdu: “Həqiqətən də cihad cənnət qapılarından bir qapıdır. Allah bu qapını xüsusi övliyaları üçün açmışdır...”[77]

Əbu Əbdürrəhman Suləmi belə nəql edir: “Ömər bin Xəttab “Səlamun alə Ali Yasin” oxuyurdu. Əbu Əbdürrəhman Suləmi ona dedi: “Ali Yasin Ali Muhəmməddir (s)”.[78]

Seyid Həsən Sədr belə deyir: “Təbrəsinin Məcməul-bəyan kitabında qeyd edildiyi kimi Əbu Əbdürrəhman Əmirəlmömininin (ə) yanında qiraət öyrənmişdir. Burqi rical elminə dair qələmə aldığı kitabda onu Əlinin xüsusi səhabələrindən hesab etmişdir”.[79]

### Üçüncü mövzu: Şiələrin Asimin qiraətinə verdikləri əhəmiyyət

Həfsin Asimdən nəql etdiyi qiraət əsrlər boyu şiələrin nəzər diqqətində olmuşdur. Onun qiraəti şiələr üçün ən sevimli qiraət idi. Şiələr bu qiraət barədə kitablar yazmışlar. Həmin müəlliflərdən biri də hicri beşinci əsrdə imamiyyənin alimlərindən olan Sabit bin Əsləm olmuşdur. O, “Təlilu qiraəti Asim” adlı bir kitab yazmışdır. Sünni və şiə alimləri onun tərcümeyi-halını yazmışlar. Zəhəbi belə yazmışdır: “Sabit bin Əsləm bin Əbdülvəhhab Əbülhəsən Hələbi. Şiə alimlərindəndir. O, böyük nəhv alimlərindən idi. Asimin qiraəti ilə bağlı kitab yazmışdır. O, Əbussəlahın ən böyük şagirdlərindən idi. Ondan sonra elm sahəsində başçılıq etmişdir. Hələbdə kitabxanaya rəhbərlik etmişdir. Hələbdə olan İsmaili təriqətinin mənsubları “Bu, dəvəti pozur” deyirdilər. Onların batil dəvətləri və cəfəngiyyatları üzərində necə təsis olunmaları barədə kitab yazmışdır. Onu Misirə apardılar və orada çarmıxa çəkilməsi əmr olundu. Allah ona

[77] əl-Kafi, c. 5, s. 4.

[78] Şeyx Səduq, Məanil-əxbar, s. 123; əl-Ğədir, c. 6, s. 308.

[79] Seyid Həsən Sədr, “əş-Şiə və fununil-islam”, s. 37.

rəhmət eləsin və onu çarmıxa çəkənlərə lənət eləsin. Hələbdə olan kitabxana isə yandırıldı. Orada Seyfuddövlə bin Həmdanın və başqalarının vəqf etdiyi on minlərlə kitab vardı”.[80]

Şeyx Tehrani belə deyir: “Təlilu qiraəti Asim” kitabı Əbülhəsən Sabit bin Əsləm bin Vəhhab Hələbinindir. Onu hicri 490–ci ildə Misirdə çarmıxa çəkmişlər. Onun “İbtidaud-dəvət” adlı kitabı da var”.[81]

Şeyx bin Şəhru Aşub (vəfat tarixi 588 h.q.) belə deyir: “Asimə gəlincə, o, Əbu Əbdürrəhman Suləminin yanında qiraəti öyrənmişdir. Əbu Əbdürrəhman belə demişdir: “Mən bütün Quranı Əli bin Əbu Talibdən öyrənmişəm”. Həmçinin ən fəsahətli qiraət Asimin qiraəti olduğu deyilmişdir. Çünki o, əsl mənbədən öyrənmişdir. Başqalarının idğam etdiyini o, izhar edir, başqalarının yumuşaq tələffüz etdiyi həmzəni şiddətlə deyir, başqasının imalə[82] etdiyi əlifləri isə fəthə ilə oxuyurdu. Qurani-kərimdəki kufi ədədi (kufə hesabına əsasən ayələrin sayı) Əli (ə)-a mənsubdur. Ondan başqa heç bir səhabəyə bu ədəd nisbət verilməmişdir”.[83]

Əllamə Hilli (vəfat tarixi 762 h.q.) belə deyir: “Ən çox sevdiyim qiraət Asimin qiraətidir”.[84]

Mirzə Qummi belə deyir: “Nəticə budur ki, çoxlu sayda hədislərin dəlalət etdiyi kimi məşhur yeddi qiraətdən birinə müvafiq (Quran) oxumağın icazəli olmasında heç problem yoxdur... Bəlkə də Əllamə Hillinin

---

[80] Tarixul-İslam, c. 30, s. 499; Səfdi, əl-Vafi bil-vəfiyyat, c. 10, s. 291.

[81] əz-Zəriə, c. 4, s. 266.

[82] İmalə sözünün mənası meyl etmə, yəni bir səsi digər səsə meyl etdirərək iki səs arasında tələffüz etməkdir. Məsələn, uzun “ra” hecasında fəthənin kəsrəyə, əlifin isə yə hərfinə meyl etdirərək tələffüz edilməsinə “imalə” deyilir

[83] Mənaqibu Ali Əbu Talib, c. 1, s. 321.

[84] Muntəhal-mətləb, c. 5, s. 64.

– Allah ona rəhmət eləsin – seçdiyi kimi uzun əsrlər boyu daha çox oxunan Asimin qiraətinə əsaslanmaq daha yaxşı və ehtiyata uyğundur”.[85]

Seyid Möhsin Əmin belə deyir: “Asim qiraəti Əbu Əbdürrəhman Suləmidən öyrənmişdir. O da Əmirəlmömininindən (ə) öyrənmişdir. Buna əsasən də Asimin qiraəti bizim alimlərimiz üçün ən sevimli qiraət idi”.[86]

**Asimin qiraəti barədə bəzi şiə alimlərinin sənədləri**

Şeyx Tehrani belə deyir: “Mövla Mustafa bin Muhəmməd İbrahim Təbrizinin “Risalətun fi sənədi qiraəti Asim” (Asimin qiraətinin sənədi barədə risalə) kitabı. (Müəllif) Xorasanın Məşhəd şəhərində yaşamışdır. Hicri 1007-ci ildə doğulmuşdur. Onun “Tuhfətul-qari” adlı kitabı var. Bundan sonra isə o, bu risaləni yazmışdır. Həmin risaləni beş fəsildən ibarət tərtib etmişdir. Burada Asimin təvəllüdü, bəzi xüsusiyyətləri, qiraət elmində şeyxləri və başqa məsələlər qeyd edilmişdir”.[87]

Şeyx Tehrani Quran qarisi və hafizi olan Seyid Muhəmməd bin Seyid Muhəmməd bin Məhdi bin Əbdülfəttah Həsəni Hüseynini Təbrizinin “Cəvahirul-Quran fi ilmi təcvidil-Quran” kitabını qeyd etdikdən sonra onun qiraətinin sənədini qeyd edir. Onun atalarının hamısının Quran hafizi və qarisi olmasını qeyd edir. Onların hamısı atadan oğula olmaqla babaları Quran hafizi Seyid Əbdülfəttahdan Asimin qiraətini nəql etmişlər. Babaları isə əmisi Quran hafizi Seyid Muhəmməd Rzadan nəql etmişdir. O isə atası Seyid Muhəmməddən nəql etmişdir. O da İmam Rza hərəmində olan Quran hafizi Hacı Muhəmməd Rza Səbzəvaridən, o da babası qari İmadəddin Əli Şərifdən nəql etmişdir. Beləcə ravi silsiləsi Asimədək davam edərək Əmirəlmöminin (ə)-a gedib çatır. Bundan sonra o daha çox faydalı olması və ərəb dilini bilməyənlərin istifadəsi üçün fars dilində

---

[85] Ğanimul-əyyam fi məsailil-halali vəl-haram, c. 2, s. 502.

[86] Əyanuş-şiə, c. 1, s. 131.

[87] əz-Zəriə, c. 12, s. 236.

risalə yazmışdır. Həmçinin "əl-Cəvahir" kitabının fars dilində yazaraq "Həllul-cəvahir" adlandırmışdır. Bu kitabı hicri 1278-ci ildə tamamlamışdır".[88]

Seyid Möhsin Əmin Şeyx Əbdünnəbi Şirazi İmaminin (vəfat tarixi 1354 h.q) tərcümeyi-halı barədə danışarkən belə deyir: "Seyid Şəhabəddin Hüseyni bizə yazdıqlarında belə deyir: "O, Quran hafizi, təcvid ustadı, qari və hədis alimi idi. Atası Şirazın imam cüməsi idi. Qardaşı və əmisi Şirazın imamı olmuşdur. O, fəzilət əhlinin öndə olanlarından idi. Ədib, Qurani-kərimin hafizi, on qiraətin hamısını tamamilə bilən və İran qarilərinin şeyxi idi. Doxsan yaşı olanda onu gördüm. Təcvid, tarix və hədis barədə kitabları və risalələri var. Məşhur qiraətlər, xüsusilə də Asimin qiraəti silsilə sənədlə ondan nəql olunmuşdur".[89]

**İmamiyyə alimlərinin Asimin qiraəti barədə dedikləri bəzi sözləri qeyd edirik:**

Şeyx Əbu Talib Təclil Təbrizi belə deyir: "İmamların (ə) zamanında tətbiq olunan qiraətlərin birinə uyğun və icma ilə təsdiqlənən qiraətlə Quranı oxumaq vacibdir. İmam (ə) belə buyurmuşdur: "Camaat oxuduğu kimi oxu". Əks halda yalnız bir qiraətin doğruluğu bilinərsə, ehtiyata əsasən onunla kifayətlənmək lazımdır. Allaha həmd olsun ki, müsəlman ölkələrində çap olunan bütün Quranlar Asimin qiraətinə uyğundur. Necə ki, Bağdad Din Nazirliyi və Hicazdakı Məcməu Fəhd mətbəəsi bu barədə bəyanat vermişdir. Asimin qiraəti məşhur yeddi qiraət növündən biridir. Onun qiraəti başqa qiraətlərdən onunla fərqlənir ki, o, Əbu Əbdürrəhmanın yanında qiraət öyrənmişdir. Əbu Əbdürrəhman isə Əli bin Əbu Talibin (ə) yanında qiraət öyrənmişdir. Şiələr və sünnilər hamısı bu

---

[88] əz-Zəriə, c. 5, s. 274, 275.

[89] Əyanuş-şiə, c. 8, s. 126, 127.

məsələni öz kitablarında qeyd etmişlər. Bu barədə Məcməul-bəyan kitabının müqəddiməsində və başqa kitablarda qed edilmişdir”,[90]

Həbibullah Haşimi Xoyi belə demişdir: “Təbərsinin İbn Əyyaşdan nəql etdiyinə əsasən Asimin qiraəti məhz Əmirəlmömininin Əli bin Əbu Talibin – canım ona fəda olsun – qiraətinə uyğundur. Yalnız on söz istisnadır. Həmin sözləri Əbu Bəkr Asimin qiraətinə daxil etmişdir. Əlinin qiraətini tamamilə seçib ayırdım. Hazırkı qiraət Əli (ə)-ın qiraətidir. Həmçinin Təbərsi təfsir kitabının müqəddiməsində qarilərin adları barədə danışarkən belə deyir: “Asimə gəlincə, o, qiraəti Əbu Əbdürrəhman Suləminin yanında öyrənmişdir. O isə Əli bin Əbu Talibin (ə) yanında qiraət öyrənmişdir. Qurani-kərimdə Asimin qiraətinin seçilməsi onun asanlığı və gözəlliyinə əsasəndir. Çünki bu qiraət başqa qiraətlərə nisbətdə daha dəqiqdir. Bunun sirri isə onun qiraətinin Əmirəlmömininin (ə)-ın qiraəti olmasındadır”.[91]

Muhəqqiq Səbzəvari belə deyir: “Yeddi qiraətin mütəvatir olması barədə alimlərin bəzilərindən icma nəql olunmuşdur. Fəzilətli şərhçi qeyd edir ki, qarilərin tədqiqatçılarından bəziləri bu qiraətləri nəql edən ravilərin barəsində ayrıca kitablar yazmışlar. Həmin ravilərin sayı mütəvatir hədisin ravilərinin sayından çoxdur”.[92]

Bu mövzunu Şeyx Tehraninin “əz-Zəriətu ilə təsanifiş-şiə” kitabından iqtibas edərək Asimin qiraəti barədə şiə alimlərinin bəzi kitablarına işarə etməklə tamamlayırıq.

– **“Həyatu Cavidani”**: Şeyx Tehrani belə deyir: “Hicri 590-cı ildə vəfat edən Şatibinin “Hirzul-əmani” kitabı müqabilində təcvid elmi barədə qələmə alınmış mənzum əsərdir. Hicri 1055-ci ildə vəfat etmiş Rövzətur-

---

[90] ət-Təliqətul-istidlaliyyə alə təhriril-vəsilə, s. 111.

[91] Minhacul-bəraə fi şərhi nəhcil-bəlağə, c. 16, s. 266.

[92] Zəxirətul-məad, c. 1, s. 273.

rizəviyyənin (İmam Rza hərəminin) Quran hafizi, qari Hacı Muhəmməd Rza bin Muhib Əli Səbzəvari Məşhədi bu əsəri nəzmə çəkmişdir".[93]

**– əd-Durus fit-təcvid bi qiraəti Asim**: Şeyx Tehrani deyir: "Movla Əbdülhüseyn bin Əbdül-movlanın kitabı... Bu kitab müqəddimədən və bir neçə dərsdən ibarətdir. Təcvidin faydaları barədə çoxlu dərslərdən sonra surələrin tərtibinə əsasən Fatihə surəsinin əvvəlindən Nas surəsinin sonunadək hərflərin hökmü barədə izaha başlayır. Bu kitab min beytdən ibarətdir".[94]

**– Urcuzə**: Şeyx Əli bin Heydər Şəruqinin təcvid barədə yazdığı kitab. Hicri 1314-cü ildə vəfat etmişdir. Bu kitabı Suquş-şuyux şəhərində bir gecədə nəzmə çəkmişdir. Şəhərin müftisinin şiələrin Quranın təcvidi barədə bir şey bilmədiklərini deməsinə cavab olaraq yazmışdır. Sanki bu müfti "yeddi bədr" (ay) adlanan qiraət imamlarından xəbərsizdir. Onların dördü şiə olmuşdur; Asim bin Əbunnucud, Əbu Əmr bin Əla, Həmzə və Kisai".[95]

**– İrşadul-qari**: Hicri 127-ci ildə vəfat etmiş qarilərin imamı Asim bin Əbunnucud Kufinin qiraətinin bəyanı barədə yazılmışdır. Kitabın müəllifi Quran qarisi Movla Mustafa bin İbrahim Təbrizi Məşhədidir. O, Təbriz ətrafında dünyaya gəlmiş və bu kitabı yazdıqdan bir müddət sonra hicri 1007-ci ildə vəfat etmişdir. Bu kitabı müqəddimə və beş babdan və sonluqdan ibarət böyük həcmli bir kitab olaraq tərtib etmişdir. Hər bir bab ayrılıqa bir kitab olmağa layiqdir. Birinci bab qiraətin vacib qaydalarına riayət etmək barədədir. İkinci bab qiraətin müstəhəb əməlləri barədədir. Üçüncü bab qiraətin ixtilafı barədədir. Dördüncü bab qiraətdə problemlərin izahı barədədir. Beşinci bab isə vəqflər və vəqf rəmzləri barədədir. O, bu kitabı beş il ərzində yazdığını qeyd etmişdir. Kitabı İmam

---

[93] əz-Zəriə, c. 7, s. 118.

[94] əz-Zəriə, c. 8, s. 144.

[95] əz-Zəriə, c. 1, s. 467, 468.

Hüseynin hərəmində yazmağa başlamış və hicri 1078-ci ildə Nəcəful-əşrəf şəhərində tamamlamışdır. Həmin vaxt onun yetmiş yaşı vardı. Belə aydın olur ki, onun ömrünün son vaxtları idi. O, bu kitabında təcvid barədə yazdığı "Tuhfətul-qari", "Tuhfətul-əbrar", "Tuhfətul-muqriin", "Vuquful-Quran", "Risalətun fi sənədi qiraəti Asim" (Asimin qiraətinin sənədi barədə risalə) barədə yazdığı kitabların xülasəsini qeyd etmişdir. O, sonuncu kitabda özü barədə müfəssəl surətdə bəhs etmişdir. Bu kitabın iki nüsxəsinə rast gəlmişəm. Həmin nüsxələrdən biri şeyximiz Əllamə Höccətullah Mirzə Muhəmməd Təqi Şirazinin, digərini isə Əllamə Movla Muhəmməd Əli Xunsarinin kitabxanasında rast gəlmişəm.[96]

– **Muxtəsrut-təcvid**: Seyid Mahmud bin Abdullah Musəvi Dizfulinin Həfsin rəvayətinə əsasən Asimin qiraətinin bəyanı barədə yazılmış fars dilində yazdığı kitab. Kitab on fəsildən ibarətdir: 1. İstiazə və bəsmələ. 2. Dişlərin qisimləri və hərflərin məxrəcləri. 3. Hərflərin xüsusiyyətləri. 4. Tərqiq və təfxim. 5. İzhar və idğam. 6. Nun sakinə və tənvin. 7. Mədd və qəsr. 8. Haul-kinayə. 9. Sözlərin sonu. 10. Vəqfin növləri.[97]

– **Mufrədətu Asim**: İmadəddin Əli bin Əli Farisi Astrabadinin farsca yazdığı kitab. Hicri 10-cu əsrdə yaşamışdır. O, təcvid barədə "Töhfeyi şahi" və başqa kitablar yazmışdır. Bu kitab Şatibinin üslubuna uyğun olaraq Asimin qiraəti barəsindədir. Kitab müqəddimə, üç bab və sonluqdan ibarətdir.[98]

– **Mulhəqu tuhfətil-qurra**: Tuhfətul-qari kitabının müəllifi Qari Mustafanın kitabı. Bu kitabı hicri 1068-ci ildə Asimin həyatı və onun qiraətini nəql edənlər barədə yazmışdır.[99]

---

[96] əz-Zəriə, c. 1, s. 516.

[97] əz-Zəriə, c. 20, s. 185, 186.

[98] Həmin mənbə, c. 21, s. 367, 368.

[99] Həmin mənbə, c. 22, s. 198.

**Xülasə:**

Sonda belə nəticəyə gəlirik ki, müasir Quranın qiraəti şiələrin imamı Əli bin Əbu Talib (ə)-a qayıdır. O, bu qiraəti Rəsulullahdan (s) öyrənmişdir. Ondan isə bu qiraəti şiə əqidəsində olan Əbu Əbdürrəhman Suləmi öyrənmişdir. Suləmi imam Əlinin (ə) ən yaxın şagirdlərindən və səhabələrindən idi. Bu qiraəti Suləmidən Asim bin Əbunnucud öyrənmişdir. O, Şeyx Əbdülcəlil Razinin dediyi kimi şiələrin iqtida etdiyi şəxs idi. Sonra Asimin zövcəsinin oğlu və onun himayəsində böyüyən Həfs bu qiraəti ondan öyrənmişdir. Həfs həm də İmam Cəfər Sadiqin (ə) səhabələrindən və ondan hədis nəql edənlərdən olmuşdur. Sonra bu qiraət Həfsin vasitəsilə yayılmış və islam aləmində, hətta hazırkı dövrümüzdə ən məşhur qiraət olmuşdur.

## İkinci fəsil
## Şiə qarilər

### Birinci mövzu: Yeddi qari

Şiə qarilər təkcə ən yüksək məqama ucalaraq bəzilərinin qiraətlərinin İslam aləmində ən kamil qiraət seçilməsilə kifayətlənməmişlər. Hətta onlar başqa qarilərlə birlikdə öz adlarını tarixə yaza bilmişlər. Bununla da tarix ilk şiələrin Qurani-kərimə və onun oxunuşuna verdikləri əhəmiyyətə şahid olmuşdur. Bəzi şiələrin qiraətləri etimad olunan yeddi qiraətdən hesab olunur. Asimdən əlavə Həmzə Zeyyat və Kisai kimi şiə olan qarilər də var. Əməş, Aban bin Təğlib, Həmran bin Əyun kimi bəzi şiə qarilərinin qiraətləri barədə məlumatlar bizə gəlib çatmamışdır. Növbəti mövzularda onların qısa olaraq tərcümeyi-hallarını qeyd edəcəyik. Yeddi qariyə gəlincə İbn Mucahidin qeyd etdiyi kimi onlar aşağıdakılardır:

1. Nafe bin Əbdürrəhman bin Əbu Nəim. Mədinə şəhəri. Hicri 169-cu ildə vəfat etmişdir.
2. Abdullah bin Kəsir. Məkkə şəhəri. Hicri 120-ci ildə vəfat etmişdir.
3. Əbu Əmr bin Əla. Bəsrə şəhəri. Hicri 154-cü ildə vəfat etmişdir.
4. Abdullah bin Amir Yəhsəbi. Şam şəhəri. Hicri 118-ci ildə vəfat etmişdir.
5. Asim bin Əbunnucud. Kufə şəhəri. Hicri 127-ci ildə vəfat etmişdir.
6. Həmzə bin Həbib Zeyyat. Kufə şəhəri. Hicri 156-cı ildə vəfat etmişdir.
7. Əli bin Həmzə Kisai. Kufə şəhəri. Hicri 189-cu ildə vəfat etmişdir.

**İkinci mövzu: Həmzə Zeyyat (80-156 h.)**

Zəhəbi deyir: "Həmzə bin Həbib bin Əmarə bin İsmail. Nümunəvi imam, qarilərin şeyxi, Əbu Əmmarə Teymi. Onların mövlası[100] kufəli Zeyyat idi. Səlim bin İsa və Kisai kimi çoxlu sayda qarilər Quranı ondan öyrənmişlər... O, Allahın kitabına dəyər verən, Allaha müti olan, təqvalı, şəni uca, hədis və fərzləri bilən imam idi. O, fars mənşəli idi".

Sovri belə deyir: "Həmzə hədisə istinad etmədən bir hərf belə oxumamışdır". Əsvəd bin Salim deyir: "Kisaidən həmzə və idğam barəsində soruşdum. Ondan "Sizin həmzənin oxunuşu və idğam barədə (onun oxunuşu barədə) imamınız (tabe olduğunuz bir şəxs) varmı?" – deyə soruşdum. O, belə dedi: "Bəli. Həmzə həmzə və kəsrə ilə oxuyurdu. O, imam idi. Onu görsəydin dindarlığından gözlərin parlayardı... Şueyb bin Hərb hədis əhlinə deyərdi: "Məndən dürr barədə soruşmayacaqsınız? Həmzənin qiraəti dürrdür.

Mən deyirəm: alimlərdən bir dəstəsi Həmzənin qiraətini bəyənmirdilər. Çünki onun qiraətində səktə[101], ifrat mədd[102], hərfə tabe olmaq, əzca[103] və başqa şeylər var. Bu gün həmin şeylərin qəbul olunmasında ittifaq var... İmam Həmzənin barəsində Təbəqatul-qurra və

---

[100] Burada məqsəd Həmzənin atalarının kufəli Zeyyat tərəfindən İslamı qəbul etmələridir. Bir çox qədim kitablarda işlədilən bu ifadə azad etmək və yə himayəyə götürmək mənalarını da bildirir.

[101] Səktə sözünün lüğəti mənası susma deməkdir. Təcvid elmində isə Quran oxuyan zaman qiraətə davam etmək məqsədilə nəfəsi dərmədən vəqf müddətindən bir qədər qısa müddətdə hərf üzərində səsin kəsilməsinə deyilir.

[102] Mədd uzatmaq mənasındadır. Burada Quran qiraəti zamanı hərfin həddindən artıq uzadılması nəzərdə tutulur.

[103] Çox imalə etmək, yəni fəthəni kəsrəyə və əlifi yə hərifinə həddindən artıq meyilli tələffüz etmək.

Tarixul-kəbirdə bundan daha geniş qeyd edilmişdir. Onun nəql etdiyi hədis "həsən" mərtəbəsindən aşağı deyil.[104]

Zəhəbi Həmzənin İmam Cəfər Sadiqin (ə) yanında Quran oxuduğunu təsdiqləmişdir.[105]

İbn Həcər belə deyir: "Quran qarisi Həmzə bin Həbib Zeyyat Əbu Əmarə Kufi ət-Teymi doğru danışandır".[106]

**Həmzə bin Həbib Zeyyatın şiə olmasının dəlilləri**

Şiə mənbələrində Həmzənin İmam Cəfər Sadiqdən (ə) nəql etdiyi hədislər qeyd olunmuşdur. Şeyx Tusi onun adını rical kitabında qeyd etmişdi.[107]

Fəthullah Kaşani qarilər barədə danışarkən belə deyir: "Həmzə bin Həbib Zeyyat. Cəfər bin Muhəmməd Sadiqin (ə) yanında Quran oxumuşdur".[108]

Həmzənin tərcümeyi-halını oxuduqdan sonra onun şiə alimləri ilə yaxın münasibətdə olduğu və Əhli-beyt imamlarının (ə) yanına gedib-gəldiyi məlum olur.

Kəlbi Ğərənati onun barəsində belə deyir: "Quran alimi, Asim və Əməşdən sonra insanların imamı. Zahid, abid, müti, ərəb dilini və fərzləri yüksək səviyyədə bilən biri idi. O, Süleyman Əməş, Həmran bin Əyun, Əbu İshaq Səbii və Cəfər bin Muhəmməd Sadiqdən qiraət öyrənmişdir. O, Həmranın məzhəbini seçmişdir".[109]

Onun qiraət öyrəndiyi bütün bu şəxslərin hamısı şiə olmuşdur. Onların hamısının imamı isə Cəfər Sadiq (ə) idi.

---

[104] Siyru əlamun-nubəla, c. 7, s. 90, 92.

[105] Mərifəttul-qurrail-kibar, s. 66.

[106] Təhzibut-təhzib, c. 1, s. 241.

[107] Ricali Tusi, s. 190.

[108] Zubdətut-təfasir, c. 1, s. 9.

[109] ət-Təshil li ulumit-tənzil, c. 1, s. 56.

Adı çəkilən Həmran bin Əyun barəsində rical kitablarında rafizi və şiənin böyük şəxslərindən olması yazılmışdır.[110]

Yaqut Həməvi belə deyir: "O, qiraəti Əməşdən və İmam Cəfər bin Muhəmməd Sadiqdən öyrənmişdir..."[111]

Şeyx Təbərsi deyir: "Həmzəyə gəlincə, o, Cəfər bin Muhəmməd Sadiqin (ə), həmçinin Əməş Süleyman bin Məhranın yanında qiraət öyrənmişdir".[112]

Şeyx Tusi deyir: "Həmzə Zeyyat belə nəql edir: Həmran bin Əyunun belə dediyini eşitdim: Əbu Cəfərə (ə) "Mən sizin şiələrinizdənəmmi?" – deyə soruşdum. İmam buyurdu: "Allaha and olsun ki, bəli. Sən dünya və axirətdə (bizim şiəmizsən). Bizim elə şiəmiz yoxdur ki, onun və atasının adı bizdə yazılmış olmasın. Yalnız bizdən üz döndərənlər istisnadır". Mən dedim: "Fəda olum sənə! Sizi tanıdıqdan sonra sizdən üz döndərən şiələriniz də var?" (İmam) dedi: "Sən onları görməyəcəksən". Həmzə dedi: "Bu hədis barəsində mübahisə etdik. Sonra Rza (ə)-a məktub yazıb Əbu Cəfərin istisna etdiyi şəxslər barəsində soruşduq. (İmam) belə cavab yazdı: "Onlar Musa bin Cəfərdən (ə) sonra (imam qəbul etməyən) vaqifilərdir. (Bu istisna) İbn Sərrac, İbn Mukari və Əli bin Əbu Həmzə barəsindədir".

Bu rəvayət Həmzə Zeyyatın çətinlik çəkdiyi məsələlərdə İmam Rza (ə)-a müraciət etməsinə dəlalət edir. Bir çox şiə alimi və tədqiqatçısı Həmzə Zeyyatın şiə olduğunu demişdir.

– Seyid Möhsin Əmin deyir: "Quranın mütəşabih ayələri barədə yazan şiə müəlliflərindən biri də yeddi qarinin biri olan Həmzə bin Həbib Zeyyat Kufidir".[113]

---

[110] Təhzibut-təhzib, c. 3, s. 22, 291; Tarixul-islam, c. 7, s. 349.

[111] Mucəmul-udəba, c. 10, s. 290, 291.

[112] Məcməul-bəyan, c. 1, s. 37.

[113] Əyanuş-şiə, c. 1, s. 128.

– Muhəqiq Tehrani "Əsbaul-Quran" kitabı barədə danışarkən deyir: "Bu kitab qarilərin imamı yeddi bədrdən biri Həmzə bin Həbib Kufinindir. O, İmam Cəfər Sadiqin (ə) səhabələrindən idi. Onun, Əməşin və Zürarə bin Əyunun qardaşı Həmran bin Əyunun yanında qiraət öyrənmişdir. Onlar (Əməş və Həmran) şiələrin şeyxlərindəndir".[114]

– Şeyx Abbas Qummi belə deyir: "Kufəli Zeyyat Əbu Abdullah Sadiqin (ə) şiələrindən və səhabələrindən olmuşdur. Hicri 156-cı ildə Həlvan şəhərində vəfat etmişdir".[115]

– Seyid Həsən Sədr deyir: "Quranın mütəşabih ayələri barədə kitab yazan ilk şəxs Həmzə bin Həbib Zeyyat Kufi olmuşdur. O, İmam Sadiqin (ə) şiələrindən və səhabələrindən olmuşdur. Hicri 156-cı ildə Həlvan şəhərində vəfat etmişdir".[116]

– Seyid Xoyi belə deyir: "Həmzə bin Həbib Əbu Əmarə, Əbu Əmmar Suləmi Neyli Təmimi Teyməli. Kufəli qari. İmam Sadiqin (ə) səhabələrindəndir. O, yeddi qaridən biridir. əl-Bəyan fi təfsiril-Quran kitabımızda "Nəzrətun fil-qiraat" başlığı altında onun tərcümeyi-halını müfəssəl surətdə bəyan etmişik".[117]

– Seyid Əbdülhüseyn Şəbüstəri deyir: "Əbu Əmarə Həmzə bin Həbib bin Əmarə bin İsmail Teyməli (vila əqdi ilə Teymi hesab edilmiş), Suləmi. Neyli Kufi olması da deyilmişdir. Zeyyat adı ilə tanınır. Ali İkrəmə bin Rəbiinin mövlası (azad etdiyi məvalidən və ya onların vasitəsilə İslamı qəbul etmiş ailədən) idi. İmamiyyənin hədis nəql edən fəqihlərindəndir. Zəiflərdən və tərk olunanlardandır. O, məşhur yeddi qaridən biridir".[118]

---

[114] əz-Zəriə, c. 17, s. 104. Şeyx Tehrani həmçinin Kisainin tərcümeyi-halı barədə danışarkən Həmzə Zeyyatı şiənin şeyxlərindən hesab etmişdir.

[115] əl-Kuna vəl-əlqab, c. 2, s. 303.

[116] əş-Şiə və fununul-islam, s. 32, 33.

[117] Mucəmi ricalil-hədis, c. 7, s. 297.

[118] əl-Faiq fi ruvati və əshabil-imam əs-Sadiq (ə), c. 1, s. 477.

– Şeyx Muhəmməd Hadi Mərifə deyir: "Siyər kitablarının müəllifləri onu Əhli-beytə (ə) məhəbbət bəsləyən imamiyyənin tanınmış şəxslərindən hesab etmişlər".[119]

**Üçüncü mövzu: Kisai (vəfatı: 189 h.q.)**

Xətib Bağdadi deyir: "Əli bin Həmzə Əbülhəsən Əsədi. Kisai adı ilə tanınan nəhv alimi. Kufə əhalisindən olan qiraət imamlarından biri. Bağdadda məskunlaşmışdır. Harun ər-Rəşid və Əmin dövründə orada olmuşdur. Həmzə Zeyyatın yanında qiraət öyrənmişdir. Bir müddət Bağdadda Həmzənin qiraəti ilə oxumuşdur. Sonra özü üçün qiraət növü seçmiş və insanlara həmin qiraətlə Quran qiraəti öyrətmişdir. Bağdad, Rəqqa və bir çox şəhərlərdə insanların çoxu onun qiraəti ilə oxumuşdur. Ondan qiraət öyrənib əzbərləmişlər. Quranın mənalarını və qiraətlərin əlamətlərini təsnif etmişdir".[120]

Xətib Bağdadi deyir: "Hərmələ bin Yəhya Təcibi bizə belə nəql etmişdir: "Muhəmməd bin İdris Şafeinin belə dediyini eşitmişəm: "Kim nəhv elmində dərinliklərə varmaq istəyirsə özünü Kisaiyə həvalə etsin".[121]

İbn Nədim Bağdadi deyir: "Nəhv alimi Kisai Əli bin Həmzə bin Abdulla bin Bəhmən bin Firuz. Onun əsli əcəmdir. Kufə əhalisindən və yeddi qaridən biridir. Kufədə böyüyüb ərsəyə çatmışdır. Bir şəhərdən başqa şəhərə köçürdü. Rey yaxınlığındakı kəndlərin birində vəfat etmişdir".[122]

Başqa bir yerdə isə belə deyir: "Onun bir neçə kitabı var: "Məanil-Quran", "Muxtəsərun-nəhv", "Kitabul-qiraat", "Kitabul-ədəd", "Kitabun-nəvadiril-kəbir", "Kitabun-nəvadiris-səğir", "Kitabu məqtuil-Quran və məvsuluhu", "Kitabru ixtilafil-ədəd", "Kitabul-hica", "Kitabul-məsadir",

---

[119] ət-Təmhid fi ulumil-Quran, c. 2, s. 185.

[120] Tarixu Bağdad, c. 11, s. 402.

[121] Tarixu Bağdad, c. 11, s. 405.

[122] İbn Nədim, əl-Fihrist, s. 32.

“Kitabu əşaril-məayat və təraiquha”, “Kitabul-haat əl-mukənna biha fil-Quran, Kitabul-huruf”.[123]

Zəhəbi deyir: “İmam, qarilərin və ərəb dilinin şeyxi, Əbülhəsən Əli bin Həmzə bin Abdullah bin Bəhmən bin Firuz Əsədi. Ailəsi kufəlilər tərəfindən İslamı qəbul etmişdir. Əba ilə ehram bağladığı üçün Kisai adlanmışdır. İbn Əbu Leylanın və Həmzənin yanında Quran tilavət etmişdir. Cəfər Sadiqdən, Əməşdən, Süleyman bin Ərqəmdən və başqalarından hədis nəql etmişdir. Həmçinin qari İsa bin Ömərin yanında tilavət etmişdir. Özü üçün qiraət növü seçmiş və onun qiraəti məşhur olmuşdur. Onun qiraəti yeddi qiraətdən biri olmuşdur. Nəhv elmində Xəlil ilə müzakirələr etmişdir. Ərəb dili üçün bir müddət Hicaz çöllüklərində səfərdə olmuşdur. Deyilənə görə qayıtdıqdan sonra on beş şüşə mürəkkəb istifadə edərək (öyrəndiklərini) yazmışdır. O, Yunisdən (nəhv elmini) öyrənmişdir. Şafei onun barəsində demişdir: “Kim nəhv elmində dərinliklərə varmaq istəyirsə özünü Kisaiyə həvalə etsin”. İbn Ənbari demişdir: “Hamı icma etmişdir ki, o, nəhv elmində insanlarnı ən biliklisi, qəribə elmlərdə onlardan biri, Quran elmində əvhədidir (misilsizdir). Onun yanına çox adam gəlirdi. Hətta onların öhdəsindən gələ bilmirdi. Yanına gələnləri toplayar kürsi üzərində oturaraq tilavət edərdi. İnsanlar hətta vəqf yerlərini də onun oxunuşuna əsasən qeyd edirdilər”.[124]

### Kisainin şiə olmasının dəlilləri

Zəhəbinin dediyi kimi onun şiəliklə qaynayıb daşan Kufədən olması, xüsuilə də şiə alimlərinin onu öz ravilərindən hesab etməsi Kisainin şiə olmasına dəlalət edir. Kisai qiraət və nəhvi öz dövrünün şiə alimlərindən

---

[123] Həmin mənbə, s. 72.

[124] Siyəru əlamun-nubəla, c. 9, s. 131, 132; Bax: İbn Həcər, Təhzibut-təhzib, c. 7, s. 275, 276.

öyrənmişdir. Həmin alimlərdən Həmzə Zeyyat, Xəlil Fərahidi, Məaz bin Müslim və Ravasi kimi alimlərin adlarını qeyd edə bilərik.

Zəhəbi Məaz bin Müslim barəsində belə deyir: "Məaz bin Müslim nəhv elminin şeyxi, kufəli nəhv aıimi Əbu Müslim, əl-Hira, Muhəmməd bin Kəb Qərəzinin azad etdiyi (və ya himayəsnə götürdüyü) şəxs... Kisai ondan öyrənmişdir. Deyilənə əsasən o, ərəb dilində kitab yazmış, lakin heç kimə göstərməmişdir. O, şiə idi".[125]

Şeyx Nəcaşi Ravasi barəsində belə deyir: "Muhəmməd bin Həsən bin Əbu Sarə Əbu Cəfər, Ənsarın azad etdiyi (və ya himayəsnə götürdüyü) şəxs. Rəvasi adı ilə tanınır. Onun əsli Kufədəndir. O və atası Kufədən əvvəl Neyldə məskunlaşmışlar. O və atası Əbu Cəfərdən və Əbu Abdullahdan (Allahın onlara salamı olsun) hədis nəql etmişdir. Həmçinin o, Muhəmməd bin Həsənnin əmisi oğlu Məaz bin Müslim bin Əbu Sarədir. Onlar fəzilət və ədəb ailəsindəndirlər. Kisai ərəb dili elmini Məaz və Muhəmməddən öyrənmişdir. Kisai və Fərra kitablarında "Əbu Cəfər Rəvasi və Muhəmməd bin Həsən belə nəql edir" deyərək çox rəvayətlər yazmışlar. Onların hamısı etibarlı şəxslərdir və onlara heç bir nöqsan tutulmaz".[126]

Zəhəbi deyir: "Əsvəd bin Salim belə deyir: "Kisaidən həmzə və idğam barədə "Sizin həmzə və idğam barədə (onun oxunuşu barədə) imam varmı?" -deyə soruşdum. O, belə dedi: "Bəli. Həmzə həmzə və kəsrə ilə oxuyurdu. O, imam idi. Onu görsəydin dindarlığından gözlərin parlayardı".[127]

Şəmsəddin Əbülxeyr ibn Covzi belə deyir: "Kisai Həmzənin yanıda qiraəti öyrənmiş və ona etimad edirdi".[128]

---

[125] Siyəru əlamun-nubəla, c. 8, s. 482.

[126] Ricalun-Nəcaşi, s. 324.

[127] Siyəru əlamun-nubəla, c. 7, s. 90, 91.

[128] ən-Nəşr fil-qiraatil-əşr, c. 1, s. 172.

Deməli, Həmzə Zeyyat həmzə və idğam məsələsində Kisainin imamı olmuşdur. Həmzənin tərcümeyi-halında qedy etdiyimiz kimi o, Əhli-beytin (ə) şiələrindən olmuşdur.

**İmamiyyənin bəzi tədqiqatçıları Kisaini şiə ravilərindən hesab etmişlər:**

1. Seyid Məhdi Bəhrul-ulum Kisainin tərcümeyi-halını qeyd edərəkən belə deyir: "Əbülhəsən Əli bin Həmzə bin Abdullah bin Osman bin Firuz Əsədi Kufi. Kisai adı ilə tanınırdı. Yeddi qaridən biridir. Nəhv və lüğətdə imamlardan biri idi. Nəhvi Məazın yanında öyrənmişdir. O, Məaz bin Müslim əl-Hiradır. Onu əl-Fərra da adlandırırdılar. Hədis ravilərindən və Cəfər Sadiqin (ə) səhabələrindən olmuşdur. Sonra isə Xəlilin yanında öyrənmişdir..."[129]

əl-Fəvaidur-ricaliyyə kitabının tədqiqatçısı Muhəmməd Sadiq Bəhrul-ulum bu sözlərin ardınca belə deyir: "Tarixçilərin əksəriyyətinin rəyinə əsasən Kisai şiə olmuşdur".

2. Seyid Həsən Sədr belə deyir: "Yeddi qaridən biri də Kisaidir. Bir neçə xüsusiyyət onda cəm olmuşdur. O, nəhv elmində ən bilikli şəxs idi. Gözəl bəyan və Quranda misilsiz idi. Kisai İraq ərazisində yaşayan farslardan idi. Onun nəsəbi və şiə olması barədə "əl-Əsl" kitabında qeyd etmişəm. Kisai hicri 189-cu ildə Harun ər-Rəşidin yanında olarkən Reydə və ya Tusda vəfat etmişdir".[130]

3. Şeyx Ağa Bozorg Tehrani belə yazır: "Kisainin "Qisəsul-ənbiya" adlı kitabı vardı. O, nəhv alimlərinin və qarilərin imamı, "yeddi bədr"dən (parlayan ay, məqsəd yeddi qaridir) biri idi. Əbülhəsən Əli bin Həmzə bin Abdullah bin Bəhmən bin Fərrar. Fars mənşəlidir. Həmzə bin Həbib Zeyyat Kufi, Aban bin Təğlib bin Rəamah kimi şiə şeyxlərinin yanında qiraəti

---

[129] əl-Fəvaidur-ricaliyyə, c. 3, s. 155, 156.

[130] əş-Şiə və fununil-islam, s. 39.

öyrənmişdir. Nəhv elmini isə Əbu Cəfər Rəvasidən və Məaz əl-Hirradan öyrənmişdir. ər-Riyaz kitabında babul-əlqab bölümündə onun şiə olduğu deyilmişdir. Harun ər-Rəşidin dövründə hicri 189-cu ildə vəfat etmişdir. Şeyx İmadəddin Həsən bin Əli Təbərsi "Əsrarul-imamə" kitabında onun yuxarıda qeyd etdiyimiz kitabından çox nəql etmişdir".[131]

4. Şeyx Abbas Qummi belə deyir: "Kisai; Əbülhəsən bin Əli bin Həmzə Kufi əl-Bağdadi. Şiə məzhəbinə etiqad edirdi. Qari, nəhv və lüğət alimidir. Yeddi qaridən biridir. Harun ər-Rəşidin oğlu Muhəmməd Əminə dərs deyib onun tərbiyəsi ilə məşğul olmuşdur. Əllamə Təbatəbai Bəhrul-ulum– Allah ona rəhmət eləsin – belə demişdir: "O, qiraəti Həmzə bin Həbib Zeyyatdan öyrənmişdir".[132]

5. Seyid Möhsin Əmin belə deyir: "Kisai Aban bin Təğlibin yanında qiraət öyrənmişdir. O isə şiə idi. Həmin əsrdə şiəlik Kufə əhalisinin əksəriyyətinin mənsub olduğu məzhəb idi. Şeyx Həsən bin Əli Təbərsi "Əsrarul-imamə kitabından Kisainin Qisəsul-ənbiya kitabından çoxlu rəvayət nəql etmişdir".[133]

6. Muhəqiq Seyid Cəlali deyir: "Əli bin Həmzə Kisai (vəfat tarixi hicri 189) Əbülhəsən Əli bin Həmzə bin Abdullah bin Bəhmən bin Fərrar Əsədi Kufi. Seyid Həsən Sədr deyir: "Məşhur yeddi qaridən biri. Riyazul-uləma kitabında babul-əlqabda onun şiə olması deyilmişdir. Həmzə, Aban bin Təğlib kimi şiə şeyxlərinin yanında qiraət öyrənmişdir. Nəhv elmini isə Əbu Cəfər Rəvasibi və Məaz əl-Hirradan öyrənmişdir. Onların hamısı şiə alimləridirlər... Kisai Həmzənin yanında Quranı oxumuşdur. Həmzə isə Əbu Abdullahın və atasnın yanında oxumuşdur. O da Əmirəlmöminin (ə)-

---

131 əz-Zəriə, c. 17, s. 104.

132 əl-Kuna vəl-əlqab, c. 3, s. 112, 113.

133 Əyanuş-şiə,c. 8, s. 233.

ın yanında oxumuşdur. Şəhid bin Məkkinin dəsti-xətti ilə belə yazılmışdır”.[134]

**Dördüncü mövzu: Aban bin Təğlib (vəfat: 141 h.q.)**

İbn Həcər deyir: “Aban bin Təğlib Rəbi Əbu Səd Kufi. Əbu İshaq Səbii, Həkəm bin Uteybə, Fuzeyl bin Ömər, Fəqimi, Əbu Cəfər Baqir və başqalarından hədis nəql etmişdir... İbn Udəy belə demişdir: “Əgər ondan etibarlı bir adam nəql edərsə, nəql olunan doğrudur. O, rəvayətdə doğru danışanlardandır. Baxmayaraq ki, onun məzhəbi şiə məzhəbidir. O, rəvayətdə saleh biridir. Onun heç bir eybi yoxdur”. İbn İclan belə deyir: “Aban bin Təğlib İraq əhlindəndir. Abidlərdəndir. Etibarlıdır”. Hakim əl-Mustədrək kitabında Aban bin Təğlibin nəql etdiyi hədisi qeyd etdikdə belə demişdir: “Şiənin ravisidir. O, etibarlı şəxsdir. İbn Uyeynə onun fəsahət və bəyanını tərifləmişdir... Əqili belə deyib: “Əbu Abdullahın onun ağıllı, ədəbli, səhih hədis nəql edən, lakin şiəlikdə mübaliğəyə yol verən biri olduğunu dediyini eşitmişəm”. İbn Səd deyir: “Etibarlı şəxs idi”. İbn Hibban onu etibarlı adamlardan hesab etmiş və vəfat tarixini qeyd etmişdir. İbn Mıncəveyh ondan nəql etmişdir. Əzdi demişdir: “Şiəllikdə mübaliğə edirdi. Onun nəql etdiyi hədisdə heç bir nöqsan yoxdur”.[135]

Zəhəbi deyir: “Aban bin Təğlib Kufi bacarıqlı şiə idi. Lakin doğru danışan idi. Onun doğruluğu bizə, bidəti isə özünə qalsın. Əhməd bin Hənbəl, İbn Muin və Əbu Hatəm onu etibarlı hesab etmişdir. İbn Udəy ondan nəql edərək belə demişdir: “Şiəlikdə çox təəssübkeş idi”.[136]

Həmçinin belə demişdir: “Aban bin Təğlib doğru danışan və məşhurdur. Müslim ondan nəql etmişdir. Buxari isə ondan nəql olunan hədisi qeyd etməmişdir. Çünki o, tanınmış şiə idi”. “İmam qari Əbu Səd.

---

[134] Fihrəsut-turas, c. 1, s. 192.

[135] Təhzibut-təhzib, c. 1, s. 81, 82; Həmçinin bax: Mərifətu ulumil-hədis, s. 136.

[136] Mizanul-itidal, c. 1, s. 5, 6.

Həmçinin Əbu Uməyyə Rəbi Kufi əş-Şii də adlanır". Onun barəsində danışan onun etibarlı və doğru hədis söyləyən olduğunu demişdir".[137]

İbn Nədim onu şiə müəlliflərindən hesab etmişdir. Belə ki, onun barəsində demişdir: "Bunlar imamlardan fiqh nəql edən şiə şeyxlərindəndir. Ardıcıl olmadan onların adlarını qeyd etdim. Onlardan bəziləri aşağıdakılardır: Aban bin Təğlib. Onun "Məanil-Quran", "Kitabul-qiraat" və şiə məzhəbinə əsasən "əl-Usul fir-rivayə" kitabları var".[138]

Şeyx Nəcaşi onun tərcümeyi-halında belə yazmışdır: "Aban bin Təğlib bin Rəbah... Səhabələrimiz arasında onun böyük məqamı var. Əli bin Hüseynin, Əbu Cəfərin və Əbu Abdullahın – Allahın onlara salamı olsun – səhabələri olmuş və onlardan hədis nəql etmişdir. Bəlazuri onun barəsində danışmış və belə demişdir: "Aban bin Təğlib Ətiyyə Ofidən nəql etmişdir". Əbu Cəfər (ə) ona demişdir: "Mədinənin məscidində otur və insanlara fətva ver. Mən şiələrimdən sənin kimi birinin tanınmasını istəyirəm". Əbu Abdullah (ə)-ə onun ölüm xəbəri çatdıqda belə buyurmuşdur: "Allaha and olsun ki, Abanın ölümü qəlbimi ağrıtdı". O, qarilərin öndərlərindən, fəqih, dilçi alim idi. Ərəblərdən eşitmiş və onlardan nəql etmişdir... Onun bir neçə kitabı vardı. "Ğəribul-Quran", "Kitabul-fəzail" həmin kitablardandır. Qarilərin nəzərində Abanın özünəməxsus qiraəti vardı".[139]

Şeyx Tusi deyir: "Abanın özünəməxsus qiraəti var. Bu barədə bizə Əhməd din Muhəmməd bin Musa xəbər vermişdir. O, Əhməd bin Muhəmməd bin Səiddən, o da Əbu Bəkr Muhəmməd bin Yusif Razi əl-Muqridən– 281 ci ildə Qadisiyyədə - o da, Əbu Nəim Fəzl bin Abdullah bin Abbas bin Məmər Əzdi Taliqani – Bəsrənin ətrafında yaşamış 255-ci ildə– o da, "əl-Lulu" kitabının müəllifi Muhəmməd bin Musa bin Əbu

[137] Mizanul-itidal, c. 1, s. 57, 58; Siyəru əlamun-nubəla, c. 6, s. 308.

[138] İbn Nədim, əl-Fihrist, s. 275, 279.

[139] Ricalun-Nəcaşi, s. 10, 13.

Məryəmdən belə nəql edir: “Aban bin Təğlib – ondan daha yaxşı qiraət edən yoxdur – Quranı başdan ayağa oxuduğunu eşitdim”. Sonra onun qiraətini nəql etdi”.[140]

Şəmsəddin Əbülxeyr bin Cəzəri “Ğayətun-nihayə fi təbaqatil-qurra” kitabında c. 1, səh. 4-də qarilərdən hesab edərək demişdir: “Aban bin Təğlib Rəbi Əbu Səd. Ona Əbu Uməyyə Kufi də deyilir. Böyük nəhv alimidir. Asim, Əbu Əmr Şeybani, Təlhə bin Musrif və Əməşin yanında Quran oxumuşdur. Onların yanında Quranı xətm edənlərdəndir. Deyilənə görə Əməşin yanında üç nəfərdən başqa heç kim Quranı xətm etməmişdir. Onlardan biri də Aban bin Təğlibdir. Muhəmməd bin Saleh bin Zeyd Kufi qiraəti ondan öyrənmişdir. Hicri 141-ci ildə vəfat etmişdir. Qazi Əsəd onun 153-cü ildə vəfat etdiyini demişdir”. Aban Asimin qiraətini nəql edənlərdən hesab olunur.[141]

Aban əvvəlki səhifələrdə haqqında danışdığımız Kisainin ustadlarından və Quran barəsində kitab yazanların öndərlərindəndir. Aşağıdakı kitablar onun yazdığı kitablardandır:

– Ğəribul-Quran. Şeyx Nəcaşi onun tərcümeyi-halı barədə danışarkən bu kitabı qeyd etmişdir.

– əl-Qiraətul-mufrədə.[142]

– Təfsiru Aban bin Təğlib.

– Kitabul-qiraat.[143]

– Məanil-Quran.[144]

---

[140] Şeyx Tusi, əl-Fihrist, s. 58, 59.

[141] Ğərnati Kəlbi, ət-Təhsil li ulumit-tənzil, c. 1, s. 55.

[142] əz-Zəriə, c. 17. S. 56.

[143] İbn Nədim, əl-Fihrist, s. 275.

[144] İbn Nədim, əl-Fihrist, s. 275: Bax; Zərkəli, “əl-Əlam”, c. 1, s. 26.

**Beşinci mövzu: Süleyman Əməş (60 h.q – 148 h.q)**

Zəhəbi deyir: "İmam, alim Süleyman bin Mehran Əməş Əbu Muhəmməd Əsədi Kahili. Ailəsi kufi tərəfindən İslamı qəbul etmişdir. Əsli Reydəndir. Ənəsi – Allah ondan razı olsun – görmüş, Abdullah bin Əbu Avfadan, Əbu Vaildən, Zeyd bin Vəhəbdən, İbrahim Nəxəidən, Səid bin Cübeyrdən, Mucahiddən, Əbu Əmr Şeybanidən və başqalarından nəql etmişdir. Quranı Yəhya bin Sabitin yanında oxumuşdur. Həmçinin Zeyd bin Vəhəb və Zur bin Hubeyşin yanında oxuduğu da nəql olunmuşdur. Qiraətini Əbülaliyə Riyahi, Mucahid və Asim bin Bəhdələyə təqdim etmişdir. O, uzun müddət insanlara Quran öyrətmişdir. Deyilənə görə üç dəfə onun yanında Quran xətm edilib. Həmzə Zeyyat və başqaları onun yanında qiraət öyrənmişdir. Həkəm bin Uteybə ondan böyük olmasına baxmayaraq ondan rəvayət nəql etmişdir. Həmçinin Şöbə, Sufyan, Zaidə, Cərir bin Əbdülhəmid, Əbu Müaviyə, Vəki, Əbu Üsamə, Übeydullah bin Musa, Əbu Nəim və çoxlu sayda insanlar ondan nəql etmişlər. O, hicri 61-ci ildə dünyaya gəlib. İbn Üyeynə belə deyir: "Əməş onların içində Allahın kitabını ən yaxşı oxuyan, hədisi ən çox hədis əzbər bilən və fərzləri ən yaxşı bilən şəxs idi. Əbu Həfs Fəllas belə deyir: "Əməş o qədər doğru danışan idi ki, ona Mushəf (Quran) deyirdilər". Əli bin Qəttan deyir: "O, İslamın əlləməsi idi". Vəki deyir: "Əməş təqribən 70 il yaşamışdır. Bir dəfə də birinci təkbiri əldən verməmişdir" (Namazı vaxtında qılmasına işarə edir). Xəribi deyir: "Əməşdən sonra onun qədər abid biri olmadı. O, sünnəyə əməl edən idi". Əməşin nadir xüsusiyyətləri vardı. Hədis nəql edənlərə qarşı kobuluq edirdi. Bununla yanaşı onun xüsusiyyətlərinə dözürdülər. Bir gün hədis nəql edənlərin yanına gəlib dedi: "Əgər evimdə sizdən daha çox nifrət etdiyim biri olmasaydı sizin yanınıza gəlməzdim". Nəql olunur ki, bir toxucu ondan "Toxucunun arxasında namaz qılmağın hökmü barədə nə deyirsən?" deyə soruşdu. Əməş dedi: "Dəstəmaz olmadan qılmağın eybi yoxdur". Ondan "Toxucunun şahidliyi barədə rəyin nədir?" deyə

soruşdular. Əməş belə cavab verdi: “İki ədalətli şəxslə birlikdə olsa da qəbul olunmaz”. Qeyd etdiyimiz kimi Həmzə Quran qiraətini ona təqdim etmişdir”.[145]

Buxari, Müslim, Yəhya bin Muin, Nəsai, İbn Hibban, Əbu Hatəm, Əbu Zurə, Şöbə, İbn Mədini, İcli, İbn Şahin, Hakim, Tirmizi, Təhavi, Heysəmi, Zəhəbi, İbn Həcər və başqaları onu etibarlı hesab etmişdir. “Məcmu ruvatiş-şiə əs-siqat və ədədu əhadisihim min məsadiri əhlis-sunnə” (Əhli-sünnə mənbələrində etibarlı şiə raviləri və onların nəql etdikləri hədislərin sayları) kitabımızda onun tərcümeyi-halını qeyd edərkən bu barədə müfəssəl surətdə yazmışıq.

İbn Həcər deyir: “Süleyman bin Mehran Əsədi Kahili Əbu Muhəmməd Əməş. Etibarlıdır, qiraətləri bilən, hafiz (Quran hafizi) və təqvalıdır. Lakin o, yalan hədislər nəql edirdi”. [146]

Şəmsəddin Əbülxeyr ibn Cəzəri Əməşi qarilərdən hesab etmiş və Təbəqat kitabında onun tərcümeyi halını yazmışdır”.[147]

Bəziləri Əməşin qiraətini on birinci qiraət hesab etmişdir. İbn Cəzəri on bir qiraət barəsində ər-Rovzə kitabınnı qeyd etmişdir. Burada on məşhur qiraət və Əməşin qiraəti nəzərdə tutulduğunu demişdir. Bu kitabı İmam ustad Əbu Əli Həsən bin Muhəmməd bin İbrahim Bağdadi Maliki yazmışdır. O, Misirdə yaşamışdır. Hicri 438-ci ildə ramazan ayında orada vəfat etmişdir”.[148]

Təfsir kitablarına müraciət edən hər bir şəxs təfsir alimlərinin müxtəlif məqamlarda Əməşin qiraətinə işarə etdiklərinə rast gəlir. Əbu Həyyan

---

[145] Mərifətul-qurrail-kibar, c. 1, s. 94, 96; Həmçinin Əməşin tərcümeyi-halı barədə bax; Təhzibut-təhzib, c. 4, 195; ət-Təshil li ulumit-tənzil, c. 1, 392.

[146] Təqribut‑təhzib, c. 1, s. 392.

[147] Ğayətun-nihayəti fi təbəqatil-qurra, c. 1, s. 315, 316.

[148] ən-Nəşr fil-qiraatil-əşrə, c. 1, s. 74.

Əndəlusinin “əl-Bəhrul-muhit” adlı təfsir kitabında 165 yerdə Əməşin qiraətini qeyd etdiyinə rast gəldim.

**Əməşin şiə olmasının dəlilləri**

Süleyman Əməş Əhli-beyt imamlarına (ə) etiqad edir, onlardan dini əqidələri öyrənir və hər bir məsələdə onlara müraciət edirdi. Baxmayaraq ki, əhli sünnə ilə birlikdə olur və hədis nəql etmişdir. Bəlkə də onun belə etməsi İmam Cəfər Sadiqin (ə) əmri ilə olmuşdur. Çünki İmam (ə) daima səhabələrini insanlara qaynayıb qarışmağı və onlara hədis söyləməyi tövsiyə edirdi. Əməşin şiə məzhəbinə mənsub olmasında heç bir şəkk və şübhə yoxdur. Şəhristani onun şiə məzhəbinə mənsub olmasını demişdir.[149]

Çoxlu sayda insanlar onun barəsində “Onda şiəllik vardı” demişdir.[150]

İbn Quteybə Əməşi şiələrdən hesab etmişdir.[151]

Əbdürrəhman Mələmi Sələfi belə deyir: “Əməşin şiə olması hamı tərəfindən qəbul olunmuş məsələdir”.[152]

Cuzcani Əməşi məzhəbləri bəyənilməyən Kufə mühəddislərinin (hədis nəql edənlərin) başçılarından hesab etmişdir.[153]

Əhvalur-rical kitabının sahibi Cuzcani belə nəql edir: “Əhməd bin Fəzalə və İbrahim bin Xalid bizə Müslim bin İbrahimdən, o da Həmmad bin Zeyddən belə nəql edir: “Əməş ölüm ayağında belə demişdi: “Osman barəsində qondardığımız hədislərə görə Allahdan bağışlanmaq diləyir və tövbə edirəm”.[154]

---

[149] Şəhristani, əl-Miləl vən-Nihəl, c. 1, s. 190.

[150] Mizanul-itidal, c. 1, s. 408.

[151] əl-Məarif, s. 624.

[152] ət-Tənkil bi ma fi tənisil-kovsəri minəl-əbatil, c. 1, s. 246.

[153] Tarixu Bağdad, c. 9, s. 7.

[154] Cuzcani, Əhvalur-rical, c. 1, s. 325, 326.

Cuzcaninin nəql etdiyi bu hədis doğru olarsa bu, Əməşin şiəlikdə təəssübkeş olmasına dəlalət edir. Çünki o, xəlifələrin nöqsanları barədə danışmışdır. Müəyyən hədislər qondardığı üçün tövbə etmişdir. Şiəliyinə gəlincə, bu onun ölərkən aşkar etdiyi əqidəsidir".

Cahizin Osmaniyyə kitabında belə nəql olunur: "Əməş belə nəql edir: - o, rafizi idi..."[155]

Əhməd bin Hənbəl belə deyir: "Onun belə dediyini eşitdim: "Yezid bin Zəri Şöbədən, o da Süleyman Əməşdən nəql edir. (O, Əməşin barəsində belə dedi) "Allaha and olsun ki, fasid və Səbəi (Abdullah bin Səbənin ardıcıllarından) idi. Allaha and olsun ki, Şöbə ondan nəql etməsəydi mən heç vaxt ondan hədis nəql etməzdim".[156]

Bu rəvayət olduqca əhəmiyyətlidir. Əgər müasir sələfilər şiələri İbn Səbəyə nisbət verirlərsə, hələ Əməşin zamanında onu İbn Səbəyə nisbət verirdilər. Bu isə Əməşin əhli-beyt imamlarına (ə) tabe olmasına, onlara müraciət etməsinə və onlardan nəql etməsinə dəlalət edir.

Şeyx Tusi belə nəql edir: "Süleyman bin Məhran belə nəql edir: "Cəfər bin Muhəmməd Sadiqin (ə) yanına daxil oldum. Onun yanında bir dəstə şiə vardı. O belə deyirdi: "Ey şiələr, bizim üçün zinət olun, bizə üz qarası olmayın. İnsanlara gözəl sözlər söyləyin, dilinizi qoruyun, boş, əbəs və pis sözlərdən çəkinin!"[157]

Furatul-Kufi təfsirində belə yazılıb: "... Vəki Süleyman Əməşin belə dediyini nəql edir: "Əbu Abdullah Cəfər bin Muhəmmədin (ə) yanına daxil oldum və ona dedim: "Canım sənə fəda olsun! Bizə rafizi deyirlər..."[158]

Seyid Xoyi – Allah ona rəhmət eləsin – belə deyir: "Şübhəsiz ki, Əməşin şiə olması hər iki firqə (sünni və şiə) tərəfindən qəbul olunmuş bir

---

[155] Osmaniyyə, s. 144.

[156] əl-İləl, c. 2, s. 342.

[157] Tusi, əl-Əmali, s. 440.

[158] Furatul-Kufi təfsiri, s. 376; Biharul-ənvar, c. 65, s. 97, 98.

məsələdir. Bir neçə rəvayət buna dəlalət edir... Bundan başqa İmam Cəfər Sadiqin (ə) yanında olan hörmət və məqama görə onun nəql etdiyi rəvayətə etimad etmək üçün yetərlidir. Buna görə də o, İmamın (ə) yaxın səhabələrindən idi. Əli bin İbrahimin təfsirində Süleyman bin Məhran adı ilə ona isnad edilmişdir. Əli bin İbrahim isə yalnız etibarlı şəxslərdən rəvayət nəql edəcəyinə söz vermişdir”.[159]

Əhli sünnə mənbələrində Əməşdən nəql olunan rəvayətlərin sayı on bir min hədisdən çoxdur!

### Altıncı mövzu: Yəhya ibn Yəmur (vəfatı: hicri 90-cı ildən əvvəl)

Zəhəbi deyir: “Yəhya bin Yəmur. Fəqih, əllamə, qari. Əbu Süleyman Ədvani Bəsri. Mərvin qazisi. Künyəsi Əbu Udəy... O, elm xəzinəsi və höccət (dəlil) sahibi idi. Əbu Davud deyir: “Aişədən nəql etməmişdir”. Deyilənə görə Qurani-kərimin hərflərini nöqtə ilə yazan ilk şəxs olmuşdur. Bu, hərəkələrlə yazının meydana çıxmasından uzun müddət əvvəl olmuşdur. O, fəsahətli dilə sahib idi. O, Əbüləsvəddən elm öyrənmişdi”.[160]

Həmçinin demişdir: “Onun nəql etdiyi hədis barəsində (doğruluğuna) və etibarlı olmasında ittifaq olunmuşdur”.[161]

Hakim deyir: “Yəhya bin Yəmur. Fəqih, ədib, nəhv alimi. Mərvdəndir. Tabeindir. Nəql etdiyi rəvayətlərin çoxu tabeinlərdəndir. Nəhv elmini Əbüləsvəd Duəlidən öyrənmişdir”.[162]

Yaqut Həməvi deyir: “O, qiraət, hədis, fiqh, ərəb dili və ərəb ləhcələri sahəsində alim idi”.[163]

Zəhəbi onu böyük qarilərdən hesab edərək belə demişdir: “Yəhya bin Yəmur Ədvani Əbu Süleyman Bəsri. Əbüləsvəd Duəlidən qiraəti

[159] Seyid Xoyi, “Mucəmu ricalil-hədis”, c. 9, s. 295.

[160] Siyəru əlamun-nubəla, c. 4, s. 441, 442.

[161] Təzkirətul-huffaz, c. 1, s. 75.

[162] Təhzibut-təhzib, c. 11, s. 267.

[163] Mucəmul-udəba, c. 20, s. 42.

öyrənmişdir. İbn Abbasdan, İbn Ömərdən, Aişədən, Əbu Hüreyrədən eşitmiş, Əbu Zərdən, Əmmar bin Yasirdən – Allah onlardan razı olsun – nəql etmişdir. Əbu Əmr bin Əla onun yanında qiraət öyrənmişdir.[164]

İbn Cəzəri onu qarilərdən hesab etmiş və onun tərcümeyi-halını yazmışdır.[165]

Bir çox tarixçilər onun şiə olmasını və Əhli-beyti (ə) səhabələrdən üstün tutduğunu demişlər. Həmin tarixçilərdən aşağıdakıları qeyd edirik:

– İbn Xəlkan belə deyir: "O, Əhli-beyti (səhabələrdən) üstün tutan, lakin fəziləti olan birinin fəzilətini azaltmayan ilk şiələrdəndir. Qari Asim bin Əbunnucud nəql edir ki, Həccac bin Yusif Səqəfi Yəhya bin Yəmurun "Həsən və Hüseyn – Allah onlardan razı olsun – Rəsulullahın (s) züriyyətindəndir" dediyini eşitdi. Həmin vaxt Yəhya Xorasanda idi. Həccac Xorasanın valisi Quteybə bin Müslimə belə yazdı: "Yəhya bin Yəmuru yanıma göndər". O da Yəhyanı onun yanına göndərdi. Yəhya onun qarşısında dayandı. (Həccac) ona dedi: "Həsən və Hüseynin Rəsulullahın (s) züriyyətindən olmasını iddia edən sənsən? Allaha and olsun ki, ya səni tikə-tikə edəcəm, ya da bu məsələni sübut edərək xilas olacaqsan". (Yəhya) dedi: "Əgər izah etsəm mənim üçün əmin-amanlıq olacaq (yəni məni azad buraxacaqsan). (Həccac) dedi: "Bəli". (Yəhya) dedi: "Allah-təala buyurur: **"Yoxsa səni öldürəcəm". (Yəhya) dedi: "Və ona İshaqı və (nəvəsi) Yəqubu əta etdik. (Onların) hər birini (dinin asasları və maarifinə) hidayət etdik. Nuhu da onlardan öncə hidayət etdik və onun övladlarından Davudu, Süleymanı, Əyyubu, Yusufu, Musanı, Harunu (hidayət etdik). Biz yaxşıları və yaxşılıq edənləri bu cür mükafatlandırırıq. Həmçinin Zəkəriyya, Yəhya, İsa və İlyası (da hidayət etdik). Onların hamısı salehlərdən idi"** (Ənam surəsi, ayə 84, 85). İsa ilə İbrahimin arasında Həsən və Hüseynlə Muhəmmədin (s)

---

[164] Mərifətul-qurrail-kibar alər-rəbəqat vəl-əsar, c. 1, səh 37.

[165] Ğayətun-nihayə fi təbaqatil-qurra, c. 2, s. 381.

arasında olan müddətdən çox müddət vardı". Həccac dedi: "Belə düşünürəm ki, sən xilas oldun. Bu ayəni oxumuşdum, lakin heç vaxt bunu bilməmişdim".

Bu, qəribə və gözəl istinbatlardandır. Onun bu dəlili necə də dəqiq və gözəldir!

Asim belə nəql edir: "Daha sonra Həccac ona dedi: "Harada dünyaya gəlmisən?" (Yəhya) dedi: "Bəsrədə". (Həccac) dedi: "Harada böyümüsən?" (Yəhya) dedi: "Xorasanda". (Həccac) dedi: "Bəs bu cür ərəb dilini hardan öyrənmisən?" (Yəhya) dedi: "(Allahın verdiyi) ruzidir". (Həccac) dedi: "De görüm mən ərəbcə danışarkən səhvə yol verirəmmi?" (Yəhya) sükut elədi. (Həccac) dedi: "Səni andverirəm". (Yəhya) dedi: "Ey əmir, soruşduğuna gəlincə, sən kəsrə ilə oxunanı rəf (zəmmə) ilə, rəf ilə oxunanı isə kəsrə ilə deyirsən". (Həccac) dedi: "Allaha and olsun ki, bu ən pis xətadır".[166]

Əhli-Beytin (ə) üstün tutulması, yəni Əlinin, Həsənin və Hüseynin iki şeyx olmaqla bütün səhabələrdən üstün tutulması deməkdir. Hədis alimlərinin terminində həmin şəxs rafizidir.

İbn Həcər deyir: "Şiəlik Əlinin sevmək və onu səhabələrdən üstün tutmaqdır. Kim onu Əbu Bəkr və Ömərdən üstün tutarsa, şiəlikdə muğalidir (həddi aşmışdır). Ona rafizi deyilər. Əks təqdirdə isə o, şiədir".[167]

– İbn İmad Hənbəli onun barəsində danışaraq əhli-beytin üstün tutulması məsələsini vurğulayaraq deyir: "O, başqasının fəzilətini inkar etmədən əhli-beyti üstün tuturdu".[168]

---

[166] Vəfiyyatul-əyan və ənbau əbnaiz-zəman, c. 6, s. 173, 174: Yəhyanın Həccac ilə əhvalatını Hakim əl-Mustədrək kitabında qeyd etmişdir: c.3, s. 164; Bəlazuri, Ənsabul-əşraf, c. 13, s. 265, 266.

[167] Muqəddimətu Fəthul-bari, s. 460.

[168] Şəzəratuz-zəhəb fi əxbarin min zəhəb, c. 1, s. 175.

– Yaqut Həməvi deyir: “Yəhya şiəliyini biruzə verirdi. O, başqasının fəzilətini inkar etmədən əhli-beyti üstün tuturdu”.[169]

– Yafei deyir: “O, Qurani-kərimi, nəhv elmini, ərəb dillərini (ləhcələrini) bilirdi. Nəhv elmini Əbüləsvəd Duəlidən öyrənmişdir. Adını çəkdiyimiz Yəhya əhli-beyti başqalarından üstün tutanlardan idi”.[170]

–Dəmiri İbn Xəlkandan nəql edərək belə deyir: “Yəhya bin Yəmur tabeinlərdən idi. Qurani-kərim və nəhv elminin bilicisi idi. O, ilk şiələrdəndir. Onun şiəliyi yaxşı şiəlikdir. Səhabələrdən heç kimin fəzilətini inkar etmədən əhli-beyti üstün tuturdu”.[171]

– Zərkəli deyir: “Başqalarının fəzilətini azaltmadan əhli-beytə məhəbbət bəsləyirdi”.[172]

– İbn Səmun deyir: “O, ilk şiələrdən idi. Onun şiəliyi gözəl şiəlik idi. Səhabələrdən – Allah onlardan razı olsun – heç kimin fəzilətini kiçiltmədən əhli-beytin üstün olmasını deyirdi”.[173]

Şiə alimlərindən bir çoxları da onu şiələrdən hesab etmişdir. Onlardan bəzilərini aşağıda qeyd edirik:

– Muhəmməd bin Süleyman Kufi Həccacla onun əhvalatını bu ünvan altında qeyd etmişdir: “Şiənin fəqihi Yəhya bin Yəmurun Həsən və Hüseynin Rəsulullahın (s) övladları olmasına Qurani-kərimdən muhkəm ayə ilə dəlil gətirməsi...”[174]

–Həsən Sədr Fununul-islam kitabında onu şiələrdən hesab etmiş və onun şiə olmasında hamının ittifaq etdiyini demişdir.[175]

---

[169] Mucəmul-udəba, c. 20, s. 43.

[170] Miratul-cinan və ibrətul-yəqzan, c. 1, s. 212, 213.

[171] Həyatul-heyvanil-kubra, c. 1, s. 191.

[172] əl-Əlam, c. 8, s. 177.

[173] Əmali İbn Səmun, c. 1, s. 127.

[174] Mənaqibul-imam Əmirəlmöminin (ə), c. 2, s. 224.

[175] Fununul-islam, s. 33.

– Əhməd Miyanəci (onun şiəliyini sübut etmək üçün) Məvaqifuş-şiə kitabında onun Həccacla olan əhvalatını dəlil gətirmişdir.[176]

**Yeddinci mövzu: Əbu Əmr bin Əla (vəfatı: 157 h.q.)**

Şiə məzhəbinin bəzi alimləri Əbu Əmr bin Əlanı şiə olan yeddi qaridən biri hesab etmişdir. Lakin mən buna heç bir dəlil tapmadım.[177]

Zəhəbi onun tərcümeyi-halını qeyd edərək deyir: "Əbu Əmr bin Əla Mazni. Qari, nəhv alimi. Bəsrəli imam. Bəsrə əhlinin qarisi idi. Onun adının Zəban olması daha doğrudur. Bəsrədə Yəhya bin Yəmura qiraətini təqdim etmişdir... İbrahim Hərbi və başqaları belə demişlər: "Əbu Əmr əhli sünnədən idi..."[178]

Onun hüzurlarında dərs oxuduğu və onlardan elm öyrəndiyi çoxlu sayda şeyxlərinin adları qeyd edilmişdir. Həmin şeyxlərin bəziləri Asim, Səid bin Cübeyr və Yəhya bin Yəmur kimi şiə alimlərindən olmuşdur.[179]

Əbu Əmr bin Əla nəhv elmində şiə olan Əbüləsvəd Duəliyə müraciət edirdi. O isə bu elmi İmam Əlidən (ə) öyrənmişdir. Şiə alimlərinin qiraət və ərəb dili elmində onu üzərində böyük haqları vardı.

Əbülhəsən Qafti belə deyir: "Bütün Misir əhalisi nəql və təshihdən sonra nəhv elminin əsasını Əli bin Əbu Talibin – Allah ondan razı olsun – qoyduğunu deyirlər. Ondan isə bu elmi Əbüləsvəd Duəli öyrənmişdir. Əbüləsvəd Duəlidən isə Nəsr bin Asim Bəsri öyrənmişdir. Nəsrdən isə bu elmi Əbu Əmr bin Əla Bəsri öyrənmişdir..."[180]

---

176 Məvaqifuş-şiə, c. 1, s. 69, 70.

177 Şeyx Tehrani, əz-Zəriə, c. 1, s. 467, 468; Şeyx Məhəmməd Hadi Mərifət, ət-Təmhid fi ulumil-Quran, c. 2, s. 228.

178 Mərifətul-qurrail-kibar alət-təbəqat vəl-əsar, c. 1, s. 58, 62. Həmçinin bax; Siyəru əlamun-nubəla, c. 6, s. 408.

179 Bax; İbn Cəzəri, Ğayətun-nihayə fi təbəqatil-qurra, c. 1, s. 288, 289; Siyəru əlamun-nubəla, c. 6, s. 408; ət-Təhsil li ulumit-tənzil, c. 1, s. 53, 54.

180 İnbahur-ruvat alə ənbain-nuhat, c. 1, s. 41.

Növbəti fəsildə Əbüləsvəd Duəlinin şiə olması və nəhv elmini əsasını qoyması barədə bəhs edəcəyik.

## Üçüncü fəsil

## Nəhv elminin yaradılması, quran hərflərinin üzərində nöqtələrin qoyulması və hərəkələnməsi məsələsində şiələrin rolu

### Birinci mövzu: Nəhv elminin yaradılması

Şübhəsiz ki, nəhv elmi və onun qaydaları Quran və hədisdən qaynaqlanan şəriət elmlərini öyrənmək üçün olduqca zəruridir. Bu elm olmadan heç bir şəxs düzgün formada ərəb dilində danışıb, oxuyub və yaza bilməz. Məhz buna əsasən də nəhv elmi islam aləmindəki bütün şəriət məktəblərində, universitetlərində və elmi hövzələrdə tədris olunur. Əgər nəhv elmi olmasaydı Qurani-kərim və sünnənin dərk olunmasına əsas olan ərəb dilinin taleyi necə olardı?

Tarixçilərin və dilçi alimlərin əksəriyyəti nəhv elminin banisinin İmam Əli (ə)- olduğunu vurğulayırlar. Onun şagirdi Əbüləsvəd Duəli (vəfat tarixi 69 h.q.) bu elmi ondan öyrənmişdir.

Əbulbərakat Ənbari deyir: “Əbu Hatəm Sicistani belə nəql edir: “Əbüləsvəd cahiliyyət dövründə dünyaya gəlmişdir. O, nəhv elmini Əli bin Əbu Talibdən – Allah ondan razı olsun – öyrənmişdir”. Əbu Səlmə Musa bin İsmail atasından belə nəql edir: “Əbüləsvəd Bəsrədə nəhv elminin əsasını qoyan ilk şəxs olmuşdur”. Bəziləri iddia edir ki, nəhv elminin əsasını Əbdürrəhman bin Hurmuz əl-Ərəc qoymuşdur. Başqaları isə nəhvin banisinin Nəsr bin Asim olduğunu demişlər. Əbdürrəhman bin Hurmuz Ərəcin və Nəsr bin Asimin nəhv elminin əsasını qoymasını deyənlərin iddiası doğru deyil. Çünki Əbdürrəhman nəhv elmini Əbüləsvəd Duəlidən öyrənmişdir. Nəsr bin Asim də Əbüləsvəddən öyrənmişdir. Məymun Əqranın belə dediyi nəql olunur: “Doğrusu budur ki, nəhv elminin əsasını Əli bin Əbu Talib – Allah ondan razı olsun – qoymuşdur. Çünki bütün rəvayətlər Əbüləsvədə istinad edilir. Əbüləsvəd

isə Əli bin Əbu Talibə - Allah ondan razı olsun – istinad edir. Əbüləsvəddən belə nəql olunur: Ona: “Bu nəhv sənə hardandır?” –deyə soruşmuşlar. O da belə cavab vermişdir: “Onun hududlarını Əli bin Əbu Talibdən – Allah ondan razı olsun – öyrənmişəm”.[181]

İbn Teymiyyə deyir: “Əbüləsvəd Duəli və ya Deyli. Onun adı Zalim bin Əmr bin Sufyandır. Bəni Udəy bin Deyl tayfasındandır. Bəsrəlidir. Əli bin Əbu Talibin – Allah ondan razı olsun – əmri ilə nəhv elminin əsasını qoymuşdur. Deyilənə görə o, Peyğəmbərin (s) zamanında İslam dinini qəbul etmişdi. Cəməl döyüşündə Əli ilə birlikdə döyüşmüşdür. Onun dindar, ağıllı, natiq, gözəl bəyana sahib, zəkalı və iradəli bir şəxs olduğunu demişlər. O, etibarlı tabeinlərdəndir”.[182]

Zəhəbi Əbüləsvəd Duəlinin tərcümeyi-halı barədə belə deyir: “Əbüləsvəd Cəməl döyüşündə Əli bin Əbu Talib ilə birlikdə döyüşmüşdür. O, şiələrin böyüklərindən, ağıl və düşüncə baxımında onların ən kamili idi. Əli – Allah ondan razı olsun– ərəb dilində ləhn (səhv) ilə qarşılaşdıqda ona nəhv elminin əsasını qoymağı əmr etdi... Muhəmməd bin Səlam Cəmhi belə deyir: “Əbüləsvəd fail və məful babının, muzaf, rəf, nəsb, cərr və cəzm hərflərinin əsasını qoyan ilk şəxsdir. Yəhya bin Yəmur bu elmi ondan öyrənmişdir”. Əbu Übeydə deyir: “Əbüləsvəd ərəb dilini (qrammatikasını) Əlidən öyrənmişdir”... Əbüləsvəd belə nəql edir: “Bir gün Əlinin yanına gəldim. Onun başını aşağı salıb düşündüyünü gördüm. “Nə barədə düşünürsən, ey əmirəlmöminin?” – deyə ondan soruşdum. (İmam) dedi: “Sizin şəhərinizdə ləhn (ərəb dilində səhv) ilə qarşılaşdım. Ərəb dilinin əsasları barədə bir şey yazmaq istəyirəm”. Mən dedim: “Əgər bunu etsən bizə həyat vermiş olarsan”. Bir neçə gündən sonra onun yanına gəldim. Mənə bir səhifə verdi. Həmin səhifədə yazılmışdı: “Bütün kəlamlar (sözlər) isim, fel və hərfdir (ədat, bağlayıcı). İsim adlanan barədə xəbər verəndir.

[181] Nuzhətul-əlba fi təbəqatil-udəba, c. 1, s. 21, 22.

[182] İqtizaus-siratil-mustəqim li muxaləfəti əshabil-cəhim, c. 1, s. 292.

Feil – adlananın hərəkəti barədə xəbər verəndir, “hərf” isə isim və feil olmayan mənanı bildirir”. Sonra mənə belə dedi: “Buna tabe olaraq əlavələr et!” Mən bəzi şeylər də yazdıqdan sonra yazdıqlarımı ona təqdim etdim”.[183]

İbn Covzi onun barəsində belə demişdir: “O, nəhv elminin əsasını qoyan ilk şəxsdir”.[184]

İbn Xalkan belə deyir: “Əbu Ubeydullah Mərzbani “əl-Muqtəbəs fi əxbarin-nəhviyyin” kitabında yazır ki, Mubərrəd belə demişdir: “Dil alimlərinin hamısı icma etmişlər ki, ərəb dilinin qaydalarının əsasını Əbüləsvəd Duəli qoymuşdur. O, bu qaydaları Əli bin Əbu Talibdən – Allah ondan razı olsun – öyrənmişdir”.[185]

Ola bilər ki, bəziləri Əbüləsvədin şiə olmasını onun yalnız Əlini Osmandan üstün hesab etməsindən ibarət olduğunu desinlər. Bu söz dəqiq deyil. Əksinə o, Əlinin vəsi olmasını deyən rafizi idi. Bu isə məhz şiə əqidəsidir.

İbn Səd deyir: “O, şiə əqidəsində olan şair idi. Hədisində etibarlı idi”.[186]

Cahiz deyir: “Əbüləsvəd Duəli. Onun adı Zalim bin Əmr bin Cəndəl bin Sufyandır. Xətib və alim idi. O, özündə ağılın gücünü, doğru rəyi, gözəl bəyanı və şeiri cəm etmişdi. O, şiələrdən hesab olunur”.[187]

Həmçinin demişdir: “O, nəhv elmində insanların rəisi və şiələrin şeyxlərindən idi...”[188]

Muhəmməd bin Səlam deyir: “O, ələvi (Əli tərəfdarları) düşüncəsində idi”.[189]

---

[183] Siyəru əlamun-nubəla, c. 4, s. 81, 86.

[184] əl-Muntəzəm fi tarixil-uməmi vəl-muluk, c. 6, s. 96.

[185] Vəfiyyatl-əyan və ənbau əbnaiz-zəman, c. 6, s. 392.

[186] ət-Təbəqatul-kubra, c. 7, s. 99.

[187] ət-Tibyan vət-təbyin, s. 171, 172.

[188] əl-Bursan vəl-Urcan vəl-umyan vəl-həvlan, s. 437.

İbn Əsakir belə deyir: “Əbüləsvəd Duəli Bəni Quşeyrin qonşusu və onların yeznəsi idi. Əbüləsvəd sözləri ilə onları qəzəbləndirirdi. Onlar Əbüləsvədin sözlərini qəbul etmirdilər. O, Əli bin Əbu Talibi çox sevirdi. Lakin qövm ona çox əziyyət verirdi. Onun adı Əmr bin Sufyan idi. Qövmünə cavab olaraq belə demişdir:

Bəni Quşeyr rəzilləri deyirlər ki, ömür boyu Əlini unutmur!

Onlara deyirəm: Əlinin etdiyi əməlləri necə tərk edim?

Muhəmmədi, Abbası, Həmzəni və vəsiyyət olunanı çox sevirəm,

Onlar Peyğəmbərin əmisi övladları və insanlar içərisində ona ən yaxın olanlardır.

Əgər onları sevmək hidayətdirsə, mən bu hidayətə qovuşmuşam.

Onlar ixlas və səmimiyyət əhli və sağ olduqca dadıma çatanlardır.

Qiyamət gününədək onları Allah sevgisi ilə sevəcəm.

Hər şeyi yaradan Allahın yaratdıqlarını hidayət etdiyini görmüşəm

Məhz buna görə də onlardan peyğəmbər seçmişdir.

(Şeirin məzmununun tərcüməsi).

Həmçinin deyir: “Əbüləsvəd Duəli Bəni Quşeyr tayfasının yanına gəlib gedərdi. Onlar Osman tərəfdarları idi. Əbüləsvəd isə Əli tərəfdarı idi. Bəni Quşeyr onunla pis davranır, ona əziyyət verir və gecənin qaranlığında onu daşa basırdılar. Onlara etiraz etdikdə isə belə deyirdilər. “Biz səni daşlamırıq, səni Allah daşlayır”. (Əbüləsvəd) onlara dedi: “Yalan deyirsiniz. Siz məni daşlayanda bəzən daşlarınız məndən yan keçir. Əgər Allah məni daşlasaydı yan keçməzdi”. Bundan sonra onların yanında Huzey tayfasının yanına köçdü. Onlar barəsində isə belə demişdir:

“Əlini söydülər onları çəkindirə bilmədim. Onlara çox söz dedim.

Allah bilir ki, Peyğəmbərin övladlarına və hidayət imamına sevgim doğrudur.

---

[189] Təbəqatu fuhuliş-şuəra, c. 1, s. 12.

Bu beytləri bir çoxları sənədini qeyd etmədən Əbüləsvəd Duəlinin şeirlərindən olduğunu bildirmişlər. Həmin beytlərdə Əbüləsvəd Əlini Peyğəmbər tərəfindən təyin olunduğuna işarə etmişdir.[190]

Bəziləri Qəfti Misri kimi bu şeiri qeyd etdikdə "Muhəmmədi, Abbası, Həmzəni və vəsiyyət olunanı çox sevirəm" misrasından sonra bu beyti də əlavə etmişlər:

Cəfəri də! Həqiqətən Cəfər Cənnətdə ən xeyirli mühacirlərdəndir.

Onlar Peyğəmbərin əmisi övladları və insanlar içərisində ona ən yaxın olanlardır.[191]

Bu beytlərdə Əbüləsvəd Peyğəmbəri (s), vəsini (xilafətin vəsiyyət olunduğu şəxs – İmam Əli) və onların bəzi qohumlarını bütün insanlardan üstün hesab edir. Bu isə şiə əqidəsilə uyğundur.

Səfdi deyir: "Deyilənə görə o, Quranı (hərflərini) nöqtələyən və nəhv elminin əsasını qoyan ilk şəxsdir. O, tabein, şiə, şair və nəhv alimi idi... Abdullah bin Abbas Bəsrədən çıxarkən Əbüləsvədi öz yerinə təyin etmiş və Əli bin Əbu Talib də təsdiqləmişdir. Cəməl döyüşündə Əli ilə birlikdə vuruşmuşdur. Bundan sonra İbn Abbas onu Bəsrəyə öz yerinə vali təyin edirdi. O, Əli və övladlarını çox sevənlərdən idi".[192]

Əbu Abdullah bin Cərrah deyir: "Əli bin Əbu Talib (ə) onu Abdullah bin Abbasın yerinə Bəsrəyə vali təyin etmişdir. Onun şiəsi idi və ona meyl edirdi. Ölənədək onun üstün olmasını deyirdi".[193]

Cəlaləddin Süyuti deyir: "İnsanlar nəhv elmini tanıdan ilk şəxs Əbüləsvəd Duəli olmuşdur. Əbüləsvəd Duəli bu elmi Əmirəlmöminin Əli

---

190 Təfsiri Təbəri, c. 1, s. 362; Təfsiri Səmani, c. 4. S. 332; Təfsiri İbn Kəsir, c. 1, s. 306; İbn Covzi, "əl-Muntəzəm fi tarixil-uməmi vəl-muluk", c. 6, s. 96; Əbülməhasin Novbəxti, "Tarixul-ulamain-nəhviyyin", s. 169; əl-Kamil fil-luğəti vəl-ədəb, s. 285 və s.

191 İnbahur-ruvat alə ənbain-nuhat, c. 1, s. 52.

192 əl-Vafi bil-vəfiyyat, c. 16, s. 305, 306.

193Mən ismuhu minəş-şüəra, c. 1, s. 16.

bin Əbu Talibdən – Allah ondan razı olsun – öyrənmişdir. O, ərəb dilində insanların ən biliklisi idi. Deyilənə görə o, bütün ərəb ləhcələrində cavab verə bilirdi".

Əbüləsvəd Qurani-kərimin hərflərinə nöqtə qoyan ilk şəxsdir. İnsanlar Əbüləsvəddən ərəb dilini öyrənmək üçün onun yanına gedib-gəlirdilər. Çoxları ondan nəhv elmini öyrənmişdir. Əbu Hatəm deyir: "Oğlu Əta bin Əbüləsvəd, sonra Yəhya bin Yəmur Ədvani ondan nəhv öyrənmişdir. O, bəlağət və fəsahətdə alim idi… Davud bin Zəbərqan Qətadənin onun haqqında belə demişdir: "Əbüləsvəddən sonra Yəhya bin Yəmur nəhv elminin əsaslarını qoymuşdur".[194]

Əbülhəsən Qətfi belə nəql edir: "Bütün Misir əhalisi nəql və təshihdən sonra nəhv elminin əsasını Əli bin Əbu Talibin – Allah ondan razı olsun – qoyduğunu deyirlər. Ondan isə bu elmi Əbüləsvəd Duəli öyrənmişdir. Əbüləsvəd Duəlidən isə Nəsr bin Asim Bəsri öyrənmişdir. Nəsrdən isə bu elmi Əbu Əmr bin Əla Bəsri öyrənmişdir..."[195]

Şeyx Muhəmməd Tantavi onun barəsində deyir: "O, Zalim bin Əmrdir. Kənanə qəbiləsinin Duəl tayfasındandır. Tabeinlərin başçılarından idi. Bəsrəyə gəlmiş… Əliyə – Allah ondan razı olsun – meyl etdiyi məlum olduqda Bəni Üməyyənin əlaltılarından və gecə onu daşa basan qohumlarından çox əziyyətlər çəkmişdi".[196]

Doktor Cavad Əli deyir: "Qeyd etmək lazımdır ki, nəhv elminin yaranmasını "ənnalahə bəriun minəlmuşrikinə və rəsuluhu"[197] ayəsinin səhv oxunması ilə əlaqələndirirlər. Nəhv alimləri ayənin hansı dövrdə səhf oxunması barədə ixtilaf etmişlər. Bəzilər bu hadisənin Ömərin zamanında, bəziləri Əlinin zamanında bəziləri isə Ziyad bin Əbihin zamanında baş

---

[194] əl-Məzhər fi ulumil-luğəti və ənvauha, c2, s. 314, 342.

[195] İnbahur-ruvat alə ənbain-nuhat, c. 1, s. 41.

[196] Nəşətun-nəhv və tarixi əşhərin-nuhat, c. 1, s. 58.

[197] Tövbə surəsi, ayə 2.

verdiyini demişlər. Sən bu məsələdə bir rəvayətlər rastlaşırsan, lakin üç müxtəlif zamana nisbət verildiyini görürsən. İslam rəvayət qaynaqlarına müraciət etdikdən sonra bucür ixtilafın heç də qəribə olmadığını anlayırsan. Bu kimi çoxlu sayda nümunələrə rast gəlirik. Belə məlum olur ki, ravilər rəvayəti təhrif etmişlər. Hər kəs baş vermiş hadisəni müəyyən məqsədə görə təhrif edərək istədiyi zamana nisbət vermişdir. Əhməd Əmin nəhv elminin Əbüləsvəd Duəliyə nisbət verilməsi rəyini üstün tutaraq belə deyir: "Mənə elə gəlir ki, nəhv elmini Əbüləsvəd Duəliyə nisbət verilməsinin doğru əsasları var. Çünki ravilər az qala bu işi Əbüləsvədin etməsində və Quranı hərəkələməsi məsələsində müttəfiqdirlər. Məlumdur ki, bu nəhv yolunda atılmış ilk addımdır. Nəhv elminin yaranması qanuni ilə uyğunlaşır. Belə bir addımın Əbüləsvəd tərəfindən atılması mümkündür. Həmçinin aydındır ki, bu məsələ nəhv elminə nəzər diqqəti çəkir. Buna əsasən də kim Əbüləsvədin nəhv elminin əsasını qoymasını deyirsə bu kimi məsələləri nəzərdə tutmuşdur. O, Qurani-kərimin dəqiq oxunması, kəsrənin yerinə fəthə, fəthənin yerinə zəmmə olmaması üçün qaydalar tərtib etmişdir. Bundan sonra isə nəhv elmini daha dəqiq mənada anlayanlar ortaya çıxdılar. Kəliməni isim, fel və hərfə və ədata böldülər..."[198]

Qəribədir ki, Əbdülbaqir Bağdadi "əl-Fərq beynəl-firəq" kitabında, səh. 323-də heç bir dəlil olmadan Əbüləsvədi əhli-sünnədən hesab edir. Halbuki bəyan etdiyimiz kimi dəlillər onun sözünün əksini isbat edir.

### İkinci mövzu: Xəlil Fərahidi və onun şiə olması

Zəhəbi deyir: "İmam, ərəb dilinin bilicisi, əruz elminin yaradıcısı Əbu Əbdürrəhman Xəlil bin Əhməd Fərahidi Bəsri. Böyük alimlərdən biridir. Ərəb dilində öndə olanlardan idi. Dindar, təqvalı, qənaətcil, təvazökar və məqamı uca idi. Deyilənə görə o, Allahdan heç kəsin sahib olmadığı elm

[198] əl-Məfsəl fi tarixil-ərəb qəbləl-islam, c. 17, s. 45, 46.

istəmişdir. Allah da ona əruz elmini bəxş etmişdir. Onun ərəb dili qramatikasında "əl-Eyn" adlı bir kitabı var!"[199]

İbn Həcər deyir: "Xəlil bin Əhməd Əzdi əl-Fərahidi. Həmçinin ona Bahili də deyilir. Əbu Əbdürrəhman Bəsri. Əruz elminin yaradıcısı və "əl-Eyn" kitabının müəllifi..."[200]

İbn Covzi əl-Muntəzəm kitabında deyir: "Sovri belə nəql edir: "Hər bir tərəfdən gələn ədiblər Məkkədə cəm olduq. İmriul-qeysi xatırladıq. Hər bir məmləkətin əhli öz alimlərini yüksək tutur və onları vəsf edirdilər. Sonda Xəlil də xatırlandı. Orada olanlardan heç bir adam qalmadı ki, belə deməsin: "Xəlil ərəblərin ən zəkalısıdır. O, elmlərin açarı və çıxış yeridir". Nəsr bin Əli Cəhzəmi atasında belə nəql edir: "Xəlil insanların ən zahidi, ən izzətlisi və iffətlisi idi. Mülk sahibləri ona öz tutur, onunla əlaqə qururdular ki, onlardan bir şey əldə etsin. Lakin o heç bir şey etmirdi. Atasından qalan bir bağda yaşayırdı".[201]

Xəlil banisi olduğu əruz elmini Əhli-beyt imamlarından (ə) öyrənmişdir. Əbu Hatəm Razi "əz-Zinətu fil-kəlimatil-islamiyyə vəl-ərəbiyyə" kitabında bu həqiqəti vurğulamışdır. Doktor İbrahim Ənis bu kitabın müqəddiməsində səh. 10-11-də bu kitab barəsində belə deyir: "Həmin əsrlərdə yaşamış müəlliflər onu müraciət olunan qapı hesab etmiş, orada yazılanları etibarlı saymış və ondan sonrakı əsrlər üçün isə bu kitab tədqiqatçıların etimad etdiyi mənbə olmuşdur".

Əbu Hatəm bin Həmdan Razi adı çəkilən kitabında belə deyir: "Xəlil bin Əhməd əruz elmi barədə danışan ilk şəxsdir. O, əruz və nəhv elmində elə şeylər istinbat etmişdir ki, ondan öncə heç kim bunu edə bilməmişdir. Bəzi elm əhlinin Xəlil bin Əhməd əruzu Muhəmməd bin Əlinin səhabələrindən və ya Əli bin Hüseynin (ə) səhabələrindən olan bir nəfərdən öyrəndiyini

[199] Siyər əlamun-nubəla, c. 7, s. 429, 430.

[200] Təhzibut-təhzib, c. 3, s. 141.

[201] əl-Muntəzəm fi tarixil-uməmi vəl-muluk, c. 7, s. 280, 281.

dediklərini eşitdim. Həmin şəxs onun üçün əsaslar təyin etmiş, şeiri qisimlərə bölmüş və əruz adlandırmışdır”.[202]

İbn Şəhru Aşubun əl-Mənaqib kitabında belə deyilir: “Nəql olunur ki, Xəlil bin Əhməd əruzun ölçülərini Muhəmməd Baqirin və ya Əli bin Hüseyinin səhabələrindən olan bir şəxsdən öyrənmişdir. Bunun üçün bəzi əsaslar təyin etmişdir”.[203]

Şiə alimləri icma etmişlər ki, Xəlil bin Əhməd Fərahidi şiə məzhəbinə mənsub olmuşdur. Şübhəsiz ki, hər bir məzhəb öz ardıcıllarını daha yaxşı tanıyır. Aşağıda bu şəxsin şiə olmasının dəlillərini və şiə kitablarında qeyd olunmuş tərcümeyi-halı barədə bəzi məqamları qeyd edirik:

– Xəlil bin Əhməd şiə məzhəbinin müdafiəsi məqsədilə bir kitab yazmışdır. Şeyx Nəcaşi Muhəmməd bin Cəfər bin Muhəmməd Əbülfəth Həmdani Vadi Marağinin tərcümeyi-halı barədə danışarkən belə deyir: “Bağdad şəhərində nəhv və lüğət elmində tanınmış şəxs idi. Bildiyim qədər gözəl hafizəli və səhih hədis nəql edən idi. O, kəlam elmini də bilirdi. Əbülhəsən Simsimi onun xidmətçilərindən biri olmuşdur. Onun “Muxtarul-əxbar” adlı bir kitabı, İmamət barədə Xəlilin kitabı vardı”.[204]

Məraği adı çəkilən kitabında Xəlil bin Əhmədin kitabını nəql etmiş və onun kitabını tamamlamışdır. Şeyx Tehrani əz-Zəriə kitabında Xəlil bin Əhmədin “Kitabul-imamə” adlı kitabını qeyd edərkən belə deyir: “Nəhv, lüğət və əruz alimi Movla Əbu Səfa Xəlil bin Əhməd Bəsrinin əl-İmamə” kitabı. Hicri 160 və ya 170 və ya 175-ci ilində vəfat etmişdir. İmam Cəfər Sadiqin (ə) səhabələrindən idi. O, “əl-Eyn” kitabında ilk dəfə hərflərin sırasına uyğun olaraq sözlər tərtib etmişdir. Nəhv elminin qaydalarını tədqiq etmiş, bu sahədə kitab yazmış və əruz elmini beş dairə və on beş bəhr olaraq əsasını qoymuşdur. əl-Xuləsə və ər-Riyaz kitabında şiə olduğu

---

[202] əz-Zinətu fil-kəlimatil-islamiyyətil-ərəbiyyə, s. 80.

[203] Mənaqibu Ali Əbu Talib, c. 1, s. 326.

[204] Fihrəstu əsmai musənnifi əş-şiə, s. 394.

bəyan edilmişdir. Onun əl-İmamə kitabını Əbülfəth Muhəmməd bin Cəfər Məraği (vəfat tarixi 371 h.) tamamlamışdır”.[205]

–Əllamə Hilli deyir: “Xəlil bin Əhməd ədəbiyyatda ən üstün şəxs idi. Onun sözü höccət idi. O, əruz elmini yaratmışdır. Onun üstünlüyü sadalanmaqdan da məşhurdur. O, şiə məzhəbində idi”.[206]

– İbn Davud Hilli deyir: “Xəlil bin Əhməd ədəbiyyat elmlərində insanların şeyxi idi. Onun fəziləti və zahidliyi çox məşhur idi. O, şiə məzhəbində idi”.[207]

– Seyid Həsən Sədr deyir: “Şübhəsiz ki, Xəlil şiə idi”.[208]

– Seyid Möhsin Əmin deyir: “Xülasə olaraq alimlərin onun barəsində belədir: “Xəlil bin Əhməd ədəbiyyatda ən üstün şəxs idi. Onun sözü höccət idi. O, əruz elmini yaratmışdır. Onun üstünlüyü sadalanmaqdan da məşhurdur. O, şiə məzhəbində idi. İbn İdris “Mustətrəfatus-sərair” kitabında onu bizim böyük səhabələrimizdən (şiələrimizdən) hesab etmişdir. Lakin onu Xəlil bin İbrahim bin Əhməd Əruzi adlandırmışdır. Riyazul-uləma kitabında belə deyilir: “Alimlərimizin dediklərinə əsasən Xəlil İmam Sadiqin səhabələrindən olmuş və ondan hədis nəql etmişdir. O, şiə məzhəbində idi. Mövlamız Sadiqin, hətta Baqirin (ə) dövründə yaşamışdır. O, nəhv və lüğət elmində imam idi... Şeyx Bəhai Xülasə kitabının haşiyəsində onun İmam Sadiqin (ə) səhabələrindən olduğunu demişdir. Alimlərimizdən Kəfəmi belə demişdir: “Xəlil insanların ən zahidi və nəcibi idi. Zəngin insanlar ona üz turur, ona pul verirdilər. Lakin o, qəbul etmirdi. Ölənədək bir il həccə gedər bir ilə cihad edərdi”.[209]

---

[205] Ağa Bozorg Tehrani, əz-Zəriə, c. 2, s. 125, 126.

[206] Xuləsətul-əqval, s. 140.

[207] Ricalu İbn Davud, s. 89.

[208] əş-Şiə və fununul-islam, s. 104.

[209] Əyanuş-şiə, c. 6, s. 337.

– Şeyx Muhəmməd Hüseyn Kaşiful-ğita deyir: "Xəlil bin Əhməd Fərahidi Əzdi Bəsri. Nəhv alimi. Şiə məzhəbinə mənsub idi. Tanıdılmaqdan və ya tərcümeyi-halını yazmaqdan daha məşhurdur. Onun səsi hər tərəfə yayılmış və hüdudları aşmışdır".[210]

– Seyid Mərəşi Nəcəfi deyir: "Xəlil Əbüləsvəd kimi şiə idi. O, əruz elminin banisi və ilk mucəm (lüğtə kitabı) müəllifidir. Qaydalar əsasında nəhv elminin əsasını qoymuşdur".[211]

– Seyid Xoyi onun barəsində demişdir: "Xəlil nəhv və əruz alimi idi. Hilli Mustətrəfatus-sərair kitabında onu müctəhid səhabələrimizdən hesab etmişdir. Onu Xəlil bin İbrahim bin Əhməd adlandırmışdır... Amma o, Xəlil bin Əhməddir. Mubərrəddən nəql olunur ki, alimlər araşdırmışlar Peyğəmbərdən (s) sonra Xəlilin atasından əvvəl Əhməd adlı birinə rast gəlməmişlər. Atası zəka, elm və zöhddə o qədər böyük məqamda idi ki, Rəsulullahın (s) adı ilə adlanan ilk şəxs olmuşdur. Lakin Hilli Xəlilin atasının adının İbrahim olduğunu bəyan etmişdir. Doğrusunu Allah bilir. Deyilənə görə Xəlildən İmam Əlinin (ə) imamətinə dəlalət edən dəlil barədə soruşmuşlar. O isə belə cavab vermişdir: "Hamının ona möhtac olması, onun isə heç kəsə möhtac olmaması buna dəlildir".[212]

– Təfsir alimi Muhəmməd Hüseyn Təbətəbai deyir: "Lüğət elmində yazılan ilk kitab "əl-Eyn" kitabı olmuşdur. Bu kitabın müəllifi tanınmış şiə alim Xəlil bin Əhməd Bəsri olmuşdur. O, əruz elminin banisidir. Nəhv alimi Siybəveyhin ustadı olmuşdur".[213]

---

[210] Əsluş-şiə və usuluha, s. 344.

[211] Şərhu ihqaqul-haqq, s. 32, s. 82.

[212] Mucəmu ricalul-hədis, c. 8, s. 80, 81.

[213] əş-Şiə fil-islam, s. 82, 83.

– Tehrani deyir: “Cumәlul-irab” kitabı lüğәt imamı Әbu Әbdürrәhman Xәlil bin Әhmәd bin Әmr bin Tәmim Әzdi Bәsri. Şiә mәzhәbinә mәnsubdur”.[214]

– Şeyx Cәfәr Subhani deyir: “Xәlil bin Әhmәdin şiә olmasında heç kim şübhә etmir. O, hicri ikinci әsrin alimlәrindәndir...”[215]

Hәmçinin deyir: “Alimlәrimizdәn heç kim Xәlilin şiә olmasında şәkk etmәmişdir”.[216]

Xәlil bin Әhmәdin şiә olmasına vә şiә mәzhәbinә etiqad edәn Әbülәsvәd Duәlidәn nәhv elmini öyrәndiyini vә oğlu İbrahimin dә şiә olduğunu deyәnlәrdәn biri dә İbn Hәcәrdir. İbn Hәcәr belә deyir: “İbrahim bin Xәlil Fәrahidi şiә idi”.[217]

Sultanların övladlarına tәlim vә tәrbiyә vermәk üçün xahiş etdiklәri Xәlil kimi bir şәxsin öz övladına tәlim-tәrbiyә vermәmәsi mümkün deyil. Onun oğlunun şiә olması atasının tәlim-tәrbiyәsinin nәticәsi idi.

Şeyx Tusi belә nәql edir: “Nәhv alimi Yunis bin Hәbib – Osmanın tәrәfdarlarından idi – belә nәql edir: “Xәlil bin Әhmәdә dedim: “Mәnә gizlәtdiyin bir mәsәlә barәdә sәndәn soruşmaq istәyirәm. (Xәlil) dedi: “Sәnin sözlәrin sualın cavabdan daha qәliz olmasına dәlalәt edir. Sәn dә bunu gizli saxlamalısan”. Mәn dedim: “Bәli. Sәn yaşadıqca gizli saxlayacam”. (Xәlil) dedi: “Soruş”. Mәn dedim: “Necә olur ki, Rәsulullahın (s) sәhabәlәrinin hamısı sanki bir ananın övladlarıdır. Lakin Әli bin Әbu Talib onların arasında sanki yad övladıdır?” (Xәlil) dedi: “Bu sualı hardan çıxartdın?” Mәn dedim: “Mәnә cavab verәcәyini vәd etdin”. (Xәlil) dedi: “Sәn dә gizli saxlayacağına söz verdin”. Mәn dedim: “Sәn yaşadıqca gizli saxlayacam”. (Xәlil) dedi: Әli (ә) onların hamısından әvvәl İslamı qәbul

[214] әz-Zәriә, c. 5, s. 143.

[215] Әzvau alә әqaidiş-şiәtul-imamiyyә, s. 253.

[216] Rәsailu vә mәqalat, s. 78.

[217] Lisanul-mizan, c. 1, s. 55.

etmiş, elmdə onlardan üstün, şərəfdə onlardan uca, cihadda onlardan daha üstün, onlardan daha çox cihad etmiş biri idi. (Səhabələr) ona həsəd apardılar. İnsanlar onlardan üstün olanlardan daha çox özlərinə oxşar və bərabər olan birinə meyl edər. Bunu baş düş!”

### Üçüncü mövzu: Quran hərflərinin nöqtələnməsi və hərəkələnməsi

Qurani-kərim hərfləri nöqtəsiz və hərəkəsiz idi. Nəticədə Quranın oxunuşunda və ərəb dilində xətalar baş verirdi. Əbüləsvəd Duəli dilin və Quranın düzgün oxunuşunun zəruriliyini hiss edirdi. Bunun üçün o, nəhv elminin əsasını qoydu və Quranın hərflərini nöqtələdi. Onun ardınca Xəlil Fərahidi bu işi davam etdirdi. O, hərflərin üzərinə hərəkələr qoydu. Daha sonra Yəhya bin Yəmur və başqaları Əbüləsvəd Duəlinin yolu ilə getməyə başladılar.

Nəvəvi deyir: “Alimlər hamısı Quranı yazmağı (üzünü köçürməyi), məşəqqətə salmayacaq qədər gözəl və başa düşülən xətlə yazmağın müstəhəb olmasında müttəfiqdirlər. Alimlər belə deyiblər: “Quranı (hərflərini) nöqtələmək və hərəkələmək müstəhəbdir. Çünki bu, Quranı səhv və xəta oxunuşdan qoruyur. Şəbinin və Nəxəinin bu işi məkruh hesab etmələrinə gəlincə, onlar həmin dövrdə Quranın dəyişilməsindən qorxduqları üçün bu işi bəyənməmişlər. Bu gün isə bu işin heç bir qorxusu yoxdur. Bu işin sonradan yaranan olmasına görə ondan çəkinmək lazım deyil. Çünki bu iş gözəl bidətlərdəndir...”[218]

Ola bilsin ki, belə sual verilsin; Əgər Qurani-kərim nöqtəsiz və hərəkəsiz qalsaydı nə olardı? Nəinki əcəm, hətta ərəb olan müsəlman Quranı oxuya bilərdimi?

Şübhəsiz ki, Qurani-kərim barəsində təqdim edilən bu xidmət olduqca böyükdür. Səlahəddin Zəbilavi Quranın nöqtələnməsi barədə belə deyir: “Bu iş faydası kiçildiləcək dərəcədə asan bir iş deyil. Bu işin ərəb dilinə

---

[218] ət-Tibyan fi adabihəmələtil-quran, s. 189, 190.

böyük faydaları olmuşdur. Hərəkələr ərəb dilinə başqa şeylərdən daha çox fayda gətirdi. Ustad Əhməd Əmin – Allah ona rəhmət eləsin – Zuhal-İslam kitabında bu məsələyə işarə etmişdir. Ustad Səid Əfğani Usulun-nəhv kitabında bu işi dəstəkləyərək belə demişdir: “Hərəkələr mətnləri əzbərləmək üçün daha faydalıdır. Bəlkə də hərəkələrin yaradılması indiyədək ərəb dilinə təqdim edilmiş ən böyük xidmətdir”.[219]

Bəziləri deyirlər ki, Qurani-kərimin hərflərini nöqtələyən şəxs xəlifə Əbdülməlik bin Mərvanın əmri ilə Həccac olmuşdur. Doğrusu budur ki, nə Əbdülməlik, nə də Həccac özləri bu işi yerinə yetirməmişlər. Bu işi bu sahədə dərin biliklərə sahib olan şiə alimlər yerinə yetirmişlər. Buna əsasən də bu işi Həccaca və ya onun xəlifəsinə nisbət vermək əgər doğru olarsa, onlar tərəfindən əmr verilməsi baxımındandır. Qeyd etdiyimiz kimi Əbüləsvəd Duəli İmam Əlinin (ə) göstərişləri sayəsində nəhv elminin əsasını qoyarkən bu mövzuda hamıdan əvvəl işə başlamışdır.

Muhəmməd Əbdüləzim Zərqani deyir: “Quranın hərəkələnməsi: Quranın hərəkələnməsi onun nöqtələrinin qoyulması məsələsinin davamı olmuşdur. əl-Qamus kitabının müəllifi deyir: “Şəklul-kitab: Yəni şəkilləndirdi. Sanki ondan işkalı (şübhə və səhvi) aradan apardı. Sonralar “şəklun” sözü hərflərin hərəkəli və sukunlu olması xüsusunda işlədilmişdir. Hər iki məna arasındakı uyğunluq aydındır. Hər iki mənaya əsasən hərflər barədə şübhə və mübhəmlik aradan qalxır. Tarixçilərin rəyinə əsasən ilkin dövrlərdə ərəblər nəinki sözləri, hətta hərflərin yazılış formasında nöqtələrin qoyulmasını bilmirdilər. Onlar dillərinin təhrifdən salamat qalması, danışıq və danışıq üslublarının saflığı nəticəsində buna ehtiyac duymurdular. Lakin sonradan islama dininə yeni millətlər daxil oldular. Onların çox ərəb dilini bilməyən əcəmlər idi. Quranın dilinə əcəmilik daxil olmağa başladı. Deyilənə görə Əbüləsvəd Duəli bir qarinin

[219] Dirasatun fin-nəhv, c. 1, s. 6.

belə oxuduğunu eşitdi: **“Ənnallahə bəriun minəl muşrikinə və rəsulihi”.**[220] Ayədə “rəsuluhu” sözündə ləm hərfini kəsrə ilə oxumuşdu. Bu səhf Əbüləsvədi çox narahat etdi və belə dedi: “Zatı uca olan Allah heç vaxt rəsulundan uzaq olmaz”. Sona Bəsrənin valisi Ziyadın yanına getdi və ona “məndən istədiyini yerinə yetirməyə hazıram” dedi. Ziyad ondan tələb etmişdi ki, insanların Allahın kitabını bilmələri üçün müəyyən əlamətlər hazırlasın. O isə bu tələbə cavab verməkdə ləngiyirdi. Sonda baş vermiş bu hadisə ona bu tələbi qəbul etdirdi. Bundan sonra Əbüləsvəd uzun səylərdən sonra müəyyən əlamətlər təyin elədi. O, fəthənin əlaməti olaraq hərfin üstünə bir nöqtə, kəsrə əlaməti olaraq hərfin altına bir nöqtə, zəmmə əlaməti olaraq hərfin ortasına bir nöqtə, sukun əlaməti olaraq isə iki nöqtə yazdı. Bundan sonra insanlar onun üslubu ilə davam etməyə başladılar. Zaman keçdikcə yeni əlamətlər icad edərək bu işi daha da inkişaf etdirdilər. Təşdidlə oxunan hərflərin üzərinə kiçik qövs işarəsi, özündən əvvəlki hərfin hərəkəsinin fəthə, kəsrə və ya zəmmə olmasına uyğun olaraq birləşdirici əlifin üzərinə, ortasına və ya altına xətt çəkirdilər...”[221]

Əksər tarixçilərin və tədqiqatçıların rəyinə əsasən Əbüləsvəd Duəli, Xəlil Fərahidi və Yəhya bin Yəmur – onların[222] hamısı şiə olmuşdur – Quranın nöqtələnməsi və hərəkələnməsi işini yerinə yetirmişlər. Bəziləri Nəsr bin Asimi də onlara əlavə edir. Bu məsələni əks etdirən bəzi rəyləri aşağıda qeyd edirik:

---

[220] Bu ayə Tövbə surəsinin ikinci ayəsindən bir cümlədir. Ayənin mənası belədir: “Allah və Onun Peyğəmbəri müşriklərdən uzaqdırlar (onlarla heç bir əhd peymanları yoxdur”. Bu ayədə “rəsuluhu” sözü “rəsulihi”, yəni ləm hərfi kəsrə ilə oxunarsa məna dəyişərək belə olur: Allah Peyğəmbərindən və müşriklərdən uzaqdır.

[221] Mənahilul-irfan fi ulumil-Quran, c. 1, s. 407, 408.

[222] əl-Muhərrərul-vəciz fi təfsiril-kitabil-əziz, c. 1, s. 50.

–İbn Ətiyyə Əndəlusi deyir: “Zubeydi “ət-Təbəqat” kitabında Mubərrədə istinadən qeyd edir ki, Qurana nöqtələr qoyan ilk şəxs Əbüləsvəd Duəli olmuşdur. İbn Sirin qeyd edir ki, onda Yəhya bin Yəmurun nöqtələr qoyduğu bir Quran vardı. Əbülfərəc qeyd edir ki, Ziyad bin Əbu Süfyan Əbüləsvədə əmr etmişdir ki, Qurana nöqtələr əlavə etsin. Cahiz əl-Əmsa kitabında qeyd edir ki, Nəsr bin Asim Qurana nöqtələr əlavə edən ilk şəxs olmuşdur. Ona Nəsrul-huruf (hərflər Nəsri) deyilirdi”.

–Dani Harun bin Musadan belə nəql edir: “Quranın hərflərinə nöqtələr əlavə edən ilk şəxs Yəhya bin Yəmur olmuşdur”.[223]

Əbu Əmr Dani deyir: “Ehtimal olunur ki, Yəhya və Nəsr Bəsrə camaatı üçün Quranın hərflərinə nöqtələr əlavə edən ilk şəxslər olmuşlar. Onlar bu işi Əbüləsvəddən öyrənmişlər. Çünki o, bu işdə hamıdan öndə olmuş və bu işi hamıdan əvvəl başlamışdır. Rəvayətdə qeyd edildiyi kimi o, hərəkələri və tənvini icad etmişdir. Sonra Xəlil bin Əhməd həmzə, təşdid, işmam və vəqfi icad etmişdir. İnsanlar onlarn üslublarına tabe olmuş, bu üslub bütün şəhərlərdə yayılmış, hər dövrdə buna əməl olunmuşdur. Hər bir halda yalnız Allaha həmd olunar”.[224]

Daninin sözlərinə əasən Nəsr bin Asim nöqtələrin qoyulmasını Əbüləsvəddən götürmüşdür. Bu işdə fəzilət yenə də Əbüləsvədə aiddir.

Dani deyir: “Quranda nöqtələrin qoyulması, yazılması və əlamətlərin izahını ilk olaraq Xəlil bin Əhməd etmişdir. Ondan sonra bəzi nəhv alimləri və qariləri bu barədə yazmışlar. Onun qoyduğu qaydaya və üsluba tabe olmuşlar”.[225]

Həmçinin belə deyir: “Kitablarda olan hərəkələr Xəlilin icadıdır. Həmin hərəkələr hərflərin qurluşundan götürülmüşdür. Zəmmə kiçik vav hərfi formasındadır. Hərflərin üstündə yazılır ki, vav hərfi ilə qarışmasın. Kəsrə

[223] Nuqətul-mushəf, c. 1, s. 5.

[224] Nuqətul-mushəf, c. 1, s. 6.

[225] Həmin mənbə, c. 1, s. 9.

hərflərin altında yazılır və "yə" hərfindən götürülmüşdür. Fəthə isə hərflərin üstündə yazılır və əlif hərfindən götürülmüşdür".[226]

İbn Covzi deyir: "Quranın hərfləri üzərində nöqtə qoyan ilk şəxs Yəhya bin Yəmur olmuşdur".[227]

Əbu Hatəm Sicistani deyir: "Yəhya bin Yəmurun Quranında belə gördüm. O, Quranın hərfləri üzərində nöqtə qoyan ilk şəxs olmuşdur".[228]

Əhməd Qəlqəşəndi belə deyir: "Nəql olunur ki, Quranın hərfləri üzərində nöqtələr yazan və ərəb dilinin (qramatikasının) əsasını qoyan ilk şəxs Əmirəlmöminin Əlinin – Allah ondan razı olsun – təlimləri vasitəsilə Əbüləsvəd Duəli olmuşdur".[229]

Süyuti Əbüləsvəd Duəlinin tərcümeyi-halını qeyd edərkən belə deyir: "O, tabeinlərin böyüklərindən, düşüncə baxımından ən kamil və ağıl baxımından ən zəkalı şəxs idi. O, şiə və şair idi. Quranın hərflərinə nöqtələr əlavə edən ilk şəxs olmuşdur. Cahiz belə demişdir: "Əbüləsvəd alimlərin sırasından hesab olunur. O, bütün təbəqələrdə hamıdan öndədir. O, tabeinlərdən, fəqihlərdən, muhəddislərdən (hədis alimlərindən), şairlərdən, əşrafdan, igidlərdən, əmirlərdən, dahilərdən, nəhv alimlərindən, şiələrdən ... sayılır. Hicrətin 69-cu ilində taun xəstəliyindən vəfat etmişdir".[230]

Süyuti əl-Məzhər kitabında Əbutteybin belə dediyini nəql edir: "Əbüləsvəd Quranın hərfləri üzərində nöqtə qoyan ilk şəxsdir". İnsanlar ərəb dilini öyrənmək üçün Əbüləsvədin yanına gəlib gedirdilər. Onlara

---

[226] Həmin mənbə, c. 1, s. 7.

[227] Təlqihu fəhum əhlil-əsər fi uyunit-tarixi vəs-siyər, c 1, s. 337, 338.

[228] Əbu Həyyan Əndəlusi, "Təfsirul-bəhril-muhit", c. 5, s. 357; Əbu Həfs Hənbəli, "əl-Lubab fi ulumil-kitab", c. 11, s. 246.

[229] Subhul-əşa fi sinaətil-inşa, c. 3, s. 149.

[230] Buğyətul-vuat fi təbəqatil-luğəviyyin vən-nuhat, c. 2, s. 22, 23.

ərəb dilinin əsaslarını və qaydalarını öyrədirdi. İnsanlar ərəb dilinin qaydalarını ondan öyrənmişdir”.[231]

Zəhəbi Yəhya bin Yəmurun tərcümeyi-halından bəhs edərkən deyir: “O, Quranın hərfləri üzərində nöqtə qoyan ilk şəxsdir”.[232]

İbnKəsir Yəhya bin Yəmurun tərcümeyi-halını qeyd edərkən belə deyir: “O, Mərvin qazisi idi. O, Quranın hərfləri üzərində nöqtə qoyan ilk şəxsdir. O, insanların fəzilətlisi və alimi idi. Onun barəsində əhvalatlar və davranışlar nəql olunmuşdur. Ondan rəvayətlər nəql olunmuşdur. Fəsahətli şəxslərdən biri olmuşdur. Ərəb dilinin əsaslarnı Əbüləsvəd Duəlidən öyrənmişdir”.[233]

Yaqut Həməvi Əbüləsvədin tərcümeyi-halını qeyd edərkən belə deyir: “Əksəriyyətin rəyinə əsasən o, ərəb dilinin (qramatikasının) əsaslarını qoymuş və Quranın hərfləri üzərində nöqtə qoyan ilk şəxsdir”.[234]

İbn Həcər Əsqəlani Əbülabbas Mubərrəddən belə nəql edir: “Ərəb dilinin əsaslarını qoyan və Quranın hərflərinin üzərində nöqtələr əlavə edən ilk şəxs Əbüləsvəd olmuşdur. Əbüləsvəddən bu üslubu kimdən öyrənməsi barədə soruşmuşlar. Əli bin Əbu Talibdən öyrəndiyini demişdir”.[235]

Əhməd bin Faris Qəzvini Razi belə deyir: “Əgər bir şəxs desə ki, Əbüləsvəd ərəb dilinin əsasını qoyan ilk şəxsdir. Xəlil əruz elmi barədə danışan ilk şəxsdir. Ona belə cavab verilər: “Sənin dediklərini inkar etmirik. Əksinə deyirik ki, bu iki elm qədim zamandan olmuş və üzərindən

---

[231] əl-Məzhər fi ulumil-luğəti və ənvaiha, c. 2, s. 342.

[232] Mərifətul-qurrail-kibar alət-təbəqati vəl-əsar, c. 1, s. 37.

[233] əl-Bidayə vən-nihayə, c. 9, s. 88.

[234] Mucəmul-udəba, c. 12, s. 34.

[235] əl-İsabə, c. 3, s. 455, 456.

günlər keçmişdir. İnsanların bu barədə bilgiləri azalmışdı. Sonra bu iki imam bu iki elmi yenilədilər”.[236]

Yusif bin Təğri belə deyir: “Həmin ili Yəhya bin Yəmur Əbu Süleyman Leysi Bəsri vəfat etmişdir. O, qiraətlər və ərəb dilində alim idi. O, Quran hərfləri üzərində nöqtə qoyan ilk şəxsdir”.[237]

Şəmsəddin Səfarini Hənbəli belə deyir: “Qurani-kərimin hərflərinin üzərində nöqtə yazan ilk şəxs Əbüləsvəd Duəli – Allah ona rəhmət eləsin – olmuşdur. O, bunu Əbdülməlik bin Mərvanın əmri ilə etmişdir. Deyilənə görə Quran hərfləri üzərində nöqtə qoyan ilk şəxs Həsən Bəsri və Yəhya bin Yəmur olmuşdur...”

İmam və hədis hafizi İbn Covzi Muntəxəbul-muntəxəb kitabında belə deyir: “Quranın hərflərinin üzərinə nöqtə qoyan ilk şəxs Yəhya bin Yəmur olmuşdur. Ən doğrusunu Allah bilir”.[238]

Səfdi Əbüləsvəd barəsində belə deyir: “Deyilənə görə o, Quranın hərfləri üzərində nöqtələr qoyan şəxsdir. İnsanlar üçün nəhv elminin əsasını yaratmışdır. O, tabein, şiə, şair və nəhv alimi idi”.[239]

Əbuləşbal Həsən Zuheyri Səhih Müslimin şərhində belə deyir: “Yəhya bin Yəmurun özündən sonra gələn bütün alimlər üzərində üstünlüyü və lütfü var. Çünki o, Quran hərfləri üzərində nöqtələr qoymuşdur. O, dilçi, ədib, mühəddis, hafiz və etibarlı şəxs idi. Elm əhli onun barəsində çoxlu sözlər demişdir. Yəhya bin Yəmur Nəhv və lüğət elmini ustadı Əbüləsvəd Duəlidən öyrənmişdir. Deyilənə görə Quran hərflərinin üzərinə nöqtə qoyan ilk şəxs məhz elə Əbüləsvəd Duəlinin özü olmuşdur. Doğrusu isə bu işi Yəhya bin Yəmur etmişdir. O, bu işi Əbüləsvədin əmri ilə etmişdir. İş onu yerinə yetirənlə onu əmr edənə nisbət verilər. Necə ki, belə deyilir:

---

[236] əs-Sahibi fi fiqhil-ərəbiyyəti və məsailiha və sünənil-ərəbi fi kəlamiha, c. 1, s. 17.

[237] ən-Nucumuz-zahirə fi muluk Misir vəl-Qahirə, c. 1, s. 217.

[238] Ğəzaul-əlbab fi şərhi mənzumətil-adab, c. 1, s. 413.

[239] əl-Vafi bil-vəfiyyat, c. 16, s. 305, 306.

“Filankəs filan döyüşdə qalib gəldi”. Ola bilər ki, həmin şəxs döyüşməmiş və həmin döyüşdə heç bir zəhmət çəkməmişdir. Onun əsgərləri döyüşə qatılmış və qalib gəlmişlər. Amma qələbə ona nisbət verilir. Çünki bu döyüşün məsuliyyətini o daşıyır və o bu döyüşün baş verməsini əmr etmişdir. Əbüləsvəd Duəli Yəhya bin Yəmura Quranın hərfləri üzərində nöqtə qoymağı və hərəkələməyi əmr etmişdir. Quranın qədim əlyazmalarında yalnız hərflər yazılmışdır. Hərflərin üstündə, altında və ya ortasında nöqtə və hərəkə yoxdur. Sələflərin dövründə təşdid, fəthə, kəsrə, zəmmə və sükun hərəkələri olmamışdır. Qədim əlyazmalarda söz bir neçə cür oxunurdu. Bu isə bir çox insanların istər Quran, istərsə də hədis oxuyarkən səhf oxumaları ilə nəticələnirdi. Yəhya bin Yəmurun Allah-təaladan sonra özündən sonrakı insanlar üzərində minnət və lütfü vardı. Çünki o Allahın kitabınının oxunuşunu dəqiqləşdirmək üçün nöqtələr və hərəkələr icad etmişdir. O, çox bəlağətli dilçi idi. O, yaxşı işlərə əmr edir, pis əməllərdən çəkindirirdi”.[240]

Həmçinin belə deyir: “Qeyd etdik ki, Əbüləsvəd Duəli – Allah ona rəhmət etsin – Bəsrə imamlarından biri olmuşdur. Hətta o, Əli bin Əbu Talibin – Allah ondan razı olsun – əmrilə Quran hərflərinin üzərində nöqtələr və hərəkələri qoyan, yazılışını formalaşdıran ilk şəxs olmuşdur. O, tabeinlərin böyüklərindən və ərəb dili imamlarından olmuşdur. O, əruz elmini yaratmış və ərəb dilinin qaydalarının əsasını qoymuşdur. Bu onun böyük məqama sahib olmasına dəlalət edir. Kifayətdir ki, o Əli bin Əbu Talibin şagirdi olmuşdur”.[241]

Təfsir alimi Alusi deyir: “Yəhya bin Yəmur Quran hərfləri üzərində nöqtələr qoyan ilk şəxs olmuşdur”.[242]

---

[240] Şərhu Səhih Müslim, c. 75, s. 9.

[241] Şərhu usuli etiqadi əhlis-sünnə, c.43, s. 11.

[242] Təfsiri Alusi, c.13, s. 11.

Zərqani deyir: “Deyilənə görə Quran hərfləri üzərində nöqtə qoyan ilk şəxs Əbüləsvəd Duəli olmuşdur. İbn Sirində Yəhya bin Yəmurun nöqtələr əlavə etdiyi Quran vardı”.[243]

Doktor Cavad Əli deyir: “Rəvayətlərin əksəriyyətində qeyd edilir ki, ərəb xətti əvvəldə hərəkələrlə olmayıb. Hərəklər İslam dövründə olmuşdur: Hərəkələri Əbüləsvəd Duəli tərəfindən icad olunmuşdur. O, hərəkətlərin əvəzinə nöqtələrdən istifadə etmişdir. Ondan sonra Xəlil bin Əhməd Fərahidi nöqtələri başqa rəmzlərlə əvəz etmişdir”.[244]

Doktor Muhəmməd Səid Ramazan Buti deyir: “Mərhum Mustafa Sadiq Rafii dediyi kimi etibarlı ravilərin nəql etdiyi rəvayətlərdə qeyd edilir ki, Əli bin Əbu Talibin – Allah ondan razı olsun –tövsiyəsi ilə Əbüləsvəd Duəli nəhv elminin əsasını qoymuşdur. Ola bilər ki, nəhv elminin əsasını qoymaqla Quran xəttinin yaxşılaşdırılması ilə nə əlaqəsi var? – deyə soruşsunlar. Məgər Əbüləsvədin nəhv elminin banisi olması onun Quran xəttini düzəldən ilk şəxs olmasını tələb edirmi? Cavab budur: Etibarlı şəxslərin nəql etdikləri rəvayətlərin əksəriyyəti onun nəhv elminin əsasını qoymasının səbəbi Quran qiraətində xətaların yayılması ilə qarşılaşması və ya ona bu barədə deyilməsi olmuşdur. Həmçinin rəvayətlərin çoxu – Əbutteybin, İbn Nədimin və İbn Əsakirin nəql etdiyi rəvayət də həmin rəvayətlərdəndir –onun nəhv elminin əsasını qoyması ilə Quran hərflərinin üzərində nöqtələr qoyulmasının eyni vaxtda olduğuna işarə edir. Bəlkə də İbn Xəlakanın nəql etdiyi rəvayət həmin rəvayətlərin fərqli cəhətləri arasında ortaq məxrəc yaratmışdır. Həmin rəvayətdə deyilir: “Əbüləsvəd Duəli Əli bin Əbu Talibin ona verdiyi şeyi heç kimə göstərmirdi. (Nəhv elminin ilkin qaydaları yazılmış dəri səhifəni nəzərdə tutur). Sonda Ziyad bin Əbih – İraqın o vaxtkı valisi – ona əmr etdi ki, elə bir şey et ki, hamı ona əməl etsin və Allah-təalanın kitabı onunla tanınsın.

---

[243] Mənahilul-irfan fi ulumil-Quran, c. 1, s. 407.

[244] əl-Məfsəl fi tarixi-ərəbi qəbləl-islam, c. 8, s. 190.

Əbüləsvəd bu işi edə bilməyəcəyini bəhanə gətirib ondan bağışlanmasını dilədi. Sonra Əbüləsvəd bir şəxsin belə oxuduğunu eşitdi: **“Ənnallahə bərin minəl-muşrikinə və rəsulihi”.**[245] Öz-özünə dedi: “İnsanların bu vəziyyətə gəlib çıxacaqlarını güman etməzdim". Bundan sonra Ziyadın yanına qayıdaraq dedi: “Əmirin dediyini edərəm. Lakin mənə bacarıqlı bir katib ver ki, dediyim hər şeyi yazsın”. Əbdulqeys tayfasından olan bir katib təyin edildi. Lakin Əbüləsvəd onu qəbul etmədi. Sonra Ziyad ona başqa katib verdi. Əbüləsvəd ona dedi: “Hansı hərfi fəthə ilə tələffüz etsəm həmin hərfin üzərinə bir nöqtə qoy. Əgər zəmmə ilə tələffüz etsəm onun qarşısına nöqtə qoy. Əgər kəsrə ilə tələffüz etsəm onun altına nöqtə qoy. Belə də etdilər”. Əgər bu rəvayətə diqqət etsən – dediyimiz kimi bu rəvayət İbn Əsakirin, İbn Nədimin və Əbutteybin nəlq etdiyi rəvayətlər arasında ortaq məxrəci ifadə edir – Quranın oxunuşunu yaxşılaşdıran Əbüləsvəd Duəli olmuşdur. Lakin o, nöqtəli hərfləri nöqtəsiz hərflərdən fərqləndirmək məqsədində olmamışdır. Baxmayaraq ki, hərflərə əlavə edilmiş nöqtələrin vəzifəsi budur. Burada hərflərin nöqtələnməsi səhf oxunuşdan qorunmaq üçün fəthə, kəsrə və zəmmə əlamətləri vəzifəsini yerinə yetirirdi. Həmçinin məlum oldu ki, Əbüləsvəd Quranın hərflərinin üzərinə nöqtə qoymaqla nəhv elminin əsasını qoymuşdur. Onun nəhv elminin qaydalarını tərtib etməsi və Əli bin Əbu Talibin ona verdiyi yazını üzə çıxarması Quranın tilavətində səhf oxunuşu eşitməsi nəticəsində baş vermişdir. Bəlkə də bəzi rəvayətlərdə Yəhya bin Yəmurun (vəfat tarixi 129 h.) Quranının hərflərini nöqtələyən ilk şəxs olmasına, yaxud bu işin Nəsr bin Asim Leysi (vəfat tarixi 89 h.) tərəfindən yerinə yetirildiyinə rast gələ bilərsən. Əslində bu nəql etdiklərimizlə ziddiyyət yaratmır. Çünki Yəhya

---

[245] Tövbə surəsi, ayə 2. Ayənin mənası belədir: “Allah və Onun Peyğəmbəri müşriklərdən uzaqdırlar (onlarla heç bir əhd peymanları yoxdur”. Bu ayədə “rəsuluhu” sözü “rəsulihi”, yəni ləm hərfi kəsrə ilə oxunarsa məna dəyişərək belə olur: Allah Peyğəmbərindən və müşriklərdən uzaqdır.

bin Yəmur və Nəsr bin Asim, hər ikisi Əbüləsvəd Duəlinin şagirdləri olmuşlar".[246]

Doktor Subhi Saleh deyir: "Allahın kitabında nöqtələri qoyan və səbəblərini izah edən ilk şəxs Xəlil olmuşdur. O, həmçinin həmzə, təşdid, rom və işmam barədə danışan ilk şəxs olmuşdur".[247]

Doktor Muhəmməd Həbəş deyir: "Quranın şəklinin keçdiyi tarixi qiraət mərhələləri barədə uzun-uzadı danışmaq istəmirik. Bu mövzuda olduqca çox sayda araşdırmalar və nəql olunmuş çoxlu sayda rəvayətlər var. Nəticə olaraq deyirik ki, Qurani-kərimin hərəkələnməsi raşidi xəlifə Əli bin Əbu Talibin zamanında baş vermişdir. O, bu işi Əbüləsvəd Duəli və Yəhya bin Yəmur kimi nəhv elminin bəzi imamlarına həvalə etmişdir".[248]

Həmçinin demişdir: "Hal-hazırda hərflərin üzərində qoyulan hərəkələr Xəlil tərəfindən təyin edilmişdir. Bu üslub daha çox yayılmış və daha aydındır. Hamı ona əməl edir. Fəthə hərfin üzərində yazılan kiçik xətt formasındadır. Kəsrə isə hərfin altında yazılan kiçik xətt formasındadır. Zəmmə hərfin üzərində yazılan kiçik vav formasındadır. Tənvin isə qeyd olunanların təkrarı ilə göstərilir. Beləcə Qurani-kərimin oxunuşunun dəqiqləşdirilməsi iki mərhələ keçmişdir; sözün oxunuşu üçün hərflərin nöqtələnməsi, biz bunu hərəkə adlandırırıq. Bəzi hərflərin üzərinə nöqtələrin qoyulması, biz bunu nöqtələmə adlandırır".[249]

Şiə alimi Seyid Hüseyn Burucerdi Əbüləsvəd Duəli barədə belə deyir: "Əksəriyyətin rəyinə əsasən o, Quran hərflərinin üzərinə nöqtə yazan ilk şəxs olmuşdur. Həmçinin o, nəhv elminin əsasını qoymuşdur. Bu işi yerinə

---

[246] Min rəvaiul-Quran, c. 1, s. 54, 55; Həmçinin bax: Tarixi mədinəti Diməşq, c. 25, s. 189; İbn Nədim, əl-Fihrist, s. 45; İbn Xəlkan, Vəfiyyatul-əyan, c. 2, s. 537.

[247] Məbahisu fi ulumil-Quran, c. 1, s. 94.

[248] əl-Qiraatul-mutəvatirə və əsəruha fir-rəsmil-Qurani vəl-əhkamiş-şəriyyə, c. 1, s. 96.

[249] Həmin mənbə, c. 1, s. 97.

yetirməyi Əmirəlmöminin Əli (ə) ona əmr etmişdir. Deyilənə görə Əli (ə) onun üçün "kəlimə üç qismə bölünür: isim, fel və hərf" kimi əsas qaydaları yazmış, Əbüləsvəd isə həmin qaydaları şərh və izah etmişdir".[250]

Seyid Həsən Sədr deyir: "Quranın hərflərinin üzərində nöqtə qoyan, sözlərin düzgün oxunuşunu təyin edən və onu təhrifdən qoruyan ilk şəxs Əbüləsvəd olmuşdur. Bəzi rəvayətlərə əsasən isə onun şagirdi Yəhya bin Yəmur olmuşdur. Birinci rəy daha doğrudur. Hər hansı birinin ilk olmasına baxmayaraq bu şiələr üçün fəxrdir. Çünki hamı mütəffiqdir ki, onların hər ikisi şiə olmuşdur".[251]

Seyid Mir Muhəmməd Zərəndi deyir: "Quran hərflərini nöqtələyən ilk şəxs: Məşhur rəyə əsasən Quran hərflərinin nöqtələnməsi və hərəkələnməsi Əbüləsvəd Duəli tərəfindən olmuşdur. Tarixçilərin və müəlliflərin əksəriyyəti tərcümeyi-hal kitablarında bunu qeyd etmişlər..."[252]

Sonda belə nəticəyə gəlirik ki, Quranın nöqtələnməsi və hərəkələnməsi Əbüləsvəd Duəliyə, Xəlilə və Yəhaya bin Yəmurə nisbət verilir. Qeyd etiyimiz kimi bu şəxslərin hər üçü şiə olmuşdur. Bəziləri Nəsr bin Asimin adını da qeyd etmişlər. O da bu işdə şiə məzhəbinə mənsub olan Əbüləsvəd Duəliyə etimad etmişdir.

---

[250] Təfsirus-siratil-mustəqim, c .1, s. 18.

[251] Şiə və fununul-islam, s. 33.

[252] Buhusun fi tarixil-Quran və ulumihi, s. 158, 161.

## Dördüncü fəsil

## Şiə təfsir alimləri və onların ümmətin üzərində təsirləri

### Müqəddimə

Müsəlmanların təfsir kitablarına nəzər salan hər bir kəs hədis kitablarında olduğu kimi şiə ravilərinin adlarına rast gələr. Zəhəbinin Aban bin Təğlibin tərcümeyi-halında qeyd etdiyi kimi əgər bu ravilər olmasaydı bir çox hədislər gizli qalardı.[253]

Şiə alimlərinin təfsir kitablarındakı təsirlərini qeyd etmək məqsədində deyilik. Bu barədə ayrıca bir mövzuda bəhs etmək lazımdır. Lakin biz bu fəsildə şiə təfsir alimlərindən bəzi nümunələr təqdim edəcəyik ki, başqa məzhəb alimlərinin onlara nə dərəcədə etimad etmələri və onlardan istifadə etmələri bizə məlum olsun.

### Birinci mövzu: Əbdürrəzzaq Sənani (vəfatı: 210 h.q.)

Əbdürrəzzaq Sənani böyük imamlardan olmuşdur. Hamı onun sözlərinə əsasən dəlil gətirməkdə ittifaq etmişdir. İbn Həcər deyir: “Əbdürrəzzaq bin Həmmam bin Nafe Himyəri Sənani. Hədis hafizlərindəndir. Çoxlu sayda kitablar yazmışdır. Abbas bin Əbdüləzim Ənbəridən başqa bütün imamların nəzərində etibarlı hesab olunur. O, bir fikir söyləmiş və həmin fikrində ifrata vardığı üçün heç kim tərəfindən qəbul olunmamışdır... İki şeyx (Buxari və Müslim) onun fikirlərinin qarışmasından əvvəl ondan nəql olunan bir neçə hədisə etimad etmişdir. Yəni hicri iki yüzüncü ildən əvvəl ondan eşidilən hədislər məqbuldur. İki yüz ildən sonra isə dəyişilmişdir”.[254]

---

[253] Bax; Mizanul-itidal, c. 1, s. 5, 6.

[254] Muqəddimətu fəthil-bari, s. 418.

Həmçinin deyir: "Əbdürrəzzaq bin Həmmam bin Nafe Himyəri. Əbu Bəkr Sənani tərəfindən İslamı qəbul etmişlər. Etibarlı, hədis hafizi və məşhur müəllif. Ömrünün sonunda gözləri kor olmuşdu və fikri dəyişilmişdi. Doqquzuncu ildə şiəliyi qəbul etdi. İki yüz on birinci ildə səksən beş yaşında vəfat etmişdir".[255]

Zəhəbi deyir: "Əbdürrəzzaq bin Həmmam bin Nafe. Böyük hədis hafizi. Yəmənin alimi. Əbu Nəkr Himyəri. Sənani vasitəsilə İslamı qəbul etmişlər. Etibarlı və şiədir".[256]

Həmçinin deyir: "Əbdürrəzzaq İslam ravisidir. O, doğru danışandır. Onun nəql etdiyi hədislə səhih kitablarda dəlil gətirilmişdir".[257]

## Əbdürrəzzaqın şiə olması

Rical alimləri və tarixçilərin Əbdürrəzzaqın şiə olmasında ixtilaf etməmişlər. onun şiə olmasını deyən bəzi alimlər aşağıdakılardır:

- İbn Muin belə deyir: "Əbdürrəzzaqdan bir söz eşitdim və həmin sözə əsasən əqidəsi barədə ondan nəql olunanların doğru olduğuna inandım".
- İcli deyir: "Etibarlıdır. Şiədir".
- Bəzzar deyir: "Etibarlıdır. Şiədir".
- İbn Hibban deyir: "O, şiə idi".
- Əbu Davud deyir: "Əbdürrəzzaq Müaviyənin əleyinə danışırdı".
- Bəzzar deyir: "Şiə idi".
- İbn Həcər Əsqəlani deyir: "Şiə idi".
- İbn Udəy deyir: "Lakin onu şiəliyə nisbət vermişlər".[258]

---

[255] Təqribut-təhzib, c. 1, s. 599.

[256] Siyəru əlamun-nubəla, c. 9, s. 563, 564.

[257] Tarixul-İslam, c. 15, s. 262.

[258] Bu rəylər barəd bax: Təhzibut-təhzib, c. 6, s. 278, 281; Siyəru əlamun-nubəla, c. 9, s. 563, 564.

- Qeyd etdiyimiz kimin Zəhəbi onun barəsində “Sənani etibarlı və şiə idi”. Zəhəbi Əbu Nəim Fəzl bin Dəkin və Ubeydullah bin Musa Rafizi kimi onu da şiə hesab etmişdir.[259]

- İbn Quteybə onu şiə hesab etmişdir.[260]

- İbn İmad Hənbəli deyir: “İbn Nəsrəddin belə demişdir: “Bir çox alim tərəfindən etibarlı hesab edilmişdir. Lakin şiə olmasına görə ona nöqsan tutulmuşdur”.[261]

İbn Xəldun Əbdürrəzzaqın adını qeyd etdikdən sonra deyir: “O, şiəlikdə məşhur idi”.[262]

İbn Həcər Heytəmi onu şiələrdən hesab etmişdir.[263]

Lakin belə bir sual yaranır. Əbdürrəzzaqın şiəliyi hansı dərəcədə idi? Onun şiəliyi Əlini (ə) Osmandan üstün tutmaq və Müaviyənin əleyinə danışmaq dərəcədə kiçik idi? Şübhəsiz ki, tarix kitabları – hətta rical kitabları – cərh və tədil alimlərinin nəzarəti altında qələmə alınmışdır. Bu isə çoxlu sayda olduğunu deməsək də bəzi həqiqətlərin gizli qalmasına səbəb olmuşdur. Buna əsasn də Əbdürrəzzaqın şiəliyi barədə deyilən fikirlər barədə bir az düşünmək lazımdır. Bəlkə üstünü toz basmış bəzi həqiqətlər üzə çıxar, tarix kitabları və onların müəlliflərinin qandallarından azad olaraq üzümüzə gülər.

İbn Həcər Əbdürrəzzaqın tərcümeyi-halı barədə belə deyir: “Cəfər Təylasi belə nəql edir: “İbn Muinin belə dediyini eşitdim: “Əbdürrəzzaqdan bir söz eşitdim və həmin sözə əsasən əqidəsi barədə nəql olunanların doğru olduğuna inandım. Ona dedim ki, sənin dərs aldığın bütün ustadlar – Muəmmər, Malik, İbn Cureyc, Sovri, Əvzəi –

---

[259] Mizanul-itidal, c. 1, s. 641.

[260] əl-Məarif, s. 624.

[261] Şəzəratuz-zəhəb fi əxbarin min zəhəb, c. 2, s. 27.

[262] Tarixi İbn Xəldun, c. 1, s. 320.

[263] əs-Səvaiqul-muhriqə, s. 62.

hamısı etibarlıdır və sünnə sahibləridirlər. Bu əqidəni kimdən öyrənmisən?" (Əbdürrəzzaq) dedi: "Cəfər bin Süleyman bizim yanımıza gəldi. Onun fəzilətli və doğru hidayətdə olduğunu gördüm. Bu əqidəni ondan öyrəndim". Muhəmməd bin Əbu Bəkr Məqdəmi deyir: "Cəfəri Əbdürrəzzaqın dəyişdirdiyinə rast gəldim". Şiə olduğunu nəzərdə tuturdu".[264]

İbn Həcərin özündən əvvəlki alimlərdən nəql etdiyi bu mətnə əsasən İbn Muin Əbdürrəzzaqın şiə olması qənaətindədir. Əbdürrəzzaq bu əqidəni – şiəliyi – Cəfər bin Süleymandan öyrəndiyini bəyan edir. Cəfər bin Süleyman etibarlı və şiəlikdə təəssübkeş olan biri idi. Onun barəsində "şiəlikdə məşhurdur", "O, bəzi sələflərə qarşı çıxırdı", "Cəfər Müaviyəni xatırlayanda ona lənət edər, Əlini xatırlayanda isə ağlayardı","məzhəbinə görə onun əleyhinə söz deyilmişdir", "Cəfər rafiziliyə nisbət verilir", "o, rafizidir" kimi sözlər deyilmişdir.[265]

İbn Muinin sözlərindən sonra ağıla gələn ilk fikir budur ki, Əbdürrəzzaq rafiziliyi, şiəlikdə təəssübkeşliyi Cəfərdən öyrənmişdir.

Zəhəbi deyir: "Cəfər bin Süleyman Zəbbi şiələrin abidlərindən və alimlərindəndir. Həcc ziyarətinə oradan da Yəmənə getmişdir. Əbdürrəzzaq onunla yoldaşlıq etmiş, ondan çoxlu nəql etmiş və onun vasitəsilə şiə olmuşdur".[266]

İbn Udəy Cəfər bin Süleymanla Əbdürrəzzaqın şiəlikdə eyni olduqlarını demişdir. Əbdürrəzzaqın Cəfərdən nəql etdiyi bir hədisi qeyd etdikdən sonra belə deyir: "Cəfər bin Süleyman Bəsrə əhlindən olan şiələrdən hesab olunur. Əbdürrəzzaq da şiələrdən hesab olunur".[267]

---

[264] Təhzibut-təhzib, c. 6, s. 279.

[265] Bax; İbn Həcər, Təhzibut-təhzib, c. 2, s. 81, 83.

[266] Siyəru əlamun-nubəla, c. 8, s. 198.

[267] əl-Kamil, c. 5, s. 315.

Muhəmməd bin Əbu Bəkr Məqdəmi məhz Əbdürrəzaqın Cəfər Zəbbini azdırdığını deyir. Cəfər Zəbbi muğali və rafizidir. Əgər onun sözü doğrudursa, deməli, Əbdürrəzzaq Cəfər Zəbbidin daha çox rafizi və ya ən azı onun qədər rafizidir!

İbn Həcər deyir: "İbn Əbu Xeysəmə deyir: "Yəhya bin Muinin belə dediyini eşitdim: "Ubeydullah bin Musa şiə olduğu üçün nəql etdiyi hədis məqbul deyil". Özündən başqa heç bir ilah olmayan Allaha and olsun ki, Əbdürrəzzaq ondan yüz qat təəssübkeşdir. Ubeydullahdan eşitdiyim şeylərin yüz qatını Əbdürrəzzaqdan eşitmişəm".[268]

Bu mətndə İbn Muin Əbdürrəzzaqın şiəlikdə Ubeydullah bin Musadan daha təəssübkeş olduğunu təsdiqləyir. Onun şiəliyi barədə çoxlu sayda qərəzli sözlər demişlər. İbni Mundə deyir: "Əhməd bin Hənbəl camaata Ubeydullahın rafizi olmasını deyirdi. "Ubeydullah adı Müaviyə olan heç bir şəxsi evinə buraxmırdı". "O, məşum (uğursuz, nəsh) şiəliyi bidətin əsasını qoyan məmləkətinin (İraqı nəzərdə tutur) əhalisindən öyrənmişdi". "O, şiələrin başçılarından idi".[269]

Deməli, İbn Muinin sözlərinə əsasən Əbdürrəzzaq şiəlikdə və rafizilikdə Ubeydullah bin Musadan yüz qat artıq idi!

Onun bu sözləri Əbdürrəzzaqın rafiziliyinə, hətta rafizilikdə həddini aşmasına dəlalət edir. İbn Muin, həmçinin İbni Hənbəl Əbdürrəzzaqdan öyrənmək üçün Yəmənə gedənədək ondan rəvayət nəql etmişlər.

Əqili deyir: "Muxəlləd Şəirinin belə dediyini eşitdim: "Əbdürrəzaqın yanında idim. Bir nəfər Müaviyənin adını çəkdi. O belə dedi: "Əbu Süfyanın oğlunun adını çəkməklə məclisimizi murdarlama!"[270]

---

[268] Təhzibut-təhzib, c. 6, s. 278, 281.

[269] Onun barəsində deyilmiş bu sözlər üçün bax; Zəhəbi, "Siyəru əlamun-nubəla", c. 9, s. 554, 557; İbn İmad Hənbəli, "Şəzəratuz-zəhəb min əxbarin min zəhəb", c. 2, s. 29; İbn Əsir, "əl-Kamil fit-tarix", c. 6, s. 411.

[270] Zuəfa Əqili, c. 3, s. 109.

Əbdürrəzzaq ikinci xəlifə barədə hədis məktəbinə (əhli-sünnəyə) mənsub olan bir şəxsə yaraşmayan tərzdə sözlər söyləmişdir. İki şeyx (Əbu Bəkr və Ömər) barədə pis danışmaq isə rafizilik idi.

Əqili belə deyir: "Əli bin Abdullah bin Mubarək Sənaninin belə dediyini eşitdim: "Zeyd bin Mubarək Əbdürrəzzaqla yoldaşlıq etmiş və ondan çoxlu rəvayətlər nəql etmişdir. Sonra isə yazdıqlarını yandırmış və Muhəmməd bin Sovrla yoldaşlıq etmişdir. Ondan bunun səbəbi barədə soruşulduqda isə belə demişdir: "Əbdürrəzzaqın yanında idik. Bizə Muəmmərin Zuhridən, onun da Malik bin Ovs bin Hədəsandan nəql etdiyi bir hədis söylədi. Hədis uzundur. Ömərin Əli və Abbasa dediyi "Sən gəlib qardaşın oğlunun mirasını tələb edirsən. Bu isə arvadının atasından ona çatacaq mirasını tələb edir" sözlərini nəql etdikdə belə dedi: "Baxın bu axmağa! Baxın görün nə deyir? "Sən gəlib qardaşın oğlunun mirasını tələb edirsən. Bu isə arvadının atasından ona çatacaq mirasını tələb edir? Niyə Rəsulullah (s) demir?" Zeyd bin Mubarək dedi: "Onun yanından durub çıxdım. Bir daha ora getmədim və ondan heç vaxt hədis nəql etmədim".[271]

Zəhəbi ikinci xəlifənin müdafisinə qalxaraq Əbdürrəzzaqa qarşı hücuma keçib belə deyir: "Bu çox ağır sözdür! Əmirəlmömininin Ömərin sözünü başa düşməmişdir. Ey sən! Əgər sussaydın sənin üçün daha layiq olardı. Ömər əmilik və peyğəmbərlik məsələsini bəyan etmək məqamından çıxış edirdi. Əks halda Ömər (Allah ondan razı olsun) Mustafanın haqqını, onun məqamını və ehtiramını saxlamağı hər bir zəhlə tökən yalançıdan daha yaxşı bilir..."[272]

Rəsulullah (s) barədə danışarkən onun ehtiramını saxlamaq vacib əməllərdəndir. İkinci xəlifənin "Sən gəlib qardaşın oğlu Rəsulullahın (s) mirasını tələb edirsən. Bu isə arvadının atası olan Rəsulullahdan (s) ona çatacaq mirasını tələb edir" deməsi heç də çətin deyildi. Əmilik və

[271] Zuəfa Əqili, c. 3. S. 110.

[272] Siyəru əlamun-nubəla, c. 9, s. 572.

peyğəmbərlik məqamını bəyan etmək Rəsulullah (s) sözünü qeyd etmək üçün heç bir maneə yaratmır. Lakin bu, Rəsulullahın (s) belə üslubla xatırlandığı birinci hadisə deyil. Hər dəfə cümə axşamı günü baş verənləri xatırlayarkən İbn Abbasın göz yaşları yanaqlarına süzülürdü. Həmin gecə baş verən hadisə bəzilərinin Rəsulullahla (s) kobud davranmasına və onun ehtiramını saxlamamasına dəlalət edən bir hadisə kimi yaddaşlarda qalmışdı.

Əbdürrəzzaqın həyatını araşdırdıqda məlum olur ki, o, bildiyi hər şeyi danışmırdı. Çünki mühəddislərin (hədis alimlərinin), xüsusilə də Əli (ə)-ın fəzilətləri barədə qulaqlarına yeni gələn bir şey eşitdikdə Əbdürrəzzaqa qarşı sərt mövqe tutur və onunla əlaqəni kəsirdilər.

İbn Udəy belə deyir: "Əhməd bin Muhəmməd Şərqi bizə belə nəql etmişdir: "Əbuləzhər belə demişdir: "Əbdürrəzzaq bağına tərəf gedirdi. Mən də onun ardınca getdim. O, qatırın üstündə gedirdi. Arxaya dönüb məni gördü və dedi: "Ey Əbüləzhər yoruldun artıq. Sən də gəl min!" Mən də onunla birlikdə qatırın belində oturdum. Mənə dedi: "Sənə bir hədis söyləyimmi? Muəmmər Zuhridən, o da Ubeydullah bin Abdullah bin Abbasdan nəql edir ki, Peyğəmbər (s) Əliyə buyurdu: "Sən bu dünyada da, axirətdə də seyidsən (ağasan). Kim səni sevərsə, məni sevmişdir. Kim sənə nifrət edərsə mənə nifrət etmişdir. Səni sevən Allahın sevimlisidir. Sənə nifrət edən Allahın nifrət etdiyidir. Məndən sonra sənə nifrət edənə vay olsun!" Əbüləzhər deyir: "Bağdadda olduqda Yəhya bin Muinin məclisinə gəldim. Bu hədisi bir nəfərə söylədim. Həmin adam yerindən qalxıb Yəhya bin Muinin yanına getdi. Yəhya bin Muin uca səslə dedi: "Bunu Əbdürrəzzaqdan nəql edən yalançı kimdir?" Məclisin ortasında ayağa qalxıb dedim: "Mən bu hədisi Əbdürrəzzaqdan nəql etmişəm. Həmin hadisəni ona danışdım. Bundan sonra Yəhya susdu".[273]

---

[273] əl-Kamil, c. 5, s. 312.

Bu hədisi Əbüləzhər Əbdürrəzzaqdan, o da Muəmmərdən, o da Zuhridən, o da Ubeydullah bin Abdullah bin Abbasdan nəql etmişdir. Bütün ravilər etibarlı şəxslərdir. Bəlkə də İbn Muinin "Günah sənin deyil" deməklə Rəsullullahı (s) nəzərdə tuturdu! Allaha sığınırıq bu sözdən!

Hakim nəql edir ki, Əbu Abdullah Qurəşidən belə dediyini eşitdim: "Əhməd bin Yəhya Həlvani belə dedi: "Əbuləzhər Səna şəhərindən qayıtdıqdan sonra Bağdad əhli ilə bu hədisi müzakirə etdi. Yəhya bin Muin bu hədisi inkar etdi. Onun məclisi olan gün məclisinin sonuna yaxın belə dedi: "Əbdürrəzzaqdan bu hədisi nəql edən yalançı nişapurlu hardadı?" Əbüləzhər ayağa qalxıb dedi: "Həmin şəxs mənəm". Yəhya bin Muin onun məclisdə ayağa qalxıb belə söz deməsinə güldü. Onu yanına çağırdı. Sonra dedi: "Əbdürrəzzaq bu hədisi sənə necə danışmışdır? Halbuki səndən başqasına bu hədisi danışmayıb". (Əbuləzhər) dedi: "Ey Əbu Zəkəriyya! Mən Sənaya gəldikdə Əbdürrəzzaq orda yox idi. Şəhərdən kənarda olan kəndində idi. Həmin kəndə doğru getdim. Mən çox yorulmuşdum. Onun yanına çatdıqdan sonra məndən Xorasan barədə soruşdu. Ona Xorasan barədə danışdım. Sonra ondan hədislər yazdım. Onunla birlikdə Sənaya döndük. Məni yola salanda dedi: "Sənin mənim üzərində vacib haqqın var. Sənə elə bir hədis danışacam ki, səndən başqa bu hədisi məndən heç kim eşitməyib. Allaha and olsun ki, sözbəsöz bu hədisi danışdı". Yəhya bin Muin onun sözlərini təsdiqlədi və ondan üzr istədi".[274]

Bu rəvayətdən belə məlum olur ki, Əbdürrəzzaq elə hədislər bilirdi ki, onları yalnız xüsusi şəxslərə söyləmişdir.

Əbdürrəzzaqın əl-Musənnəf hədis kitabını oxuyan hər bir kəs bu kitabda Əli bin Əbu Talibin (ə) barəsində ayrıca bir baba rast gəlir. Həmin babda onun fəzilətləri barədə çoxlu sayda rəvayətlər nəql etmişdir.

---

[274] əl-Mustədrək aləs-səhiheyn, c. 3, s. 128.

Halbuki Əbu Bəkr və Ömər barəsində belə etməmişdir. Əli (ə) barəsində etdiyi kimi onların barəsində ayrıca bab yazmamışdır.[275]

Osman barəsində isə "Osmanın qətlə yetirilməsi" adlı bir bab yazmışdır. Həmin babda Əlinin (ə) barəsində etdiyinin əksi olaraq onun barəsində Rəsulullahın (s) dilindən nəql olunan heç bir rəvayət qeyd etməmişdir. Yalnız onun qətlə yetirilməsi barədə bəzi rəvayətləri qeyd etmişdir.[276]

Əbdürrəzzaq Osman barəsində xoş danışmamışdır. İbn Əsakir qeyd edir ki, İbn Əbu Xeysəməni Ubeydullah Əbəsinin hədislərini tərk etməyə çağıran İbn Hənbəlin elçisinə Yəhya bin Muin belə demişdir: "Məndən Abdullaha salam söylə! Ona de ki, Yəhya bin Muin sənə salam deyir. Həmçinin deyir ki, sən və mən Əbdürrəzzaqın Osman bin Əfvan barədə xoş danışmadığını eşitmişik. Ondan hədis söləməyi tərk elə. Şübhəsiz ki, Osman Müaviyədən əfzəldir".[277]

Bir çox alimlər Əbdürrəzzaqın rafizi və ya muğali olmasını, Əlini (ə) başqa səhabələrdən üstün tutduğunu bəyan etmişlər. Onlardan bəzilərini qeyd edirik:

**- Yəhya bin Muin.** Onun dediklərini yuxarıda qeyd etmişik.

**- Əbu Hatəm.** O, Əbdürrəzzaqın şiəlikdə həddini aşdığını demişdir. İbn Əbu Hatəm atasından Həmmam Sənani barədə – Əbdürrəzzaqqın qardaşı – barədə soruşmuşdur. O belə deyir: "Onun barəsində soruşdum". Belə dedi: "Həmmam şeyx idi. Şiəlikdə həddi aşırdı. O, şiəlikdə Əbdürrəzzaqdan çox təəssübkeş idi".[278]

Əbu Hətəmin sözlərindən başa düşülür ki, Həmmam şiəlikdə həddi aşırdı. Lakin o, şiəlikdə Əbdürrəzzaqdan da çox ğüluv edirdi (həddi aşırdı).

---

[275] əl-Musənnəf, c. 11, s. 317.

[276] Həmin mənbə, c. 11, s. 444

[277] Tarixi mədinəti Dəməşq, c. 36, s. 189

[278] İbn Əbu Hatəm, əl-Cərh vət-tədil fi tərcəməti Həmam, c. 6, s. 71

Bu o deməkdir ki, Əbdürrəzzaq da şiəlikdə ğüluv edirdi. Lakin Həmmam ondan daha çox təəssübkeş idi.

**- İbn Əsakir.** O, Əbdürrəzzaqa aşkarcasına rafizilik nisbəti verərək belə demişdi: "Əbdürrəzzaq rafiziliklə ittiham olunur".[279]

İbn Əsakir cərh və tədil elmində sözlərinə etimad edilən alimlərdən olmuşdur. Zəhəbi onu cərh və tədil elmində rəyinə etimad edilən şəxslərin sırasında qeyd etmişdir.

**- Süyuti.** Əbdürrəzzaqın Əlini (ə) səhabələrdən üstün tutduğunu bəyan etmiş, onun bu hərəkətini rafizilik adlandırmışdır.[280]

**Şiə alimlərinin Əbdürrəzzaq barədə dedikləri**

Şeyx Tusi Əbdürrəzzaqı İmam Sadiqin (ə) səhabələrindən hesab etmişdir.[281]

Onun şiə olmasını, Əhli-Beytin (ə) imamlğına etiqad bəsləməsini təkid edən dəlillərdən biri də Nəcaşinin nəql etdiyi bu rəvayətdir: "...Muhəmməd bin Əbu Bəkr, Həmmam bin Suheyl İskafi əvvəlki dövrün alimlərimizin şeyxidir. Onun böyük məqamı və çoxlu sayda nəql etdiyi hədislər var. Əbu Muhəmməd Harun bin Musa – Allah ona rəhmət eləsin – Muhəmməd bin Həmmamdan, o da Əhməd bin Mabəndazdan belə nəql edir: "Atam ailə fərdləri içərisində İslamı ilk qəbul edən şəxs idi. Zərdüştlükdən çıxdı və Allah onu haqqa hidayət etdi. O, qardaşı Suheyli öz məzhəbinə dəvət edir və ona belə deyirdi: "Ey qardaşım, bil ki, mən sənin üçün doğru nəsihət edirəm. İnsanlar müxtəlif əqidədirlər. Hər biri özünün haqq olduğunu iddia edir. Mən əmin olmadan heç bir şeyə daxil olmaram". Bu hadisədən bir müddət keçdikdən sonra Suheyl həcc ziyarətinə getdi. Həcdən qayıdanda qardaşına dedi: "Sən məni haqqa dəvət etmək istəyirdin".

---

[279] Tarixi mədinəti Dəməşq, c. 45, s. 147

[280] Tədribur-ravi fi şərhi təqribin-nəvavi, c. 1, s. 389

[281] Ricali Tusi, s. 265

(Qardaşı) dedi: “Sən bunu necə bildin?” (Suheyl) belə dedi: “Həcdə Əbdürrəzzaq bin Həmmam Sənanini ilə qarşılaşdım. Onun kimi birini hələ görməmişdim. Gizlincə ona dedim: “Biz əcəm övladlarıyıq. İslamı yeni qəbul etmişik. İslam əhlinin müxtəlif məzhəblərə bölündüyünü görürəm. Allah sənə elə bir elm vermişdir ki, sənin zamanında sənə tay bərabər biri yoxdur. Səni Allahla öz aramda höccət qərar verəmək istəyirəm. Dində özünə rəva bildiyini mənə də bəyan elə ki, həmin məsələdə sənə tabe olum və sənə təqlid edim”. O da mənə Rəsulullahın (s) əhli-beytinə məhəbbət bəsləməyə, onlara ehtiram göstərməyə, düşmənlərindən uzaqlaşmağa və onların imam olmalarına etiqad bəsləməyə dəvət etdi”. Əbu Əli deyir: “Atam bu məzhəbi atasından, o da əmisindən götürmüşdür. Mən də atamdan götürmüşəm”.[282]

Bu rəvayətin mətnini bu ailənin bir neçə üzvü təsdiqləyir. Onların hər biri ifrat dərəcədə şiə olmuşlar. Əbdürrəzzaqın qaradşı Əbdülvəhhab bin Həmmam Sənani onlardan biridir.[283]

İmamiyyə alimlərindən bir çoxu Əbdürrəzzaqın əhli-beytin imamətinə etiqad bəsləyən və düşmənlərindən uzaq olan şiələrdən hesab etmişlər. Həmin alimlərdən bəzilərini aşağıda qeyd edirik:

- Böyük alim Ağa Bozorg Tehrani: Əbdürrəzzaqın təfsirini şiə müəlliflərinin kitabları arasında qeyd etdikdən sonra belə deyir: “O, imam, hədis hafizi Əbu Bəkr Əbdürrəzzaq bin Həmmam bin Nafe Himyəri Sənanidir. Hicri 126-cı ilədə dünyaya gəlmiş və 211-ci ildə vəfat etmişdir. Təəccüblüdür ki, bu məşhur şəxs barədə bizim əsas rical kitablarında yazılmamışdır. Lakin Şeyx Tusi sadəcə onun adını İmam Sadiqin (ə) (vəfat tarixi 148 h.) səhabələri arasında qeyd etmişdir. Lakin Vəhid Bəhbəhani “ət-Təliqə” kitabında onun İmam Sadiqin (ə) səhabələrindən olmasını mümkün ola biləcəyini qəbul etmir. Lakin, xüsusilə də İmam Sadiqin (ə)

[282] Fihristu əsmai musənnifiş-şiə, s. 379-380

[283] Bax; İbn Həcər, Lisanul-mizan, c. 4, s. 93-94

vəfatında onun 22 yaşda olmasını bildikdən sonra onun bu fikrinin əsası yoxdur. Həmçinin Şeyx Nəcaşi Əbu Əli Muhəmməd bin Həmmam bin Suheyl İskafi Bağdadinin tərcümeyi-halı barədə danışarkən onun adını qeyd etmişdir. O, Əbu Əli Muhəmməd bin Həmmamın babası Süheylin şiə olmasına səbəb olmuş və haqq məzhəbi ona tanıtdırmışdır. Onun şiəliyə dəvət edən şiə alimlərindən olmasına baxmayaraq bizim kitablarımızda onun tərcümeyi-halı yazılmamışdır. Həmçinin onun atası Həmmam bin Nafe barəsində də yazılmamışdır. Baxmayaraq ki, onun atası şiə kitablarının ravilərindən olmuşdur. Məsələn, Süleym bin Qeys Hilalinin kitabı kimi. Həmin kitabı Həmmam Aban bin Əbu Əyyaşdan nəql etmişdir. Həmmamdan isə oğlu Əbdürrəzzaq nəql etmişdir. Necə ki, c. 2, səh. 154-də bu barədə qeyd etmişik.

Bir sözlə bu şəxs şiə rical kitablarında haqqı verilməyən bir şəxsdir. Baxmayaraq ki, onun təfsiri bizim ən qədim təfsirlərimizdəndir. Bu təfsir şiənin fəxr etdiyi kitablardan və bu günədək gəlib çatan əbədi qalan nişanələrindən hesab olunur. Bu təfsirin mövcud olması barədə deyilmişdir. Misirin bəzi kitabxanalarında bu kitab saxlanılır. Deyilənə görə Yəktəmur bin Ömər tərəfindən yazılan bir nüsxə orada qorunub saxlanılır. Bu nüsxənin yazılma tarixi hicri 724-cü ilə qayıdır. Həmin kitabda İmam Sadiqin (ə) səhabəsi olan Əbu Urvə Məmər bin Raşid Sənani Bəsridən çoxlu rəvayətlər nəql etmişdir. Onun adını Suleym bin Qeysin kitabı barədə danışdıqda (əz-Zəriə, c. 2, səh. 154) qeyd etmişik. Həmçinin qeyd etmişik ki, İbn Həmmam Sənani həmin kitabı Məmərdən nəql etmişdir. O isə Abandan, o da Süleymdən nəql etmişdir”.[284]

Seyid Xoyi Əbdürrəzzaqın tərcümeyi-halı barədə danışarkən belə deyir: “O, görkəmli şiə alimlərindən biri olmuşdur. Necə ki, Nəcaşinin

---

[284] əz-Zəriə, c. 4, s. 250, 251

Muhəmməd bin Əbu Bəkr Həmmam bin Duheylin tərcümeyi-halından bəhs etdiklərindən belə başa düşülür”.[285]

Seyid Əbdülhüseyn Şərəfəddin deyir: “Əbdürrəzzaq bin Həmmam bin Nafe Himyəri Sənani. O, şiələrin görkəmli şəxsiyyətlərindən və əməlisaleh sələflərindən olmuşdur...”[286]

Seyid Möhsin Əmin Əyanuş-şiə kitabında onu şiələrdən hesab etmişdir.[287]

Şeyx Abbas Qummi belə deyir: “Şazkuni şiə olan Əbu Bəkr Əbdürrəzzaq bin Həmmam Sənanidən nəql etmişdir...”[288]

Şeyx Əbdülhüseyn Şəbustəri belə deyir: “Əbdürrəzzaq bin Həmmam: Əbu Bəkr Əbdürrəzzaq bin Həmmam bin Nafe Yəmani Sənani Himyəri. İmamiyyənin ən yaxşı hədis alimlərindəndir. O, hörmətli alim, fəqih, hədis hafizi və təfsirçi olmuşdur. İmam Cavad (ə) –dan da hədis nəql etmişdir. Bəzi sünni alimləri onu etibarlı hesab etmişdir. Onun Təzkiyətul-ərvah, əl-Camiul-kəbir adı ilə tanınan əl-Musənnəf fil-hədis kitabları var”.[289]

## Əbdürrəzzaqın təfsir kitabı

Əbdürrəzzaqın təfsir kitabının böyük əhəmiyyəti var. Xüsusilə də bu təfsir kitabı qədim təfsir kitablarındandır. Sonrakı dövrün təfsir alimləri ondan nəql etmişlər. Bu təfsir 3430 hədis və rəvayət ehtiva edir.

Bir çox təfsir kitablarında Əbdürrəzzaqdan rəvayətlər nəql olunmuşdur:

Təbəri Əbdürrəzzaqdan 1325 hədis və rəvayət nəql etmişdir.

İbn Əbu Hatəm 780 dəfə ondan nəql etmişdir.

Nəhhas Məanil-Quran kitabında ondan 780 dəfə rəvayət nəql etmişdir.

---

285 Mucəmu ricalil-hədis, c. 11, s. 146

286 əl-Müraciət, s. 146

287 Əyanuş-şiə, c. 7, s. 471

288 əl-Kuna vəl-əlqab, c. 2, s. 345

289 əl-Faiq fi ruvati və əshabil-imam əs-Sadiq (ə), c. 2, s. 229

Cəssas Əhkamul-Quran kitabında ondan 14 dəfə rəvayət nəql etmişdir.

Səmərqəndi təfsir kitabında ondan 90 dəfə rəvayət nəql etmişdir.

Sələbi əl-Bəyan ən təfsiril-Quran kitabında ondan 35 dəfə rəvayət nəql etmişdir.

Vahidi Əsbabun-nuzul kitabında ondan 15 dəfə rəvayət nəql etmişdir.

Səmani təfsir kitabında ondan 10 dəfə rəvayət nəql etmişdir.

Bəğəvi Məalimut-tənzil fi təfsiril-Quran kitabında ondan 85 dəfə rəvayət nəql etmişdir.

Qurtubi təfsir kitabında ondan 60 dəfə rəvayət nəql etmişdir.

İbn Kəsir Təfsirul-Quranil-azim kitabında ondan 450 dəfə rəvayət nəql etmişdir.

İbn Həcər əl-Ucab fi bəyanil-əsbab kitabında ondan 50 dəfə rəvayət nəql etmişdir.

Şovkani Fəthul-qədir kitabında ondan 600 dəfə rəvayət nəql etmişdir.

Adı çəkilən təfsir alimlərinin Əbdürrəzzaqdan nəql etdikləri hədis və rəvayətlərin sayı 5684-ə çatır. Əgər onun özünün qələmə aldığı təfsiri və onun ehtiva etdiyi rəvayətləri də əlavə etsək bu rəqəm təkrarlarla birlikdə 9100 hədis və rəvayətdən çox olacaq

## İkinci mövzu: İsmail bin Əbdürrəhman Suddi (vəfatı: 127 h.q.)

### Tərcümeyi-halı

Zəhəbi deyir: "İsmail bin Əbdürrəhman bin Əbu Kərimə. İmam müfəssir (təfsir alimi) Muhəmməd Hicazi Kufi Suddi... Nəsai deyir: "Nəql etdiyi hədis düzgündür".[290]

Həmçinin deyir: "İsmail bin Əbdürrəhman bin Əbu Kərimə Suddi Kufi. Ənəs, Abdullah Bəhadan və başqalarından nəql etmişdir. Sovri, Əbu Bəkr bin Əyyaş və başqaları ondan nəql etmişlər. O, Əbu Hüreyrəni görmüşdür. Yəhya bin Qəttan deyir: "Onun heç bir nöqsanı yoxdur". Əhməd deyir: "O,

290 Siyəru əlamun-nubəla, c. 5, s. 264-265

etibarlıdır". İbn Muin deyir: "Hədis nəqlində zəifdir". Əbu Hatəm deyir: "Onun hədisinə etimad edilməz". İbn Udəy deyir: "O, mənim nəzərimdə doğru danışandır". Şureyk Sələm bin Əbdürrəhmandan belə nəql edir: "İbrahim Nəxəi Suddinin yanından keçdikdə o, Quran təfsir edirdi. (İbrahim) belə dedi: "Onlara qövmün təfsirini danışır". Abdullah bin Həbib bin Əbu Sabit belə deyir: "Şəbiyə "İsmail Səddiyə Quran elmindən bəxş edilmişdir" deyildiyinə belə dediyini eşitdim: "Ona Quran cəhlindən bəxş edilmişdir". Fəllas İbn Məhdidən nəql edərək onun zəif olduğunu deyir. İbn Muin deyir: "Əbu Həfs Abar belə deyir: "Suddiyə çaxır verib ona bunda mənim dərdimə şəfa var dedim. O da çaxırı içdi". İbn Mədini deyir: "Yəhya bin Səidin belə dediyini eşitdim: "Elə bir adama rast gəlmədim ki, Suddinin barəsində xeyirdən başqa bir şey söyləsin. Heç kim onu tərk etməmişdir". Şəbi və Sovri ondan nəql etmişdir. Deyilənə görə o, hicri 127-ci ildə vəfat etmişdir. Suddi şiəliklə ittiham edilmişdir. Cuzcani deyir: "Mutəmərdən o da Leysdən belə nəql edir: "Kufədə iki yalançı vardı. Onlardan biri vəfat etdi: Suddi və Kəlbi. Hüseyn bin Vaqid Mərzəvi belə deyir: "Suddinin yanında hədis dinlədim. Onun yanında qalxmamış Əbu Bəkr və Öməri söydüyünü eşitdim. Bundan sonra onun yanına getmədim".[291]

İbn Həcər deyir: "İsmail bin Əbdürrəhman bin Əbu Kərimə Suddi Əbu Muhəmməd Kufi doğru danışandır. Şiəlikdə ittiham edilmişdir. 127-ci ildə vəfat etmişdir".[292]

Müslim Suddidən nəql etmişdir. Suddi onun etimad etdiyi ravilərdən idi. Bu isə Müslimin onu etibarlı hesab etməsi deməkdir. Həmçinin Qəttan, Əhməd, Nəsai, İcli, İbn Udəy, Hakim onu etibarlı hesab etmişdirlər. Hakim onun bir neçə hədisini yazmış və səhih hesab etmişdir. Bu, onun etibarlı hesab edilməsi deməkdir.[293]

---

[291] Mizanul-itidal, c. 1, s. 236, 237; Həmçinin, bax; Təhzibut-təhzib, c. 1, s. 273, 274

[292] Təqribut-təhzib, c.1, s. 97

[293] Hakim, əl-Mustədrək, c. 2, s. 258, 260; c. 2, s. 315

Şöbə ondan rəvayət nəql etməklə onu etibarlı hesab etmişdir. Çünki o, yalnız etibarlı şəxslərdən nəql edirdi.[294]

Tirmizi Sünən kitabında Suddinin hədisləri ilə dəlil gətirmişdir. Ondan nəql olunan hədisi qeyd etdikdən sonra belə demişdir: "Bu, həsən və qəribə hədisdir".[295]

İbn Əbu Hatəm təfsirində onun nəql etdiyi hədislərlə dəlil gətirmişdir. İbn Əbu Hatəm yalnız etibarlı hesab etdiyi şəxslərdən rəvayət nəql edirdi. İbn Muinin ona irad tutmasına gəlincə, o təfsir alimi olmadığı üçün onun iradı rədd edilir.

**Suddinin şiə olmasına dair dəlillər**

Suddinin həyatını araşdıran hər bir kəs üçün onun şiə olması məlumdur. Zəhəbi əl-Muğni kitabında belə deyir: "Suddi şiəlikdə ittiham edilmişdir. Hüseyn bin Vaqid Mərzəvi belə deyir: "Suddinin yanında hədis dinlədim. Onun yanında qalxmamış Əbu Bəkr və Öməri söydüyün eşitdim. Bundan sonra onun yanına getmədim".[296]

Əqili deyir: "O, iki şeyxə (Əbu Bəkr və Ömrə) qarşı pis sözlər deyirdi".[297]

Kim iki şeyxi söyərdisə o, sadəcə şiə deyil, təəssübkeş rafizidir.

Şeyx Tusi onu İmam Zeynulabidin (ə), İmam Baqir (ə) və İmam Sadiqin (ə) səhabələrindən hesab etmişdir.[298]

Bu isə onun Əhli-beyt imamlarına tabe olmasına dəlalət edir.

Şiə alimləri öz kitablarında onun tərcümeyi-halını qeyd etmişlər. Şeyx Ağa Bozorg Tehrani kimi başqa alimlər onu şiə hesab etmişlər.[299]

---

294 Təhzibut-təhzib, c. 1, s. 4-5

295 Sünəni Tirmizi, c. 1, s. 14

296 Zəhəbi, əl-Muğni fiz-zuəfa, c. 1, s. 126

297 Təhzibut-təhzib, c. 1, s. 273-274

298 Ricalu Tusi, s. 109, 124, 160

299 Bax: əz-Zəriə ilə təsanifiş-şiə, c. 4, s. 276

Suddi belə nəql edir: “Kərbəlaya gəldim. Orada parça satırdım. Teydən olan bir qoca kişi bizim üçün yemək hazırladı və axşam yeməyini yedik. Sonra Hüseynin qətlini xatırladıq. Mən dedim: “Onun qətlində iştirak edən elə bir şəxs yoxdur ki, pis halda ölməsin”. O isə mənə dedi: “Ey İraq əhli, siz necədə yalançısınız! Mən də orda iştirak edənlərdən olmuşam”. Bir az keçmədi ki, o, çırağa yaxınlaşdı. Çırağı düzəltmək istəyirdi. Çıraq yanırdı. Barmağı ilə çırağın fitilini çıxartmaq istəyirdi. Barmağı yandı. Fitilin alovunu üfürərək söndürmək istəyirdi ki, birdən alov saqqalını bürüdü. Dərhal özünü suya atdı. Onun yanaraq həlak olduğunu gördüm”.[300]

Əhməd Suddidən nəql etdiyi rəvayətlərdən birində deyilir: “Suddi Əbu Salehdən belə nəql edir: “Abdullah bin Abbas ölüm ayağında olarkən belə dedi: “İlahi, Əli bin Əbu Talibin vilayəti ilə sənə yaxınlaşıram”.[301]

Suddi belə nəql eidr: “Hüseyn bin Əli (Allah onların hər ikisindən razı olsun) qətlə yetirildikdə səma ona görə ağladı. Səmanın ağlaması onun qızarması idi”.[302]

### Suddinin təfsiri

Süyuti Suddinin təfsirini təriflәyərək belə deyir: “Sovri, Şöbə kimi imamlar Suddindən nəql etmişdir. Lakin onun topladığı təfsiri Əsbat bin Nəsr nəql etmişdir. Əsbat barəsində hamı yekdil rəydə deyil. Təfsirlərin ən yaxşısı Suddinin təfsiridir”.[303]

Suddidən sonra gələn təfsir alimləri ona etimad etmişlər. Süyuti belə deyir: “İbn Cərir Suddinin adı çəkilən təfsirindən çox sitatlar gətirmişdir. Suddi Malikdən, Əbu Salehdən, İbn Abbasdan, Murrədən, İbn Məsuddan və başqa səhabələrdən nəql etmişdir”.[304]

---

[300] Təzkirətul-huffaz, c. 2, s. 662

[301] Fəzailus-səhabə, c. 2, s. 662

[302] Təfsiri -Suləbi, c. 8, s. 353

[303] əl-İtqan fi ulumil-Quran, c. 2, s. 497

[304] Həmin mənbə, c. 2, s. 497.

Aşağıdakı təfsir kitablarında Suddinin təfsirindən neçə dəfə nəql olunduğunu qeyd edirik:

Təfsiri Sovri, 20 dəfə.

Təfsiri Təbəri, 1900 dəfə.

Təfsiri İbn Əbu Hatəm, 1831 dəfə.

Nəhhas, Məanil-Quran, 40 dəfə.

Cəssas, Əhkamul-Quran, 55 dəfə.

Təfsiri Səmərqəndi, 140 dəfə.

Təfsiri Sələbi, 300 dəfə.

Vahidi Nişapur, Əsbabun-nuzul, 15 dəfə.

Təfsiri Səmani, 115 dəfə.

Bəğəvi, Məalimut-tənzil fi təfsiril-Quran, 275 dəfə.

Nəsəfi, Mədarikut-tənzil və həqaiqut-təvil, 10 dəfə.

İbn Ərəbi, Əhkamul-Quran, 13 dəfə.

İbn Ətiyyə Əndəlusi, əl-Muhərrər fi təfsiril-kitabil-əziz, 345 dəfə.

İbn Covzi, Zadul-məsir fi ilmit-təfsir, 470.

Təfsiri Razi, 145 dəfə.

Qurtubi, əl-Camiu li əhkamil-Quran, 460.

Əbu Həyyan Əndəlusi, Təfsiril-bəhril-muhit, 430.

İbn Kəsir, Təfsiril-Quranil-əzim, 640 dəfə.

İbn Həcər əl-Ucab fi bəyanil-əsbab, 100 dəfə.

Səlibi, Cəvahirul-hisan fi təfsiril-Quran, 90 dəfə.

Süyuti, əd-Durrul-mənsur fit-təfsiri bilməsur, 850 dəfə.

Şovkani, Fəthul-qədir, 440 dəfə.

Təfsiri Alusi, 360 dəfə.

Suddinin öz qeyd etdikləri və təfsirlərdə ondan nəql edilən rəvayətlər ümumilikdə 9134 dəfə qeyd edilmişdir. Biz bütün təfsir kitablarına müraciət etmədik. Yalnız ən əsas olan təfsir kitablarını qeyd etdik.

### Üçüncü mövzu: Səid bin Cübeyr

Zəhəbi deyir: Səid bin Cübeyr Valibi. Qari və fəqih. Görkəmli alimlərdən biri... Əşəs bin İshaq belə nəql edir: "Səid bin Cübeyrə alimlərin arifi deyilirdi. O, İbn Əşəslə Həccaca qarşı vuruşduğu üçün Həccac onu qətlə yetirmişdir..."[305]

Şəmsəddin bin Cəzəri deyir: "Səid bin Cübeyr Hişam Əsədi Valibi. Ona Abdullah da deyilirdi. Kufəlidir. Tabeinlərdəndir. Hörmətli məqama sahib olan böyük imam idi... İsmail bin Əbdülməlik belə nəql edir: "Səid bin Cübeyr ramazan ayında (namazda) bizə imamlıq edirdi. Bir gecə Abdullahın – İbn Məsudu nəzərdə tutur – bir gecə isə Zeyd bin Sabitin qiraəti ilə oxuyurdu. Həccac 95-ci ildə Vasit şəhərində onu qətlə yetirdi..."[306]

Səid bin Cübeyrin rəvayət nəql etmək baxımından etibarlı olması barədə alimlərin arasında heç bir fikir ayrılığı yoxdur. Buxari və Müslim onun nəql etdiyi rəvayətlə dəlil gətirmişlər. İbn Həcər onun barəsində belə deyib: "Səid bin Cübeyr Əsədi etibarlı, sabit və fəqihdir".[307]

### Səid bin Cübeyrin şiə olmasının dəlilləri

Zəhəbi nəql edir ki, Həccac Səidi qətlə yetirmək üçün onu həbs etdikdə ona belə dedi: "Muhəmməd (s) barədə nə deyirsən?" (Səid) dedi: "Rəhmət peyğəmbəri və hidayət imamıdır". (Həccac) dedi: "Əli barədə nə deyirsən? O, cənnətdədir, yoxsa cəhənnəmdə?" (Səid) dedi: "Əgər ora daxil olsan, ordakıları gördükdə biləcəksən". (Həccac) dedi: "Bəs xəlifələr barədə nə deyirsən?" (Səid) dedi: "Mən onların vəkili deyiləm". (Həccac) dedi: "Onlardan hansıları sənin daha çox xoşuna gəlir?" (Səid) dedi: "Xaliq hansından daha çox razıdırsa!" (Həccac) dedi: "Xaliq hansından daha çox

---

[305] Təzkirətul-huffaz, c. 1, s. 76, 77

[306] Ğayətun-nihayət fi təbəqatil-qurra, c. 1, s. 305, 306

[307] Təqribut-təhzib, c. 1, s. 349

razıdır?“ (Səid) dedi: “Bunun elmi Onun (Allahın) yanındadır”. (Həccac) dedi: “Mənə qarşı doğru olmadın”.[308]

Həccacla Səid bin Cübeyrin arasında baş verən bu dialoqda bir neçə məsələ diqqətimizi çəkir. Həmin məsələlərdən biri də Həccacın ondan “Əli barəsində nə deyirsən?” soruşmasıdır. Bu sual ilə Həccac onun şiə olmasını öyrənmək istəyirdi. Daha sonra ondan xəlifələr, yəni Əbu Bəkr, Ömər, Osman barədə soruşur. Səidin qəlbindəkiləri bilmək istəyirdi. Səid sələfin və hədis əhlinin etiqad etdiyi kimi onların cənnətlə müjdələndiyini və Rəsulullahdan (s) sonra ən üstün şəxs olmalarını deməkdən boyun qaçırdı. Onların qəbul olunmuş sıra ilə üstünlüklərini söyləmədi. Həccac ondan “Hansıları sənin daha çox xoşuna gəlir? deyə soruşduqda isə “Xaliq hansından daha çox razıdırsa!” deyə cavab vermişdir. Çünki onların üstün olma baxımında sıra ilə desəydi əvvəlcə Əbu Bəkr, sonra Ömər, daha sonra isə Osmanın adlarını söyləməli idi. Bunu edəcəyi təqdirdə Həccacın razılığını qazana biləcəyinə və bununla da ölümdən canını qurtara biləcəyinə baxmayaraq belə etmədi. Həccac Əli (ə) –a qarşı düşmənçilik edirdi. Buna görə də Səid Əli (ə) barədə aşkar cavab verməmişdir. Həcac onun cavablarına qane olmayaraq “Mənə qarşı doğru olmadın” dedi. Elə şeylər vardı ki, Səid onları gizli saxlayırdı. Bəlkə də Həccacın başqa hakimlər kimi casusları vardı. Onlar alimlərin və böyük şəxsiyyətlərin barəsində ona məlumatlar daşıyırdılar. Səidin İmam Səccadla (ə) yaxın münasibətdə olması və ona yaxınlığı Həccaca gizli deyildi.

Həccacın Səidi qətlə yetirməsinin səbəbini ona qarşı çıxması ilə əlaqələndirənlər səhv edirlər. Əgər onun Həccaca qarşı çıxması qətl olunmasına səbəb olsaydı Həccac Şəbini də qətlə yetirərdi. Lakin Həccac onu bağışladı və onunla hörmətlə davrandı. Çünki Şəbi Bəni Üməyyənin tərəfdarlarından idi. Əgər Səid də Bəni Üməyyəyə tərəfdar olsaydı Həccac

---

[308] Siyəru əlamun-nubəla, c. 4, s. 331

onu da bağışlayardı. Lakin Səid Əhli-beytə (ə)-ə məhəbbət bəslədiyi üçün onu qətlə yetirdi. Əgər Səidin İbn Əşəslə birlikdə Həccaca qarşı qiyam etməsi onun qətl olunması üçün yetərli səbəb idisə bəs nə üçün Həccac onun Əli və xəlifələr barədə əqidəsini sorğu-sual edirdi?

Şiə alimləri Səid bin Cübeyrin tərcümeyi-halını qeyd etmişlər. Şiə alimlərinin və tədqiqatçılarının əksəriyyətinin rəyinə əsasən Səid Əhli-beytin (ə) ən ixlaslı şiələrindən olmuşdur. Şübhəsiz ki, şiə alimləri öz məzhəblərinə mənsub olanları daha yaxşı tanıyırlar. Sadəcə bu, həmin şəxsin şiəliyini isbat etmək üçün yetərlidir.

Şeyx Tusi Səidi İmam Zeynulabidin (ə)-ın səhabələrindən hesab etmişdir.[309]

Başqa bir yerdə isə belə deyir: "Fəzl bin Şazan belə nəql edir: "Əli bin Hüseynin (ə) zamanında onun işlərinin başında beş nəfər vardı: Səid bin Cübeyr, Muhəmməd bin Cübeyr bin Mutim, Yəhya bin Ummu Təvil, Əbu Xalid Kabili – onun adı Vərdan, ləqəbi isə Kənkər idi –və Əmirəlmöminin (ə)-ın tərbiyə etdiyi Səid bin Musəyyib".[310]

Həmçinin səhih sənədlə belə nəql edir: "Hişam bin Salim Əbu Abdullahdan (ə) belə nəql edir: "Səid bin Cübeyr namazda Əli bin Hüseynə (ə) iqtida edirdi. Əli bin Hüseyn (ə) onu çox tərifləyirdi. Həccac məhz bu məsələyə görə onu qətlə yetirmişdir. O, əməlisaleh biri idi".[311]

Səid bin Cübeyrin İmam Əli bin Hüseynin (ə) – İmam Zeynulabidinin – imamlığı ilə namaz qılması və İmamın onun tərifləməsi, onu əməlisaleh hesab etməsi Səidin imamlara (ə) yaxınlığına və onlara tabe olmasına dəlalət edir.

Şeyx Muhəmməd Həsən Kaşiful-ğita belə deyir: "Səid bin Cübeyr bin Haşim Kufi. Hədis hafiz, qari, təfsir alimi, alimlərin arifi. Məşhur alim,

---

[309] Ricali-Tusi, s. 114

[310] İxtiyaru mərifətit-rical (Şeyx Tusi), c. 1, s. 332

[311] Həmin mənbə, c. 1, s. 335

yüksək zirvə, parlaq və görkəmli şəxsiyyət, hər bir dildə adı çəkilən insan. Onun səsi hər tərəfə yayılmış və bütün hüdudları aşmışdır. Əslən Kufədəndir. İxlaslı şiələrdəndir. Əhli-beytə (ə) bağlı olan, bunu aşkarcasına car çəkən və onlara tabe olmağın vacibliyinə dəvət edən şəxs idi. Onun – Allah ondan razı olsun – şəhid olmasının səbəbi məhz bu idi. Onu Həccac bin Yusif – Allah ona lənət eləsin – qətlə yetirmişdir. Əhməd bin Hənbəl onun barəsində belə demişdir: "Yer üzündə elə bir adam yox idi ki, onun elminə möhtac olmasın".[312]

Şeyx Ağa Bozorg Tehrani Səid bin Cübeyrin təfsirini qeyd edərkən belə deyir: "Tabein, şəhid və şiə Səid bin Cübeyrin təfsiri".[313]

Seyid Möhsin Əmin onun barəsində belə demişdir: "Həccac Səid bin Cübeyri şiəliyə görə qətlə yetirmişdir".Həmçinin belə demişdir: "Doğrusu budur ki, o Əhli-beytə bağlılığına görə qətlə yetirilmişdir. Şəbinin bağışlanmasın səbəbi isə onun Əhli-beytən üz çevirib Bəni Üməyyəyə bağlanması idi".[314]

Seyid Həsən Sədr deyir: "İbn Cübeyr ən ixlaslı şiələrdən idi. Əllamə Cəmaləddin bin Mutəhhər əl-Xuləsə kitabında, Əbu Əmr Kəşşi rical kitabında qeyd etdiyi kimi alimlərimiz onun şiə olmasını demişlər. Onun şiəliyi və əməlisaleh olması barədə imamlardan çoxlu rəvayətlər nəql edilmişdir. Həccac onu məhz şiə olduğu üçün qətlə yetirmişdir".[315]

Nəraqi yazır: **"Səid bin Cübeyr tərifəlayiqdir. O, İmam Səccadın (ə) səhabələrindən idi. Əhli-Beytə (ə) məhəbbət bəslədiyi üçün Həccac onu qətlə yetirmişdir".**[316]

Şeyx Cəfər Sübhani onu Əhli-Beyt şiələrindən hesab etmişdir.[317]

---

[312] Əsluş-şiə və usuliha, s. 348

[313] əz-Zəriə, c. 4, s. 276

[314] Əyanuş-şiə, c. 1, s. 28; c. 7, s. 236

[315] əş-Şiə və fununul-İslam, s. 25-26

[316] Şuəbul-məqal fi dəracatir-rical, s. 44

Şiənin görkəmli alimi və şiə məzhəbinin sözcüsü Şeyx Müfid (vəfatı: 413 h.q) Səid ibn Cübeyrin nəslindəndir. Şeyx Nəcaşi belə yazır: **"Muhəmməd ibn Muhəmməd ibn Nüman ibn Əbdüssalam ibn Cabir ibn Nüman ibn Səid ibnCübeyr".**[318]

Şiə mənbə kitabları və hədis qaynaqlarında Səid bin Cübeyrdən 180-dən çox rəvayət nəql olunmuşdur.

"Təhzibul-kamal" kitabının tədqiqatçısı Doktor Bəşşar Əvvad ravilərdən birinin tərcümeyi-halından bəhs edərkən belə yazır: "Şiələr kitablarından ondan rəvayətlər nəql etmiş və onu Sadiqin səhabələrindən hesab etmişlər... Bütün bunlar onun şiə olmasına dəlalət edir. Onun etibarlı olması müzakirə olunmalıdır. Ən yaxşısı onun kimisinin etibarlı olması məsələsindən çəkinmək lazımdır".[319]

### Səid bin Cübeyrin təfsiri

Səid bin Cübeyr Qurani-kərimə təfsir kitabı yazmışdır. Şeyx Tehrani "əz-Zəriə" kitabında həmin kitaba işarə etmişdir. İbn Teymiyyə Səid bin Cübeyri təfsir elmini bilən insanların ən biliklisi olanlardan hesab etmişdir.[320]

Mucəmu ruvatiş-şiə kitabımızda qeyd etdiyimiz kimi Səid bin Cübeyrin adı minlərlə rəvayətlərin sənədində qeyd edilmişdir. Aşağıda təfsir kitablarında Səid bin Cübeyrin Quran ayələrinin təfsiri barədə nəql etdiyi rəvayətlərin sayını qeyd edirik:

Təfsiri Təbəri, 1617 dəfə.

Təfsiri İbn Əbu Hatəm, 1825 dəfə.

Təfsiri Sovri, 60 dəfə.

---

[317] Əzvau əla əqaidiş-şiəl-imamiyyə, 399

[318] Fihristu əsmai musənnifiş-şiə, s. 399

[319] Təhzibul-kamal, s. 19, 170

[320] Bax; əl-İtqan fi ulumil-Quran, c. 2, s. 498

Nəhhas, Məanil-Quran, 225 dəfə.

Cəssas, Əhkamul-Quran, 115 dəfə.

Təfsiri Səmərqəndi, 130 dəfə.

Sələbi, əl-Kəşfu vəl-bəyan ən təfsiril-Quran, 400 dəfə.

Vahidi, Əsbabun-nuzul, 35 dəfə.

Təfsiris-səmani, 130 dəfə.

Bəğəvi, Məalimut-tənzil fi təfsiril-Quran, 220 dəfə.

İbn Ərəbi, Əhkamul-Quran, 40 dəfə.

İbn Kəsir, Təfsirul-Quranil-azim, 715 dəfə.

əl-Muhərrər fi təfsiril-kitabil-əziz, 140 dəfə.

İbn Covzi, Zadul-məsir fi ilmit-təfsir, 430.

Təfsiri Razi, 125 dəfə.

Qurtubi, əl-Camiu li əhkamil-Quran, 400.

Əbu Həyyan Əndəlusi, Təfsiril-bəhril-muhit, 35 dəfə.

İbn Həcər, "əl-Ucab fi bəyanil-əsbab", 70 dəfə.

Süyuti, "əl-İtqan fi ulumil-Quran", 70 dəfə.

Süyuti, "əd-Durrul-mənsur fit-təfsiri bil-məsur", 160 dəfə.

Şovkani, "Fəthul-qədir", 335 dəfə.

"Təfsiri Alusi", 120 dəfə.

Təfsir alimlərinin Səid bin Cübeyrdən nəql etdikləri, təkrar olunanlarla birlikdə, 7392 hədis və rəvayətdən çoxdur

**Tədqiqatın xülasəsi**

Sələfilər və onların düşüncəsində olanlar həmişə Quranın mətnini nəql etmələri və Quran qariləri olmaqla fəxr edirlər. Biz sübuta yetirdik ki, onların hal-hazırkı qiraətləri Həfs bin Süleymana istinad edilir. Halbuki onu yalan və hədis qondarmaqda ittiham etmişlər. Belə olduğu halda onlar şiələrdən Quranın mətni və oxunuşu barədə sənəd tələb etməyə haqları çatırmı?

Həfsin Asimdən nəql etdiyi qiraət əsrlər boyu ümmətin etimad etdiyi və hazırkı dövrümüzdə islam aləmində ən məşhur qiraətdir. Bu qiraət növü isə Kufə və şiə qiraətidir. Bu qiraətin raviləri şiələrdən ibarətdir və şiələrin imamı Əli bin Əbu Talibə (ə) isnad edilir.

Həmzə Zeyyat və Kisai yeddi məşhur qarilərdəndir. Bu iki şəxs isə qeyd etdiyimiz kimi şiə məzhəbinə mənsub olan şəxsiyyətlərdəndir. Deməli, məşhur yeddi qaridən üçünün şiə olmasında heç bir şübhə yoxdur.

Əmr bin Əla yeddi qaridən biridir. O, bu qiraəti şiə şeyxlərindən öyrənmişdir.

Şiələr Asimin qiraətinə olduqca böyük əhəmiyyət vermişlər. Şiə kitablarında Asimin qiraəti barədə nəql olunan sənədlər var. Bundan başqa şiə müəllifləri bu qiraət barədə çoxlu sayda kitablar yazmışlar.

Aban bin Təğlib, Əməş və Həmran bin Əyun kimi məşhur olan çoxlu sayda şiə qariləri olmuşdur. Təfsir kitablarında onların qiraətlərinə işarə olunmuşdur. Bu isə şiələrin Quran qiraətində və bu elmə sahib olanların içərisində ilk qabaqcıllar olmalarına dəlalət edir.

Ərəb dilinin qrammatikasının əsası Əbüləsvəd Duəli və Xəlil Fərahidi tərəfindən qoyulmuşdur. Sonrakı alimlər məhz onlardan bu elmi öyrənmişlər. Ərəb dilinin nəhv və sərf elminin dini mətnlərin dərk olunmasında müstəsna rolu var.

Qurani-Kərimin nöqtələnmə və hərəkələnməsi Əbüləsvəd Duəli, Yəhya bin Yəmur, Xəlil Fərahidi kimi şiə məzhəbinin mənsubları tərəfindən yerinə yetirilmişdir. Onların bu işi islam ümməti üçün əvəz olunmaz böyük xidmətdir. Məhz bu işin sayəsində müasir müsəlman Qurnai-Kərimi oxuya və başa düşə bilir.

Müsəlman təfsir alimləri ilk dövrlərin şiə təfsirçilərinə etimad etmişlər. Təfsir kitabları onların nəql etdikləri rəvayətlər və söylədikləri rəylərlə doludur. Məqsədimiz ilk dövrlərdə yaşamış bütün şiə təfsirçilərinin adlarını qeyd etmək olmadığına görə həmin təfsir alimlərindən yalnız

üçünün – Əbdürrəzzaq Sənani, Suddi və Səid bin Cübeyrin barəsində bəhs etdik. Qeyd etdiklərimizdən həmin təfsir alimlərinin təfsir elmi sahəsinə verdikləri töhfələr və müsəlman təfsir alimlərinin onlara nə dərəcədə etimad etmələri tam aydın oldu.

Bu kiçik həcmli araşdırma Quran qiraəti, Quran mətinin nəql olunması, Quran elmlərinin əsasının qoyulması, Quranın nöqtələnmə və hərəkələnməsi sahəsində şiə məzhəbinə mənsub olan müsəlmanların digər müsəlmanlardan öndə olmalarını və onların üzərində haqlarını əks etdirir. Çoxları bu həqiqətləri etiraf etməyə özlərində cürət tapa bilmirlər, lakin gözlərini qapayan inadkarlara baxmayaraq, bu həqiqət həmişə parlayıb işıq saçacaq.

**Aləmlərin rəbbi olan Allaha həmd olsun!**